**BEŞİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XI SESSİYASI İCLASININ**

# PROTOKOLU № 80

*Milli Məclisin iclas salonu.*
*14 noyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Hacıbala Abutalıbov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Həsənov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının vergilər naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**İnam Kərimov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Vaqif Əliyev**, Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini.

**Ceyhun Bayramov**, Azərbaycan Respublikasının təhsil naziri.

**Elsevər Ağayev**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Ramin Quluzadə**, Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri.

**Gülməmməd Cavadov,** Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Fərhad Hacıyev,** Azərbaycan Respublikası Gənclər və idman nazirinin müavini.

**Yəhya Musayev**, Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

* * *

**Səfər Mehdiyev**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Hicran Hüseynova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Tahir Budaqov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.

**Rüstəm Şahbazov,** Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini.

**Səyyad Salahlı,** Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini.

**Samir Nuriyev,** Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

* * *

**Aftandil Babayev**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədr müavini.

**Şahmar Mövsümov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**İbrahim Alışov**, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru.

**Şirzad Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**İdris İsayev,** Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

* * *

**Şahin Sadıqov,** Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat və maliyyə-kredit siyasəti şöbəsinin müdiri.

* * *

**Vüqar Gülməmmədov,** Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov,** Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

2. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

3. İşsizlikdən sığorta fondunun 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

4. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

5. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

6. Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il üçün xərclər smetası haqqında.

7. Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında.

8. Azərbaycan Respublikası 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

10. "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanununun layihəsi haqqında (ikinci oxunuş).

11. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rəşad Mahmudov, Jalə Əliyeva, Sona Əliyeva, Elçin Quliyev, Rafael Hüseynov, Sahib Alıyev, Arif Rəhimzadə, Məlahət İbrahimqızı, Yaqub Mahmudov, Ağalar Vəliyev, Fazil Mustafa, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**2. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Sahil Babayev, Vüqar Gülməmmədov, Aydın Hüseynov, Ziyafət Əsgərov, Fazil Mustafa, Siyavuş Novruzov, Elmira Axundova, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Azər Badamov, Fəzail Ağamalı, Fərəc Quliyev, Əli Məsimli, Sahib Alıyev, Elman Məmmədov, Qənirə Paşayeva, Zahid

Oruc, Valeh Ələsgərov, Elşən Musayev, Musa Qasımlı, Sədaqət Vəliyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.07 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**3. İşsizlikdən sığorta fondunun 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.08 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Əli Məsimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.15 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*14 noyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri. Xahiş edirəm, hörmətli millət vəkilləri, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik. Dünənki iclasda 28 nəfər həmkarımız çıxış etdi. Bu gün həmin siyahı ilə davam edirik. Mən təklif edirəm ki, bir saat müzakirə edək, qalan çıxışları ikinci oxunuşa saxlayaq. Çünki məsələlərimiz çoxdur. Buyursun Rəşad Mahmudov.

**R.Mahmudov.** Hörmətli cənab Sədr, dəyərli millət vəkilləri və hökumət nümayəndələri! Hamımıza məlumdur ki, səhiyyədə maliyyə siyasətinin düzgün qurulması, ma-

liyyə resurslarının və ayrılan maliyyə xərclərinin düzgün istifadəsi əhalinin sağlamlığının qorunmasında və həyat keyfiyyətinin artırılmasında mühüm rol oynayır. Sosial sahənin əsasını təşkil edən səhiyyə sistemində maliyyə siyasətinin səmərəli qurulması üçün bir çox dövlət qurumlarının sıx əməkdaşlığı çox vacibdir. Bu dövlət qurumları arasında tibbi xidmət göstərən Səhiyyə Nazirliyi ilə yanaşı, Dövlət Sosial Müdafiə Fondu, xidmətlərin alıcısı kimi iştirak edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, gələcək nəsillərin sağlamlığının təminatçısı olan Qida Təhlükəsizliyi Agentliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyinin müvafiq qurumlarının və vergi orqanlarının ortaq və birgə fəaliyyəti dövlət səhiyyə siyasətinin inkişafında mühüm rol oynamaqdadır.

Sevindirici haldır ki, müstəqillik dövründə ilk dəfə olaraq 2019-cu ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün ayrılan vəsait psixoloji sədd olan 1 milyard manatı keçmişdir. Beləliklə, səhiyyə xərclərinin dövlət büdcəsindəki xüsusi çəkisi ilk dəfə olaraq 4,2 faiz təşkil edəcəkdir. Bundan əlavə, icbari tibbi sığortanın 2019-cu ildə tətbiqinə 224 milyon manat vəsait nəzərdə tutulmuşdur. 2018-ci illə müqayisədə 42 faiz daha çox olan bu vəsaitin ayrılması səhiyyəmizin inkişafına öz real töhfəsini verəcəkdir.

Hörmətli hökumət nümayəndələri, fürsətdən istifadə edərək diqqətinizi bir məsələyə çəkmək istəyirəm. Dünya ölkələrində təhsil və səhiyyə xərclərinin dövlət büdcəsi xərclərinin tərkibindəki xüsusi çəkisi ilə bağlı statistik göstəriciləri nəzərdən keçirdikdə aydın görünən bir həqiqət var ki, səhiyyə xərclərinin xüsusi çəkisi təhsil xərclərinin xüsusi çəkisindən 20–25 faiz daha yüksək olur. Bu çəkinin daha yüksək olmasının səbəbi əhaliyə göstərilən keyfiyyətli tibbi xidmətin əsas elementləri ilə əlaqədardır.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, əhaliyə göstərilən keyfiyyətli tibbi xidmətin əsas elementləri tibbi heyət, tibb müəssisələri, tibbi texnologiya, maliyyələşmə və informasiya texnologiyalarıdır. Hamımıza məlumdur ki, 2-ci və 3-cü bəndlərdə göstərilən tibb müəssisələri və tibbi texnologiyalar 2005-ci ildən başlayaraq cənab Prezidentimizin və Mehriban xanımın əzmi və əməli işi sayəsində Səhiyyə Nazirliyi və dövlət qurumları, eləcə də özəl sektor tərəfindən paytaxtdan tutmuş, ölkənin hər bir yanında yüksək səviyyədə qurulmuşdur. Sizə əminliklə söyləyə bilərəm ki, bu imkanlarımızla bir çox Avropa ölkələrinin tibb müəssisələri ilə müqayisədə daha yaxşı səviyyədəyik.

Maliyyələşmə ilə əlaqəli yeni elementə bu gün müzakirə etdiyimiz büdcə layihəsi ilə qədəm qoyacağıq. Düşünürəm ki, artıq həllini tapmış olan 3 element yaxın gələcəkdə birinci element olan tibbi heyətin fərdi inkişafına və kütləvi şəkildə bu sistemə inteqrasiya olunmasına gətirib çıxaracaqdır. Sonunda bu 4 komponentin üzərinə qurulacaq hər bir fəaliyyəti nəzarətdə saxlayan sonuncu element olan informasiya sistemlərinin doğru tətbiqi proqnozlar çıxarmağa, planlar qurmağa və səhiyyə xidmətlərinin daha da təkmilləşdirilməsinə imkan yaradacaqdır.

Hörmətli millət vəkilləri, nəticədə bu gün səs verdiyiniz bu qanun layihəsi həm də dövlətin 2019-cu ildən başlayan və gələcəkdə davam edəcək səhiyyədə yeni maliyyə yanaşması kimi yadda qalacaq. Bu addım Cümhuriyyət tariximizin şərəfli 100 illiyindən sonra qədəm qoyduğumuz yeni 100 illiyin ilk ilində Azərbaycan dövlətinin səhiyyə siyasətində yeni maliyyə baxışı kimi tarixdə iz buraxacaqdır.

Bu addımlar Prezidentimizin səhiyyəyə ayırdığı diqqətin bariz təcəssümü olmaqla, səhiyyəmizin dayanıqlı inki-

şafı və əhalimizin sağlamlığının qorunmasında öz müsbət təsirini göstərəcəkdir. Azərbaycan səhiyyəçiləri də inanır ki, dövlətin həyata keçirdiyi düşünülmüş səhiyyə siyasəti sayəsində bizlər yaxın gələcəkdə hər bir vətəndaşın ehtiyac olduqda sağlamlığını heç düşünmədən və qorxmadan əmanət edəcəyi Azərbaycan səhiyyəsinin yüksək zirvəsinə çatmış olacağıq.

Sonunda büdcə layihəsinin hazırlanmasında əməyi keçən hər bir kəsə yüksək ehtiram və hörmətimizi çatdırır, iclas iştirakçılarına sağlam və ümid dolu gələcək həyat arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva.

**J.Əliyeva.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli hökumət üzvləri, həmkarlar və media mənsubları! Mən çıxışımı Nazirlər Kabinetinin 2018-ci il 8 iyul tarixli iclasında cənab Prezident İlham Əliyevin səsləndirdiyi bir fikir ilə başlamaq istərdim: “Bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik”.

Bəli, müzakirə etməkdə olduğumuz büdcə layihəsi də həm düşünülmüş siyasətin, həm güclü iradənin, həm də güclü iqtisadiyyatın aynası kimi qiymətləndirilməlidir. Ölkəmiz son zamanlarda bütün sahələrdə, xüsusilə əhalinin sosial müdafiəsi sahəsində, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət, meliorasiya, enerji, yol quruculuğu və bu sahənin ayrılmaz parçası olan dəmir yollarının inkişafı sahələrində böyük uğurlara imza atıb. Dünən, bu gün burada, eləcə də komitələrdə çoxsaylı müzakirələrdən gəlinən nəticə bundan ibarətdir ki, büdcə layihəsi, həqi-

qətən də, real proqnozlara əsaslanaraq hazırlanmış əhəmiyyətli bir sənəddir. Büdcə layihəsində bütün sahələrə ötən ilə nəzərən daha çox vəsait ayrılması, əlbəttə ki, ölkənin iqtisadi gücünün ölçüsüdür. Eləcə də ölkədə hökm sürən ictimai, iqtisadi, siyasi sabitliyin, maliyyə sabitliyinin göstəricisidir. Təbii ki, biz bu layihəni dəstəkləyirik, amma eyni zamanda, bəzi təkliflərimi də səsləndirmək istəyirəm.

Güzəştli ipotekaların, sadəcə, dövlət qulluqçularına deyil, müəllimlərə, həkimlərə, mədəniyyət, incəsənət xadimlərinə, yaradıcı şəxslərə də şamil edilməsi, internat məktəblərdən məzun olan gənclərin ev və iş ilə təmin olunması, ailə münaqişələri üzündən evindən didərgin düşən və sözün əsl mənasında küçələrdə qalmağa məcbur olan qadınlar və uşaqlar üçün dövlət sığınacaqlarının tikilməsi, icbari tibbi sığortanın bütün ölkədə tətbiq edilməsi işinin sürətləndirilməsi üçün əlavə vəsaitin ayrılması əhəmiyyətlidir.

Mən bir neçə kəlmə də mədəniyyət sahəsi haqqında danışmaq istərdim. Mədəniyyət bir ölkənin pasportudur, mədəniyyət geniş mənada özündə bütün sahələri ehtiva edir, birləşdirir. Belə olan halda, əlbəttə ki, mədəniyyətə daha çox diqqət ayrılmalıdır. Dövlət mədəniyyət siyasətinin tam gücü ilə həyata keçirilməsi üçün fikrimizcə, büdcədə ayrılan vəsait bir o qədər də yetərli deyil. Xüsusilə də kino yaradıcılığına diqqət ayrılmasını xahiş edirik. İstər bədii, istərsə də sənədli olsun yaradılan bütün filmlər əsrlərlə yaşayaraq, bir ölkəni tanıdan əhəmiyyətli bir materiala çevrilir. Bir ölkənin keçmişini, bu gününü və hətta gələcəyini özündə əks etdirir. Buna görə də keyfiyyətin artırılması və dünya səviyyəli filmlərin istehsal edilməsi üçün büdcədən daha sanballı vəsait ayrılmasına ehtiyac olduğunu düşünürük.

Hörmətli həmkarlar və hökumət üzvləri. Komitələrdə müzakirələr zamanı səsləndirdiyimiz bir fikri bu gün bir daha geniş iclasda səsləndirmək istərdik. Bütün məsələlərin həllini, sadəcə, dövlətdən gözləmək olmaz. İş adamları, özəl sektor da fəal şəkildə bu prosesə qoşulmalıdır. Komitə müzakirəsi zamanı mədəniyyət nazirimiz Əbülfəs müəllim çox əhəmiyyətli bir fikir irəli sürdü. Mədəniyyət sahəsində sponsorluq məsələsinə toxundu. Bizcə, sponsorluq təkcə mədəniyyət sahəsində deyil, ümumiyyətlə, bütün sahələrdə fəaliyyətin tərkib hissəsi kimi nəzərdə tutulmalıdır və bu ümumi işin xeyrinə olardı. Dövlət özəl sektora bütün imkanları yaradır, onun inkişafı üçün əhəmiyyətli olan bütün layihələr həyata keçirilir. Deməli, özəl sektor da dövlətə öz tərəfindən yardımçı olmalıdır.

Mən deputatı olduğum Zərdab və Ucar rayonları ilə bağlı təkliflərimi də səsləndirmək istəyirdim. Lakin təəssüf olsun ki, vaxt sona çatır. İmkan olarsa, ikinci oxunuşda hər iki rayon ilə bağlı xahiş və təkliflərimizi hökumət üzvlərinin diqqətinə çatdıracağıq. Sözümün sonunda layihənin hazırlanmasında əməyi olan hər bir hökumət üzvünə bir daha təşəkkürümüzü bildirir və ümid edirik ki, səsləndirdiyimiz təkliflər 2019-cu ilin dövlət büdcəsində nəzərə alınacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sona Əliyeva.

**S.Əliyeva.** Hörmətli cənab Sədr, dəyərli hökumət üzvləri, media nümayəndələri, dəyərli həmkarlar! Əlbəttə ki, bu gün müzakirə olunan büdcə sənədi ilə bağlı bütün həmkarlarım kimi, mənim də fikrim çox müsbətdir. Doğrudan da, büdcə sənədinin hazırlanmasına böyük əmək sərf olunub və layihədə ölkənin iqtisadi inkişafını şərtləndirən kifayət qədər müddəalar yer alıb. Bu, elə büdcə vəsaitlərinin artımında ciddi şəkildə fərq olmasından görünür. Əlbəttə

ki, bu gün ölkədə aparılan islahatlar və görülən bütün tədbirlər Azərbaycan reallığında nəinki bugünkü iqtisadi inkişafa, eləcə də Azərbaycanın ictimai-siyasi sabitliyinin və iqtisadi inkişafının gələcəkdə də təmin olunmasına hesablanmışdır. Bu məqsədlə bu gün bir çox islahatların təməli qoyulmaqdadır.

Mən bu gün çox qısa vaxt müddətindən istifadə edərək seçicilərimizin müəyyən müraciətlərini çatdırmaq istərdim. Hamıya bəllidir ki, kənd dairəsindən seçilmək və orada işləmək şəhərlərə və rayon mərkəzlərinə nisbətən daha çətindir. Çünki kəndlərdə həddindən çox, ciddi problemlər mövcuddur və bunun öhdəsindən gəlmək, təbii ki, tək dövlətin işi deyil. Mənim seçicisi olduğum bir çox kəndlərdə vətəndaşların əsas müraciəti içməli və suvarma su problemləri ilə bağlıdır. Çaparlı, Sarıtəpə, Dəllər Cırdaxan, Dəllər Daşbulaq kəndlərində əhali ciddi su çatışmazlığı ilə bağlı daim müraciət edib və biz kollektiv şəkildə göndərilən həmin müraciətləri aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına ünvanlamışıq. Mən başa düşürəm, dünyada su problemi artıq qlobal bir məsələdir və görünür, dövlət bu məsələyə yenidən baxmalı, suyun daha səmərəli və faydalı istifadəsi ilə bağlı müəyyən tədbirlər görməlidir. Amma nəzərə alsaq ki, kəndlinin çörəyi, belə desək, torpaqdan çıxır və onun yaşaması üçün, məşğulluğu üçün su məsələsi çox vacibdir, onda düşünürəm, bu məsələ ilə əlaqədar çox ciddi tədbirlərə ehtiyac var. Məsələn, Ahıska türklərinin də məskunlaşdığı və mənim dairəmdə yerləşən Sarıtəpə kəndində 4 mindən artıq əhali yaşayır. Şəmkir su anbarından çəkilən kanalın kəndin üstündən keçməsinə baxmayaraq, kəndə oradan hər hansı bir qol, xətt ayrılmır. Bu da, orada, ümumiyyətlə, suvarma işlərində çətinlik yaradıb.

Kənd əhalisinin içməli su tələbatının artezianlar hesabına ödənməsi də, demək olar, qeyri-mümkündür. Əhali bununla bağlı dəfələrlə müraciət edib. Mən çox xahiş edərdim ki, bu məsələ həm Kənd Təsərrüfatı Nazirliyi, həm də Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən diqqətlə öyrənilsin və su çatışmazlığı problemi qismən də olsa həllini tapsın.

Eyni zamanda, mənim müraciətim, əlbəttə ki, həmişə olduğu kimi, təhsillə bağlıdır. Çox gözəl bir haldır ki, elə Şəmkir rayonu da daxil olmaqla, ildə bir neçə məktəbin əsaslı təmiri və tikintisi həyata keçirilir. Bununla bağlı, ümumiyyətlə, Təhsil Nazirliyinin son illərdə, əsasən də, bu il həyata keçirdiyi islahatı mən çox ciddi şəkildə dəstəkləyirəm. Əsasında şəffaflıq və ədalətlilik prinsipi dayanan bu islahatlar, əlbəttə ki, cəmiyyətdə çox müsbət qarşılanır. Biz bununla bağlı cəmiyyətdən davamlı, müsbət rəylər eşidirik. Lakin mənim dairəmdə bir dağ kəndi var – Ələsgərli kəndi – burada 240 yerlik məktəb qəzalı vəziyyətdədir. Hazırda orada 104 nəfər şagird təhsil alır və sizi inandırım ki, iki ballıq zəlzələ də məktəbin uçmasına kifayət edər. Bildiyim qədər, ölkəmizdə hər il 100-dən artıq modul tipli məktəb tikilir. Mən çox xahiş edərdim ki, Ələsgərli kəndində də bu vəziyyət nəzərə alınsın və modul tipli bir məktəbin tikilməsi ilə bağlı qərar verilsin.

Eyni zamanda, mənim Dəllər qəsəbəsi və Şiştəpə kəndindən olan seçicilərim də yenə məktəb tikintisi ilə bağlı müraciət ediblər. Mövcud iqtisadi inkişaf və demoqrafik göstəricilərin yüksəlməsi göstərir ki, əhali sürətlə artır və mövcud məktəblər şagirdlər üçün sıxlıq təşkil edir. Məsələn, Şiştəpə və Dəllər qəsəbə məktəblərində normadan iki dəfə çox şagird var ki, bu da, doğrudan da, məktəbdə təhsilin keyfiyyətinə ciddi təsir edir. Bununla bağlı çox is-

tərdim ki, Təhsil Nazirliyi önəmli məqamları nəzərə alsın.

Metodistlərlə bağlı da bir müraciətim var. Bunu qısa şəkildə demək istəyirəm. Metodistlərin dərs deməsi ilə bağlı çox müraciətlər olur. Düşünürəm ki, metodistlərin məktəbdə dərs deməsi çox vacibdir. Əks halda onlar dərsin qiymətləndirilməsi...

**Sədrlik edən.** Sağ olun. Elçin Quliyev.

**E.Quliyev.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Bu gün Milli Məclisin müzakirəsinə təqdim olunmuş Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanun layihəsi büdcənin sabitliyi və uzunmüddətli dayanıqlığının təmin edilməsi məqsədi ilə yeni büdcə qaydasının tətbiqi, əhalinin məşğulluq səviyyəsinin artırılması və sosial müdafiəsinin gücləndirilməsi tədbirlərinin davam etdirilməsi, ölkənin milli təhlükəsizlik və müdafiə qabiliyyətinin yüksəldilməsi, eləcə də xarici və daxili borc öhdəliklərinin tənzimlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar keyfiyyətcə yeni prioritetlərin formalaşmasını sürətləndirmişdir. Azərbaycanda yaradılmış böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadi idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması və digər tədbirlər iqtisadiyyatın davamlı inkişafını təmin edir. Qeyd etmək istəyirəm ki, 2019-cu ilin büdcəsi Maliyyə Nazirliyi və digər nazirliklər tərəfindən mükəmməl hazırlanmışdır və bu, Hesablama Palatasının rəyində də müsbət dəyərləndirilmişdir. Belə ki, 2019-cu il büdcə-vergi siya-

sətinin əsas prioritetini muzdla çalışanların gəlirləri ilə bağlı islahatın həyata keçirilməsi, iqtisadi fəaliyyətin stimullaşdırılması, iş yerlərinin, belə desək, kölgədən çıxarılması və müvafiq olaraq ödənilən əmək haqlarının şəffaflaşdırılması, qeyri-neft sektorunun inkişafı və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalına tətbiq olunan vergi güzəştlərinin daha 5 il müddətinə uzadılması, sadələşdirilmiş vergi dərəcəsinin bütün ölkə üzrə eyniləşdirilməsi, əlavə dəyər vergisinə cəlb olunan dövriyyənin tədricən genişləndirilməsi, nağdsız əməliyyatların stimullaşdırılması təşkil edir.

Dövlət büdcəsinin gəlirlərinin 22 milyard 917,5 manat və ya ümumi daxili məhsulun 28 faizi həcmində proqnozlaşdırılması müsbət qiymətləndirilir və onun xüsusi çəkisinin artırılması vacib məsələlərdəndir. Bu da 2018-ci ilin dövlət büdcəsindən 768 milyon manat çoxdur. Beynəlxalq maliyyə qurumları tərəfindən növbəti il üçün xam neftin bir barelinin 60–70 ABŞ dolları ətrafında proqnozlaşdırılması fonunda 2019-cu ilin dövlət büdcəsində neft gəlirlərinin hesablanmasında orta ixrac qiymətinin 60 ABŞ dollar olmaqla nəzərdə tutulması təqdirəlayiqdir.

2019-cu ilin dövlət büdcəsinin xərcləri 24 milyard 780,1 milyon manat təşkil edəcəkdir. 2019-cu ildə dövlət büdcəsinin xərclərində proqram və məqsədli tədbirlər üçün 10 milyard 314,4 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2018-ci illə müqayisədə 2 milyard 76,9 milyon manat və ya 25,2 faiz çoxdur. Bu xərclərin dövlət büdcəsi xərclərinin 41,6 faizini təşkil etməsi, gələcəkdə büdcənin məqsədli proqramlar əsasında tərtib olunması və bununla da şəffaflığın qorunmasına öz müsbət töhfəsini verəcəkdir. Bütün bunlarda məqsəd, sözsüz ki, ölkənin əsas iqtisadi hərəkətverici qüvvəsi olan özəl sek-

torun inkişafını stimullaşdırmaq və orada çalışanlara yeni istehsal sahələrini qurmaq üçün lazımi şərait yaratmaqdır.

Təmsil etdiyim Sabirabad rayonunda sənaye məhəlləsinin yaradılmasının rayonun sosial-iqtisadi inkişafında mühüm rol oynamasını xüsusi qeyd etmək istəyirəm. Hazırda bu istiqamətdə intensiv işlərin aparılmasına görə öz təşəkkürümü bildirirəm. Bundan başqa, rayonun Yastıqobu kəndinin qazlaşdırılması ilə bağlı kənd sakinləri adından cənab Prezidentimiz İlham Əliyevə və hökumət üzvlərinə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli hökumət üzvləri, 2 məsələ ilə əlaqədar olaraq seçicilərimin xahişini diqqətinizə çatdırmaq istəyirəm. Uzun illərdir ki, Sabirabad rayonunda fəaliyyət göstərən Səməd Vurğun adına 3 saylı orta məktəb üçün yeni binanın tikilməsini və Sabirabad şəhərinin mərkəzi küçələrinin 14 kilometrə yaxın asfalt örtüyünün yararsız hala düşdüyünü nəzərə alaraq, bu işlərin növbəti ilin büdcəsinə daxil edilməsini seçicilər adından sizdən xahiş edirəm. Qanun layihəsini dəstəkləyirəm və onun qəbul olunmasına səs verəcəyəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Rafael Hüseynov.

**R.Hüseynov.** Sabaha hansı əminliklə gedirik? 2019-cu ildə Azərbaycan necə yaşayacaq? Ətrafında düşüncə bölüşdüyümüz vacib sənəd bu mühüm suallara cavab axtarır və təhlillər onu göstərir ki, dünənə nisbətən 2019-cu ilə daha imkanlı gediriksə, büdcəmiz artırsa, bütün istiqamətlərdə irəliləyiş varsa, demək, əlbəttə, sevinməliyik, təqdir etməliyik. Bu sənəd ciddi dövlət və millət əhəmiyyəti daşıyır və onun hazırlanmasında təbii ki, böyük bir mütəxəssislər dəstəsinin aylarla apardığı təhlillər, tədqiqlər, araşdırmalar dayanır. Amma bu sənədin, bütöv sənədin müəllifi, altında imza atan əsas şəxs ölkə Prezi-

dentidir. Çünki cənab Prezidentin apardığı siyasət, yürütdüyü istiqamətlər olmasaydı, ildən-ilə artan büdcəmiz, yüksələn imkanlarımız da olmazdı. Dünyanın bu çətin dönəmində Azərbaycanı inamla irəlilətmək, onun iqtisadi gücünün, xalqın rifah halının artmasına mütəmadi şəkildə nail olmaq, əlbəttə, çox böyük nailiyyətdir.

Büdcə ilə əlaqədar ayrı-ayrı deputatların, müxtəlif mətbuat səhifələrində ayrı-ayrı mütəxəssislərin tənqidlər söyləməsi, iradlar bildirməsi də anlaşılandır. Çünki deputatlar xalqla daimi təmasdadırlar və bunları da tənqiddən, iraddan daha çox diqqət yönəltmək kimi dəyərləndirmək lazımdır. Çünki bu fikirlər cəmiyyətin ağrıyan yerlərinə, həssas nöqtələrinə diqqəti yönəldir ki, gələcəkdə imkan artdıqca bu məsələlərə də diqqəti artıraq. Mən ona görə də bu büdcənin ən müxtəlif aspektləri ilə bağlı geniş spektrdə fikirlərimi söyləyə bilərdim, lakin vaxtın azlığını və adətən konkret bir məsələ ilə bağlı danışaraq nəyəsə nail olmağın təcrübədəki təsdiqini nəzərdə tutaraq, yalnız bir istiqamətdə və bir məsələ ilə bağlı düşüncələrimi ortaya qoymaq istəyirəm.

Mədəniyyətlə bağlı danışmaq istəyirəm. Mədəniyyət nədir və onun bizim həyatımızda əhəmiyyəti nədən ibarətdir – bu hər kəsə bəllidir. Azərbaycanın bütün tarix boyu yaşayacaq böyük şəxsiyyəti Nəsirəddin Tusi XIII yüzildə Azərbaycanın ilk böyük Akademiyasını yaratmışdı və Marağada rəsədxana qurmaq istəyirdi. Hülaküyə üz tutur, bu rəsədxananı yaratmaq üçün maliyyə vəsaiti istəyir. Bütün zamanlarda bu maliyyə vəsaitlərini ayıranların əli bir az bərk olur və ona etirazla cavab verir. Söyləyir ki, bizim yerdə onsuz da problemimiz çoxdur, göydə ulduzları araşdırmağa nə ehtiyac var? Nəsirəddin Tusi həmişə yaşayacaq, çox müdrik bir söz söyləyir. Deyir:

"Yerdə rahat yaşamaq üçün göyü yaxşı bilmək lazımdır".

Azərbaycan insanının da özünü ifadədə, dünyada tanınmaqda ən güclü vasitəsi olan mədəniyyəti inkişaf etdirmək lazımdır. Bu öz yerində. Lakin cəmiyyət içərisində rahat yaşamaq üçün də mədəniyyət bizə çox lazımdır. Azərbaycan cəmiyyətində asayişi yalnız Daxili İşlər Nazirliyi bərqərar etmir. Azərbaycanda istəyiriksə, asayiş daim normal olsun, insanların həyatı asudə, rahat keçsin cəmiyyət mədəni olmalıdır. Ölkənin müdafiə qüdrətini, təhlükəsizliyini yalnız Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, indiki Dövlət Təhlükəsizliyi Xidməti təmin etmir. Mədəniyyət də, içərisi biliklə dolu, zəka ilə dolu, ağılla dolu mədəni, səviyyəli insanlar təmin edir. Odur ki, mədəniyyətə diqqət artıq olmalıdır və mədəniyyətin büdcədəki xüsusi çəkisi artmalıdır. Ümumi büdcənin içərisində ən azı 2 faiz olmalıdır ki, biz arxayın danışa bilək.

Kino ilə bağlı. Kino ilə bağlı ən müxtəlif istiqamətlərdə biz sözümüzü demişik. 2006-cı ildən 2018-ci ilə qədər büdcədən kinoya 65 milyon vəsait ayrılıb. 65 milyon vəsaitlə 45 tammetrajlı, 51 qısametrajlı film çəkilib. Bu, möcüzədir. Yalnız Köçərilər filmini çəkmək üçün Qazaxıstan 40 milyon ABŞ dolları həcmində vəsait sərf etmişdi. Odur ki, kinoya vəsait artırılmalıdır. 1 milyon yarım vəsaitlə kinonu irəlilətmək mümkün deyildir. Düşünürəm ki, əgər 13 ilə 65 milyon ayrılıbsa, demək, ilə 4 milyondan bir qədər artıq düşür. Elə bu büdcədə də həmin səviyyəyə çatdırılmalıdır. Düşünürəm ki, bu imkanları da tapmaq mümkündür. Çünki kino yalnız insanlara nəyisə göstərmək deyil. Bizdə dublyaj sənəti var. Bu dilimizlə bağlıdır. Cənab Prezidentin Azərbaycan dilinin saflığının qorunması ilə bağlı fərmanı var ki, çox əhəmiyyətli bir sənəddir. Dublyaj filmləri də dil sahəsində bizim siyasətimizin gerçəkləşməsinə

çox böyük töhfələr verə bilər. Bütövlükdə, bu büdcə layihəsi Azərbaycanın artan gücünün, dinamik inkişafının göstəricisidir. Əlbəttə ki, biz onu təqdir edirik və uğurlar arzulayırıq.

**Sədrlik edən.** Sahib Alıyev.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri, dəyərli həmkarlar! Hər bir ölkənin büdcəsinin həcmi, onun potensialının ölçüsü orada ədalətin, necə xərclənməsi də şəffaflığının göstərcisidir. Fikrimcə, hazırda bizim üçün ən çox aktuallıq kəsb edən sonuncudur. Cənab Prezidentin büdcənin tərtibinin proqramlar əsasında formalaşması haqda tələbi də məhz elə bununla bağlıdır. Bəli, büdcənin konkret proqramlar əsasında formalaşdırılması və hesabatlılıq – bunlar son dərəcə mühüm məsələdir. Bu büdcənin müsbət tərəflərindən biri, cənab Sədr, Siz də qeyd etdiyiniz kimi, ayırmaların proqramlar üzrə olmasına öncəkilərdən daha çox diqqət yetirilməsidir. Ümumiyyətlə, manatın məzənnəsinin gələn il üçün də dəyişməyəcəyinə, inflyasiyanın aşağı həddə saxlanacağına hədəflənən və bir çox sahələrdə əhəmiyyətli artımla diqqətçəkən belə bir büdcənin ortaya çıxması heç də asan deyil.

İndi elə bir dövrdə yaşayırıq ki, hər hansı bir ölkənin, özəlliklə də bizim kimi, həssas regionlarda yerləşənlərin büdcəsi təkcə onun iqtisadi potensialı ilə müəyyənləşmir. Çox təəssüf ki, artıq geosiyasidə olduğu kimi, geoiqtisadi müstəvidə də xaosun yaşanmağa başladığı bir dönəmdəyik. Burada da beynəlxalq qaydaları tərtib edənlərin elə özlərinin kefləri istədiyi vaxt həmin qaydaları gözardına almaları, rəqiblərinə qarşı çeşidli adlar altında sanksiya tətbiqi, hətta öz yaxın tərəfdaşları ilə ticarət savaşı aparmaları faktları ilə üzləşirik. Belə bir mürəkkəb dövrdə

Azərbaycanda nəqliyyat və turizm sektorundakı uğurlar, kənd təsərrüfatındakı irəliləyişlərin arxasında təkcə iqtisadi mahiyyətli addımlar durmur. Həm də digər dövlətlərə, özəlliklə də bizə qonşu olanlara yanaşmada yeridilən yüksək intellektə, böyük təcrübəyə, möhkəm iradəyə və öz millətinə sədaqətə dayanan, hərtərəfli düşünülmüş siyasət durur. Bu siyasətin adı Heydər Əliyev siyasətidir və bu siyasəti bu gün cənab İlham Əliyev uğurla reallaşdırır. Təkrarlayıram ki, bu büdcə məhz belə bir siyasətin nəticəsində meydana gəlib.

2019-cu ilin büdcə siyasətində qeyri-neft və qeyri-dövlət sektorunda çalışanların aylıq gəlir vergisinə güzəştin tətbiqini, orada sosial sığorta haqları üzrə yükün işəgötürəni şəffaflığa təşviq edən balanslı bölgüsünü çox mühüm addım kimi qiymətləndirirəm. Qeyri-leqal məşğulluğun azaldılmasına, kölgə iqtisadiyyatının müəyyən dərəcədə məhdudlaşdırılmasına, gəlirlərin formalaşmasında dayanıqlığın təmin edilməsinə yönələn bu siyasət, fikrimcə, tibbi sığortanın tətbiqi yönümündə böyük maneələrindən birinin aradan qalxmasına da səbəb olacaq ki, bu da hazırda bizim ən ağrılı yerimizdir.

Bir millət vəkili olaraq ən çox üzləşdiyimiz xahiş və şikayətlər məhz bahalı əməliyyatlara ehtiyacı olan xəstələrin bir çoxunun ona imkanlarının çatmaması ilə bağlıdır. Əlbəttə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə indiyə qədər yüzlərlə bu cür xəstənin qayğısına qalınıb və qalınır. Ancaq tibbi sığortanın total şəkildə tətbiqindən böyük vəsait tələb edən müalicə və əməliyyatlarla bağlı dəqiq hesabatlılığa dayanan ayrıca proqramların olmasına ehtiyac var. Bu, orqan köçürmələridir, – ötən dəfə çıxışında Qənirə xanım da səsləndirmişdi, – eşitmə qüsuru ilə

doğulanlarda gecikmədən, vaxtında bu qüsurun aradan qaldırılması kimi məsələlərdir.

Sonda Tərtərdən seçilmiş bir millət vəkili kimi, rayonumuzun 100 faiz qazlaşdırılanların ilk sırasında yer almasına görə cənab Prezidentə və onun bu yöndə tapırığını yerinə yetirənlərə təşəkkürümü çatdırmaqla yanaşı, bir neçə xahişimi də bildirmək istəyirəm. Hazırda rayonda 24 məktəb və 23 bağça normal təhsil və təlim-tərbiyə üçün tələb olunan standartlara cavab vermir. Bəzilərində isə Azad Qaraqoyunlu, Cəmillidə olduğu kimi vəziyyət çox acınacaqlıdır. Tərtərin üzləşdiyi ən böyük problemlərdən biri də su qıtlığıdır. Tərtər su anbarı düşməndən azad olunanadək bu problemin həlli yönündə yeni su artezian quyularının qazılması ilə yanaşı, daha effektli addımlar atılacağına ümid edirəm. Əvvəllər də bildirmişəm, bu ya Tərtərlə İncəçay üzərində yeni dəryaçanın tikilməsi, ya da Yuxarı Qarabağ kanalından bir qolun çəkilməsi ola bilər. Burada qürurla onu da vurğulamaya bilmirəm ki, hətta belə bir şəraitdə hektardan 23–24 sentner pambıq toplamaqla Tərtərin ölkə üzrə qabaqcıllardan biri olması bu camaatın zəhmətkeş olduğu qədər də qorxmazlığını, öz dövlətinə, onun ordusuna yüksək güvənini ortaya qoyur. Çünki söhbət cəbhənin bəzən bir neçə yüz metrliyində çalışanlardan gedir.

Məndən öncə çıxış edənlər 2019-cu il büdcəsinin sosial yönümlüyünə toxundular. Bəli, bizdə neçə illərdir ki, büdcə öz sosial yönümlüyünü qoruyub saxlayır. Amma xərclərin təsnifatına nəzər salsaq, görərik ki, bununla yanaşı, o, belə demək mümkünsə, həm də müdafiə yönümlüdür, anti işğal yönümlüdür, təhlükəsizlik yönümlüdür, sabitlik yönümlüdür. Mən bu büdcəyə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyursun Arif Rəhimzadə.

**A.Rəhimzadə.** Sağ olun, cənab Sədr. Hörmətli hökumət nümayəndələri, hörmətli həmkarlar! Mən də hesab edirəm ki, builki büdcə, daha doğrusu, 2019-cu il üçün nəzərdə tutulan büdcə hərtərəfli düşünülmüş, yaxşı tərtib olunmuşdur və Azərbaycanın inkişafını göstərən bir sənəd kimi qəbul edilməlidir. Bu haqda mən uzun-uzadı danışmaq istəmirəm. Çünki mənim həmkarlarım da danışıb, komitənin iclasında da biz bu barədə xeyli danışmışıq. Mən bizim əksər deputatlardan fərqli olaraq heç bir sahəyə əlavə vəsait yönəltmək haqqında da danışmayacağam. Mən istəyirəm, ayrılan vəsaitin daha səmərəli istifadəsi haqqında bir-iki kəlmə deyim.

Komitənin iclasında da dedim, bələdiyyələrə 5,2 milyon manat dotasiya və 500 min manat da subvensiya ayrılıbdır. Dotasiya belə bir şeydir ki, ayrılır, nə istəsən, edə bilirsən. Onun heç hesabatı da yoxdur. Amma ondan fərqli olaraq, subvensiya konkret layihələrlə əlaqədar olan bir vəsaitdir. Mən xahiş edərdim ki, büdcədən əlavə pul almadan dotasiya hesabına subvensiyaların həcmini artırsınlar. Bu yolla biz bir çox məsələləri həll edə bilərik. Eyni zamanda, hesab edirəm ki, dotasiyaya ayrılan pullarla bələdiyyələrin sığorta fonduna olan borclarının ödənməsini də müəyyən qədər həll etmək olar. Məsələ burasındadır ki, hazırda Dövlət Sosial Müdafiə Fonduna olan borclarına görə, bir çox bələdiyyələrin hesabları, əslində, bağlıdır. Onlara nə pul gəlir, nə də olan vəsaitdən istifadə edə bilirlər. Pul daxil olan kimi silinir. Dotasiyanın hesabına bu məsələ həll olunsa, bələdiyyələrin fəaliyyətində ciddi dönüş yaratmaq olardı. Söhbət bütün bələdiyyələrdən getmir. İlk növbədə mən hesab edirəm ki, kənd bələdiyyələrinin, həqiqətən, imkanları məhdud olan bələ-

diyyələrin borclarını silmək lazımdır. Həm bizim pensiya fondumuz zənginləşər, həm də bələdiyyələrin gələcək fəaliyyəti üçün imkan yaradılar.

İkinci məsələ də ayrılan büdcə vəsaitinin səmərəli istifadəsi ilə bağlıdır. Misal üçün, Neftçala rayonunda eyni inzibati ərazi vahidinin tərkibində olan 5 kəndin 4-nə qaz çəkilmişdi, 8 il ərzində 1 kəndə çəkilməmişdi. Mən Nazirlər Kabinetindən başlayaraq, bütün instansiyalara müraciət etdim, nəhayət, sağ olsun, Rövnəq müəllim daxili imkanlar hesabına o məsələni həll edə bildi. Ancaq bu tək bir fakt deyil. Neftçala rayonunda bir çox kəndlər var ki, sağı da, solu da qazlaşıb, ortada qalan bu kəndlər isə qazlaşmayıb. Misal üçün, Astanlı kəndi. Bu da əhalinin haqlı narazılığına səbəb olur. Astanlı kəndinə hələ sovet dövründə, – Nuruş Əliyevin vaxtında, kolxoz sədri idi, – qaz çəkilmişdi. Oradakı qaz xətləri tamamilə doğranıldı, harasa aparıldı, istifadə olundu. Astanlı kəndinin sağı da, solu da qazlaşıbdır, Astanlıya isə qaz verilmir. Bu tək bir fakt deyil. Məsələn, Uzunbabalı, Mirzəqurbanlı, Pirəbbə, Bala Surra və başqa kəndlərdə də belə hallar var.

2015-ci ildə Neftçala rayonunu qazla təmin etmək üçün xüsusi bir kəmər çəkildi. Bir neçə ildən sonra məlum oldu ki, bu kəmər rayonun ehtiyaclarını təmin edə bilmir. İndi təzədən ikinci bir kəmər çəkilir. Mən başa düşmürəm, bunu çəkən adam mütəxəssis olub, olmayıb, bəri başdan müəyyən edə bilməzdi ki, bunun gücü nə qədər olmalıdır, heç olmasa, 10 il, 15 il xidmət edə bilsin. Hər 5 ildən bir biz qaz çəkə bilmərik ki.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı.

**M.İbrahimqızı.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlarım! Mən də məndən öncə çıxış edən həmkarlarımın sözünə qoşularaq,

fikirlərinə qoşularaq belə yüksək səviyyədə, həm yeniliklərlə, həm də nailiyyətlərlə, üstünlüklərlə zəngin olan büdcə layihəsini hazırlayanlara təşəkkürümü bildirirəm. Xüsusilə Maliyyə Nazirliyinə təşəkkür edirəm və büdcə layihəsinə səs verəcəyəm. Əlbəttə, ən böyük təşəkkür və minnətdarlıq dövlətimizin başçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə ünvanlanır. Ona görə ki, biz, həqiqətən də, ötən dövrlərə, xüsusilə də yola saldığımız 2018-ci ilə baxsaq, görülən işlərə, həm daxili siyasətdə, həm də xarici siyasətdə həyata keçirilən möhtəşəm layihələrə baxsaq, təbii ki, bu minnətdarlığımızın sözlə ifadə olunması mümkün deyil. Çünki biz vaxtı ilə 3 dənizin əfsanəsi adlanan Bakı–Tbilisi–Ceyhan layihəsindən sonra bu il TANAP kimi böyük layihənin həm Azərbaycanda, həm də Türkiyədə açılışını etdik. Bakı–Tbilisi–Qars dərmir yolu bu saat dünyanın ən qlobal, ən əhəmiyyətli layihələrindən biri hesab olunur. Vaxtı ilə Fars və Fin körfəzinin birləşməsi əfsanə kimi qəbul olunurdusa, artıq Fars və Fin körfəzinin birləşməsi üçün Astara–Rəşt yolunun reallaşması, Türkiyə və İran kimi qocaman dövlətlərdə milyonlarla, eləcə də STAR layihəsinə 6 milyarddan çox investisiyanın qoyulması dövlətimizin gücünü göstərir. Sözsüz ki, ən böyük hədəfimiz dövlətimizin daha da güclü olması, xalqımızın rahat və firavan yaşaması, ən böyük məqsədimiz, ən müqəddəs vəzifəmiz olan işğal altındakı torpaqlarımızı azad etməkdir. Burada büdcədə olan məsələlərlə bağlı detallı danışmaq istəməzdim, təbii ki, buna vaxt da yoxdur. Amma qısaca olaraq öz təkliflərimi bildirmək istərdim.

Hörmətli cənab Sədr, hökumət üzvləri! Ölkəmizdə bütün sahələrdə çox əhəmiyyətli və geniş islahatlar həyata keçirilir. Bu, idarəçilikdə də öz əksini tapıbdır. Mən bu

mənada Azərbaycanın bu gün dünyada, beynəlxalq təşkilatlarda qürurla təqdim etdiyimiz "ASAN", "ABAD", yenicə ictimailəşən "DOST" layihələrini xatırlatmaq istərdim. Bu gün həmkarlarım da bir neçə gündür müzakirələrdə ən çox şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının, əlillərin, qaçqın və məcburi köçkünlərin problemlərinin olduğunu deyirik. Bu mənada hesab edirəm ki, bu gün ölkəmizdə belə bir təcrübə də var, Nazirlər Kabineti nəzdində və yaxud Prezident yanında hər hansı bir dövlət komissiyasının yaradılması çox əhəmiyyətlidir. Bu gün ölkəmizdə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya var, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası var. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası var. Əfv Komissiyası var. Bir sıra komissiyalar var və düşünürəm ki, şəhid ailələrinin, Qarabağ əlillərinin problemlərinin həlli təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və ya hansısa bir nazirliyin çərçivəsində mümkün olan məsələ deyil. Bu mənada, belə bir dövlət komissiyasının yaradılması, yerlərdə isə rayon icra hakimiyyətləri nəzdində müvafiq komissiyaların yaradılması çox doğru olardı.

Digər təklifim məşğulluq siyasəti ilə bağlıdır. Möhtərəm Prezidentimiz bununla bağlı kifayət qədər qərarlar qəbul edib. Parlamentdə çox ciddi qanunlar qəbul olunub. Amma Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində olan Dövlət Məşğulluq Xidməti xətti ilə, – düşünürəm ki, həmkarlarım da mənim fikrimlə razılaşar, – hələ 20 illik millət vəkili kimi təcrübəmdə bir adam, vətəndaş, seçici işlə təmin olunmayıb. Mənə elə gəlir ki, bunu sizlər də təsdiq edərsiniz. Ona görə bu strukturda çox

ciddi islahata ehtiyac var.

Ucqar bölgələrdə olan qaçqın və məcburi köçkünlərin problemləri ilə bağlı fikirlərimi səsləndirmək istərdim. Dövlətimizin başçısının, eyni zamanda, Birinci vitse-prezidentimizin bütün görüşlərdə səsləndirdikləri fikirlərdə və eləcə də həyata keçirdikləri siyasətdə qaçqın və köçkünlər əsas xətti təşkil edir. Amma çox təəssüf ki, ucqar bölgələrdə olan qaçqın və köçkünlərimizin sosial problemləri var. Xüsusilə də səhiyyə, təhsil və digər sahələrdə hələ də ciddi problemlər var. Mən, nəhayət, hökumət üzvlərinin burada olması fürsətindən istifadə edərək, Azərbaycan xalq bəstəkarı Elza İbrahimova ilə bağlı bir xahiş edərdim. Ailə üzvləri dəfələrlə müraciət edib, möhtərəm Prezidentimiz də onun 80 illiyi ilə bağlı xüsusi fərman imzalayıb. Fərmanda E.İbrahimovanın barelyefinin yaşadığı evə vurulması və yubileyinin keçirilməsi qeyd olunub. Amma bir neçə aydan sonra artıq il yekunlaşır. Çox xahiş edərdim ki, bu məsələyə də baxılsın və iki şəhidi olan ailələrə yenidən ev, mənzil növbəsinə dayanmağa icazə verməyinizi xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Yaqub Mahmudov.

**Y.Mahmudov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli Məclis iştirakçıları! Mən büdcə zərfinə daxil edilən bütün sənədlərin, qanunların əsas kimi qəbul olunmasını təklif edirəm. Fikrimcə, müharibə şəraitində olan ölkədə cari ildə gələn il üçün bundan mükəmməl, bundan ideal büdcə zərfi təqdim eləmək mümkün olmazdı. Ona görə xüsusi qeyd etmək istəyirəm, növbəti ilə üç ay qalmış büdcə sənədlərinin təqdim olunması, onun Milli Məclisin komitələrində geniş müzakirəsi, ictimaiyyətin müzakirəsinə verilməsi müsbət haldır və bizim yüksək büdcə mədəniyyətinə malik olduğumuzu sübut edir. Hörmətli nazir-

lərimiz – Samir Şərifovun, iqtisadiyyat naziri Şahin Mustafayevin, eləcə də mükəmməl bir sənədlə çıxış eləyən Vüqar Gülməmmədovun təqdimatı çox aydın göstərdi ki, büdcə zərfinə daxil olan bütün sənədlər peşəkarların əlindədir və Prezident ölkənin bu sahəsini ən etibarlı mütəxəssislərə tapşırıb. Bu baxımdan, mən bir daha büdcə zərfinə daxil olan sənədlərin qəbul olunmasını təklif edirəm. Əlbəttə, dürüstləşdirmələr aparıla bilər. Mən hörmətli maliyyə nazirinə müraciət eləmək istəyirəm, bu dürüstləşmələr aparılarkən mümkün olan halda, bəzi məsələləri nəzərə almaq çox gərəkdir. Xüsusilə mən Şəki ilə bağlı bəzi faktları bildirmək istəyirəm.

Şəki kimi şəhərin 125-ci kvartalında 400 ev illərlə qazsız yaşayır. İllərlə bu məsələlər qaldırılır, ildən-ilə keçir, həmişə bir əsas qoyulur ki, maliyyə vəsaiti yoxdur. Ona görə də mən hörmətli nazirimizə müraciət eləmək istəyirəm, bu camaatın içərisində xəstələr var, uşaqlar var, məktəblilər var, ahıllar var, yəni bu məsələyə ən nəhayət bir nöqtə qoyulsun. İkinci, bizim 2009–2013-cü illər dövlət proqramına daxil edilmiş, Şəkinin yüzlərlə ailənin yaşadığı ictimai binalarında istilik sisteminin bərpası məsələsidir. Bu sistem korlanıb, sıradan çıxıb. Bunun bərpası xüsusi maddə ilə dövlət proqramına daxil edilmişdi. Ancaq 2009–2013-cü illərdə bu iş başa çatdırılmadı. Növbəti, 2014–2018-ci illər dövlət proqramına daxil edildi. Çox təəssüf ki, 2018-ci il də gəlib, qış qapını kəsib, həmin ictimai binalardakı istilik sistemi yenə də təmir olunmayıb. Yenə də əsas məsələ o qoyulur ki, maliyyə vəsaiti çatışmır. Ona görə də mən hörmətli maliyyə nazirimizə müraciət etmək istəyirəm, mümkün qədər həmin camaatın ağır vəziyyətini nəzərə alsın. Oradan deputat olduğum üçün bilirəm ki, bu ciddi bir narazılıq mənbəyidir. Bu na-

razılıq mənbəyini aradan qaldırmaq lazımdır.

Digər bir xahişim. Şəhərlərə, ayrı-ayrı bölgələrə büdcədən maliyyə vəsaiti nəzərdə tutularkən tarixi şəhərlərə xüsusi qayğı ilə yanaşmaq lazımdır. Prezidentin bu günlərdə Şəki abidələrinin qorunması ilə bağlı növbəti sərəncamı oldu. Həmin abidələrin YUNESKO-nun qeydiyyatına daxil edilməsinə hazırlaşılır. Şəki şəhərində abidələrin qorunması, bərpası üçün də vəsaitin ayrılmasına çox böyük ehtiyac var.

Hörmətli Samir müəllim, mən bir dəfə Sizə müraciət etdim ki, elmin büdcəsini sıfırdan uzaqlaşdıraq. Çox sağ olun, uzaqlaşdırdınız və rahat nəfəs almağa başladıq. Amma Sizə məlumat vermək istəyirəm, indi Akademiyada islahatlar gedir və məni çox narahat edir ki, bizim gənc qüvvələr Akademiyadan uzaqlaşırlar. Müdafiə etdiklərinin səhəri günü Akademiyadan qaçırlar. Əmək haqqı olduqca aşağıdır. Gənclərin sosial-iqtisadi vəziyyətləri olduqca ağırdır. Onlara mənzil tikintisi üçün vəsait ayrılmasına böyük ehtiyac var. Cənab Prezidentin göstərişi ilə tarixin təzə konsepsiyası yaradılır, bizim əsərlərimiz xarici ölkələrdə çap olunur, buna vəsait lazımdır. Mən çox təəssüf edirəm ki, lazımınca vəsait ayrılmadığı üçün çətinliklərimiz var. Əlbəttə, mən Sizə dərin minnətdarlığımı bildirirəm, çətinə düşəndə bizə Siz, iqtisadiyyat naziri köməklik edirsiniz. Amma arzu edirəm ki, mənim bu təkliflərimi mümkün qədər dəqiqləşmə zamanı mümkün qədər nəzərə alasınız. Bu, inkişafımıza müsbət təsir göstərərdi. Təklif edirəm, büdcə sənədlərini əsas kimi qəbul edək, dürüstləşmələr zamanı çıxışlarımız da nəzərə alınsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ağalar Vəliyev.

**A.Vəliyev**. Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri! Möhtərəm Prezidentimiz

cənab İlham Əliyevin rəhbərliyi ilə islahatların yeni mərhələsində həyata keçirilmiş məqsədyönlü tədbirlər sayəsində cari ildə Azərbaycan Respublikasının dayanıqlı inkişafı təmin edilmişdir. Sosialyönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində görülmüş önəmli işlər, ilboyu infrastruktur layihələrinin uğurla icra olunması və yeni müəssisələrin açılması iqtisadi siyasətin prioritet istiqamətlərini təşkil etmişdir. Bütün bölgələrimizi əhatə edən davamlı tərəqqimizin məntiqi nəticəsidir ki, bir sıra nüfuzlu beynəlxalq qurumlar ölkəmizdə aparılan islahatları yüksək dəyərləndirirlər. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə yüksəlmişdir. Tikinti üçün icazələrin alınması və kreditlərin alınması indikatorlarının hər biri üzrə yüz pillə irəliləyiş əldə olunmuşdur. Şübhəsiz ki, bütün bu uğurlar hörmətli dövlət başçımızın həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətimizin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini ifadə etdiyini bir daha göstərir.

Müzakirəmizə təqdim olunan büdcə zərfində 2019-cu il üçün dövlət büdcəsinin gəlirləri 22,9 milyard manat proqnozlaşdırılır ki, bu da ümumdaxili məhsulun 28 faizini təşkil edir. Vergilər Nazirliyi üzrə proqnoz məbləğ 7,3 milyard manat nəzərdə tutulmuşdur ki, bu da 2017-ci ilin icrası ilə müqayisədə 4,9 faiz çoxdur. Vergi yığımı kontekstində bir məsələyə ayrıca toxunmaq istərdim. Belə ki, gələn il üçün fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar 880 milyon manat, yəni cari ilin proqnozu ilə müqayisədə 316 milyon manat az planlaşdırılır ki, bunun da kifayət qədər əsasları var. Cənab Prezidentin müvafiq proqnozlarına əsasən ölkədə qeyri-məşğulluğun reallaş-

ması və vergi yükünün azaldılması üçün 1 yanvar 2019-cu ildən etibarən neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunun vergi ödəyicilərində işləyən fiziki şəxslərin aylıq gəlirləri 8000 manatadək olduqda onların gəlir vergisindən azad edilməsi, gəliri 8000 manatdan çox olduqda isə vergi dərəcəsinin 25 faizdən 14 faizədək endirilməsi nəzərdə tutulmuşdur. Hesab edirəm ki, bu, özəl bölmədə maliyyə intizamının möhkəmləndirilməsinə, vergi mədəniyyətinin yüksəldilməsinə və şəffaflığın artırılmasına çox müsbət təsir göstərəcəkdir. Yaxın günlərdə Milli Məclisdə Vergi Məcəlləsinə bir sıra prinsipial əhəmiyyət kəsb edən dəyişikliklər müzakirə olunacaqdır ki, fikrimcə, onların qəbulu iqtisadiyyatımızın, xüsusilə sahibkarlığın inkişafının sürətləndirilməsinə əlavə stimul verəcəkdir.

Bizlərə təklif olunan büdcə zərfində 34 şəhər və rayonun xərclərinin öz gəlirləri hesabına təmin edilməsini ən müsbət məqamlardan biri kimi xarakterizə edərdim. Belə ki, 2019-cu ildə dövlət büdcəsinin yerli gəlirləri 736,8 milyon manat proqnozlaşdırılır ki, bu da 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 83,4 milyon manat və ya 12,8 faiz çoxdur. Gələn ilin büdcə xərclərini təhlil edərkən büdcə xərclərinin 24,8 milyard manat olmaqla, ümumi daxili məhsulun 30,2 faizini təşkil etdiyini görərik. Təqirəlayiq haldır ki, 2019-cu ilin dövlət büdcəsi bütövlükdə sosialyönümlü saxlanılmış və əhalinin sosial müdafiəsini gücləndirmək üçün bir sıra proqramların maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Gələn ilin dövlət büdcəsində əsaslı xərclərə 9,9 milyard manat yönəldilərək, büdcə xərclərinin tərkibində onun xüsusi çəkisi 39,9 faizə bərabər edilmişdir. Əsaslı xərclərin tərkib hissəsi olan dövlət investisiya qoyuluşu xərclərinə 6,8 milyard manat

vəsaitin ayrılması, zənnimcə, xüsusi vurğulanmalıdır.

Hesab edirəm ki, 2019-cu ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" Qanunun və digər aidiyyəti qanunverici aktların tələblərinə uyğun hazırlanmışdır. Əminəm ki, büdcə-vergi siyasətinin prioritet istiqamətlərini özündə ehtiva edən növbəti ilin dövlət büdcəsi ölkənin davamlı inkişafının təmin edilməsi istiqamətlərində qarşıda duran mühüm dövlət vəzifələrinin layiqincə yerinə yetirilməsinə möhkəm zəmin yaradacaqdır. Çıxışımda vurğuladığım bütün bu məqamları, eləcə də digər aspektləri nəzərə alaraq, 2019-cu ilin...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri, media nümayəndələri! Bu gün Cümhuriyyətin 100 illiyində biz Azərbaycan büdcəsini müzakirə edirik və maraqlıdır ki, bizim müzakirə etdiyimiz mühitdə həm də o məsələlər gündəmə gətirilir ki, biz başqa problemlərin həlli ilə məşğul olmağa vaxtımızı daha çox ayırmalıyıq. Məsələn uşaq pulu, şəhidlərin qan pulu deyilən vəsait, əlillərin vəsaitlərinin yetərsizliyi, tıxac problemi, mənzil dələduzluğu ilə bağlı sıxıntı yaşayan vətəndaşların problemi, sayğaclarda limit saxtakarlığı məsələsi, sökülən evlər və obyektlərlə bağlı kompensasiyanın yaratdığı problemlər. Biz onlarla belə problemləri aksiom olaraq həll etməli olduğumuz halda, teorem olaraq oturub düşünürük ki, hansı həll yollarını tapaq?

Bildiyiniz kimi, Azərbaycanın son illərdə iqtisadi inkişafı o nəticələri ortaya qoyur ki, bizim valyuta ehtiyatlarımız 46 milyarddan yuxarı səviyyədədir. Biz, sadəcə, bu vəsaitlərin doğru xərclənməsi yolunu əgər tapa və israfçılığın qarşısını ala bilsək, hesab edirəm ki, bir çox sahələrdə bu problemləri həll eləmək olar. Bunları ertələmək

olmaz. Uşaq böyüməlidir, sağlam böyüməlidir. Bunun başqa bəhanəsi yoxdur. Başqa ölkələrdə artım azdır, çoxdur, bunun bizə nə aidiyyatı olmalıdır? Biz öz ölkəmizdə olan uşağın sağlam böyüməsini ona görə təmin eləməliyik ki, gələcəkdə Dövlət Sosial Müdafiə Fondundan asılı olmasın. Uşaq xəstə olmasın, şikəst olmasın, əlilin sayı çox olmasın. Ona görə indidən onun sağlamlığına diqqət yetirməliyik, ərzaq, qida məsələlərini həll eləməliyik. Ona görə də bunun ünvanlı formada həlli vacibdir. Hətta hökumət əgər buna vəsait tapmırsa, bunu müəyyən dərəcədə natural formada da həll eləmək olar. Qida verilməsi yolu ilə, hansısa formada ərzaq verilməsi yolu ilə də müəyyən yaş kateqoriyasına aid olan uşaqları təmin eləmək olar. Burada özü də hamıdan söhbət getmir. Doğulan uşaqların dövlət büdcəsindən birbaşa vəsait alanlar 63 faizidir. Demək, bu rəqəmlə götürsək, Azərbaycanda 63 faiz ailənin – nə atanın, nə ananın rəsmi gəliri yoxdur. Bunun sıxıntısını uşaq yaşaya bilməz.

Eyni qaydada, şəhidlərin vərəsələrinə verilən pul ilə bağlı son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi çox gərgin və müsbət addımlar atdı. Ən azı onların qarşısına çıxdı, onların probleminin həlli, varislərin tanınması istiqamətində addımlar atdı. Biz bunu yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu istiqamətdə işi davam eləmək lazımdır ki, problem qurtarsın. Bu problemlərin həlli bilirsiniz nəyə oxşayır? Azərbaycanda metroda insanlar havalanma problemindən tez-tez əziyyət çəkirlər və metro rəhbərliyi bildirir ki, biz bu problemin üzərində işləyirik və bunun həllini yəqin ki, yaxın zamanlarda gerçəkləşdirəcəyik. Bir milyon adam havasızlıqdan boğulandan sonra havalanma sistemini həyata keçirəcəklər? Bu nəqliyyat növü varsa, demək, burada havalandırma məsə-

ləsi öz həllini tapmalıdır da. Yaxud da biz tıxac problemindən danışırıq. Metro nəqliyyatından başqa kütləvi, rahat şəkildə bir yerə çata biləcəyin nəqliyyat yoxdur. Minik avtomobillərinin çoxluğuna görə küçələrdə avtobuslarla hərəkət eləmək mümkün deyil. Burada olan bütün deputatlar, hökumət üzvləri hamısı tıxacdan şikayətlənir.

Metro tikintisinə pul ayrılmır. Papanində neçə illərdir metro tikilir, yolu bağlayıblar, hələ onun 20-ci ildə yekunlaşacağı proqnozlaşdırılır. Metrodan başqa yol yoxdur da. Başqa hansı nəqliyyatı kəşf etmək olar? Bakıxanovda neçə illərdir qalıb, əhali 3 marşrut dəyişib şəhərə gəlməli olur. Ona görə də bu məsələlər öz həllini tapmalıdır.

Son vaxtlar mən hesab edirəm ki, vergi və gömrük siyasətində olan şəffaflıq və vətəndaşa anlayışlı yanaşma xeyli problemlərin ortadan qalxmasına kömək etdi. Təsəvvür edin, Hesablama Palatasının rəyindən də görünür ki, ötən il Azərbaycanda sahibkarlardan artıq alınan verginin miqdarı 2,5 milyard manatdır. Bu nə deməkdir? Kim, hansı formada artıq ala bilərlər? Bu o deməkdir ki, bu qədər yükü qoyublar Vergilər Nazirliyinin indiki rəhbərliyinin üzərinə. Bu gün rəydən də görünür ki, vergi borcları 1 milyard manatdan çoxdur. Belə bir vəziyyətdə sahibkar, o qədər artıq pulu alınan sahibkar hansı vəziyyətdə olacaq? Bunu düşünən varmı? Ona görə bu məsələləri düşünmək lazımdır. Əvvəllər Maliyyə Bazarlarına Nəzarət Palatası İdarə Heyətinin sədri vardı, çıxdı getdi, vəssalam. Yüzlərlə problemi qoydu getdi, banklarla, başqa məsələlərlə. Bunun sıxıntısını yaşayan insanların problemini kim həll edəcəkdir? Ona görə bu məsələlər həll edilməlidir. Vaxt azdır deyə bir çox problemlərə toxuna bilmirik. Bu məsələlər həllini tapmalıdır ki, biz daha ciddi məsələlərin, daha qlobal məsələlərin müzakirəsi ilə məşğul olaq. Diqqətinizə...

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, bir həmkarımız da çıxış eləsin, sonra birinci oxunuşda münasibət bildirək. Siyahıda olan həmkarlarımıza ayın 23-də, ikinci oxunuşda imkan yaradarıq, çıxış edərlər. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyursun Bəxtiyar Əliyev.

**B.Əliyev**. Çox sağ olun, cənab Sədr! Mən də deputat həmkarlarımın o fikri ilə tam şərikəm ki, 2019-cu ilin büdcəsi və icmal büdcəsi çox yaxşı hazırlanıb və mövcud qanunvericiliyin bütün tələblərinə cavab verir. Bütövlükdə dinamikaya nəzər salsaq, görərik ki, ölkədə sürətli iqtisadi inkişaf var və ictimai həyatın bütün sahələrində də bu hiss olunur. Büdcəmizin sosialyönümlü olması, eyni zamanda, investisiyayönümlü olması ölkənin iqtisadi potensialını daha da artırır. Bir tərəfdən işçi qüvvəsinin, digər tərəfdən isə istehsal sahələrinin genişlənməsinə, çox böyük milli layihələrin gerçəkləşdirilməsinə imkan verir. Əlbəttə, cənab Prezidentin həyata keçirdiyi çox uğurlu siyasət nəticəsində güman edirəm ki, növbəti illərdə də bizim büdcəmiz daha da artacaq və əhalinin sosial rifahı yaxşılaşdırılacaq. Əgər biz nəzər salsaq ki, 2000-ci ilin əvvəlində büdcəmiz təxminən 900 milyon civarında idi, bu gün baxanda büdcəmiz təqribən 25 dəfə artıb, əlbəttə, bu, Azərbaycanın yüksələn xətlə inkişafını göstərir və əhalinin hökumətə, cənab Prezidentin siyasətinə dəstəyini, inamını bir daha ifadə edir.

Mən iki məsələyə toxunmaq istəyirəm. Birincisi, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu çox sürətlə gedir, vətəndaş cəmiyyəti oturuşubdur. Amma yenə də Azərbaycana qarşı müəyyən təhdidlər var, müəyyən proseslər var. Hesab edirəm ki, bu gün vətəndaş cəmiy-

yətinin inkişafında Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının fəaliyyəti təqdirəlayiqdir və bu istiqamətdə QHT-lərin fəaliyyəti də öz müsbət nəticələrini vermişdir. Hesab edirəm ki, büdcədən gələcəkdə QHT-lərin maliyyələşməsi, maarifləndirmə işlərinin gücləndirilməsi, eyni zamanda, beynəlxalq tədbirlərin keçirilməsi və xarici ölkələrdəki QHT-lərlə əməkdaşlıq çərçivəsində Azərbaycan həqiqətlərinin çatdırılması istiqamətində fəaliyyətin ardıcıl davam etdirilməsi üçün maliyyə vəsaitinin ayrılmasına böyük ehtiyac var.

İkinci məsələ ondan ibarətdir ki, bu gün istənilən bir ölkənin gücü, potensialı onun elmi ilə, təhsili ilə ölçülür. Əgər cənab Prezident bəyan edirsə ki, Azərbaycanın neft və qaz potensialı imkanları bundan sonra, 100 ildən də sonra hələ tükənməyəcəkdir, bu onu göstərir ki, Azərbaycan alimlərinin, geoloqlarının bu sahədə apardıqları tədqiqatlar, əldə etdikləri nəticələr elmi əsaslara söykənir, əsaslanır. Bu, Azərbaycan elminin, Azərbaycan iqtisadiyyatının verdiyi töhfələrdən sadəcə olaraq, bir misaldır. Yaxud, burada hörmətli akademik Yaqub Mahmudov çıxış etdi. Cənab Prezident bir neçə dəfə öz görüşlərində də bunu səsləndirib və onun dəstəyi ilə Azərbaycan tarixçilərinin xarici ölkələrin arxivlərindən gətirdikləri sənədlər əsasında Qarabağın tarixi ilə bağlı, İrəvan tarixi ilə bağlı, Gəncə tarixi ilə bağlı, Naxçıvan tarixi ilə bağlı yazılmış əsərlər beynəlxalq təşkilatlarda bizim mövqelərimizin daha da dəstəklənməsinə və ermənilərə tutarlı cavablar verməyimizə çox böyük imkanlar yaratmışdır. Deməli, biz təkcə bir tərəfi götürməli deyilik, bunu hərtərəfli təbliğ etməliyik.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasında çox böyük islahatlar gedir. Bu islahatların davamlı olması

üçün təbii ki, ilkin mərhələdə böyük maliyyə dəstəyinə ehtiyac var. Hesab edirəm ki, artıq Azərbaycan dövləti elmə və təhsilə də investisiya qoymağa başlamalıdır. Bu gün məktəbəqədər təhsil, şagirdlərin birinci siniflərə hazırlığı istiqamətində, peşə təhsili istiqamətində, – söhbət təkcə bu işi təmin etmək üçün hər hansı əmək haqlarının ödənilməsi deyil, – maliyyə vəsaitinin ayrılması zəruridir. Bu baxımdan da, hesab edirəm ki, Azərbaycan elminin inkişafı üçün konkret danışıqların aparılması və növbəti ilin büdcəsindən Azərbaycan Milli Elmlər Akademiyasına investisiya istiqamətində ən azı, ilkin mərhələdə, heç olmasa, 50 milyon manat vəsaitin ayrılması Azərbaycan elminin inkişafına, Azərbaycan iqtisadiyyatının güclənməsinə böyük töhfəsini verəcəkdir. Bütövlükdə hesab edirəm ki, büdcə zərfi çox yaxşı hazırlanıb və biz ona səs verəcəyik, onu qəbul edəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, indi gündəliyin birinci məsələsinə, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin layihəsinə birinci oxunuşda, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəliyin 1-ci məsələsi birinci oxunuşda qəbul edildi. Keçirik gündəliyin ikinci məsələsinə. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra

hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında qanun layihəsi. Buyursun hörmətli Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım və icra hakimiyyətinin dəyərli rəhbər nümayəndələri! 100 illiyini təntənə ilə qeyd etdiyimiz müstəqil Azərbaycanın Milli Məclisi bu günlər 2019-cu ilin büdcə zərfinin layihələrini geniş müzakirə edir. Ümummilli liderimiz Heydər Əliyev dühasının müəllifi olduğu ali qanunun – Konstitusiyanın bazasında ölkəmizdə sözün əsl mənasında dirçəliş baş vermiş, əsaslı islahatlar aparılmış, biz beynəlxalq aləmə uğurla inteqrasiya etmişik. Əhalinin güzəranında köklü dəyişikliklər baş vermişdir. Azərbaycanda sabitlik bərpa olunmuşdur. Son 15 il ərzində möhtərəm Prezidentimiz İlham Əliyev cənabları sosial siyasət və sosial müdafiə sistemində dünyaya nümunə olacaq sistemli yeniliklər həyata keçirmişdir. Proqramlarla idarəetmə, regional inkişaf, qabaqlayıcı tədbirlər, müyəssərlik, ünvanlılıq və şəffaflıq ideyaları bu fəaliyyətin təməl prinsiplərindən olmuşdur.

Müzakirəmizə çıxarılan gələn ilin büdcəsi də sosialyönümlüdür. 2008-ci ildən başlayaraq dünyada gedən bütün iqtisadi və sosial kataklizmlərə baxmayaraq, ötən bu müddətdə büdcəmiz həmişə sosialyönümlü və investisiya tutumlu olmuşdur. Buna əyani sübut məhz gələn ilin dövlət büdcəsi xərclərinin 33,4 faizinin sırf sosial məsələlərə yönəlməsidir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, sosial təminat və müdafiəni həyata keçirən orqanın da 2019-cu il üçün büdcəsi əvvəlki illərdəkindən xeyli, təqribən 500 milyon manat artaraq 3 milyard 928 milyon manat təşkil etmişdir. Bu büdcənin 61,5 faizi bilavasitə döv-

lət sosial sığorta yığımlarının toplanması hesabına nəzərdə tutulmuşdur. Sevindirici hal bir də ondan ibarətdir ki, bu rəqəmin 62 faizi və ya 2,4 milyard manatı qeyri- büdcə sektoru hesabına toplanacaqdır. Bütövlükdə, planlaşdırılan bu büdcənin 1 milyard 503 milyon manatı isə müvafiq icra hakimiyyəti orqanlarının büdcə balanslaşdırılması məqsədi ilə dövlət öhdəlikləri hesabına formalaşacaqdır ki, bu da ümumi həcmdə 38,3 faiz təşkil edəcəkdir.

Hörmətli deputat həmkarlarım, 2018-ci ilin 10 ayı ərzində müvafiq  sosial müdafiə strukturunun büdcəsinin icrası ilə bağlı bir sıra məqamları da nəzərinizə  çatdırmağı özümə borc bilirəm. Belə ki,  ötən 10 ayın yekununa görə, bu ilin büdcəsi əvvəlki illərlə müqayisədə daha dəqiq icra olunmaqla yanaşı, burada özəl qurumlardan toplanan vəsaitlərin həcmində hiss olunacaq dərəcədə artım vardır. Sizinlə birlikdə qəbul etdiyimiz  sosialyönümlü mütərəqqi qanunların tətbiqi ilə aparılan islahatlar nəticəsində vətəndaşlara sosial müdafiə məqsədləri üçün xeyli əlavə vəsait ödənilmişdir. Pensiyaçıların sayının, demək olar ki, sabit qalmasına baxmayaraq, bu sahədə ödənişlərin həcmi 200 milyon manatdan çox artmışdır. Bu, qəbul etdiyimiz pensiya qanununa dəyişikliklər edilməsi ilə çalışan pensiyaçıların pensiya ödənişlərinin məbləğinin yenidən hesablanması nəticəsində mümkün olmuşdur. Pensiyaçıların tərkibi, ödəmələrdə olan bəzi qeyri-səmərəli  göstəricilər də bizi daim düşündürür.  Belə ki, sizinlə birgə əvvəllər vaxtaşırı tənqid etdiyimiz pensiyaçıların tərkibində  əlillərin çox olması pensiya islahatları ilə bağlı yeni qanunun tətbiq olunması hesabına 5 faizdən çox azalmışdır. Bütün bunlara baxmayaraq, gələn il üçün nəzərdə tutulan büdcədə pensiyaçıların 30 faizinə qədərinin yenə də əlilliyə görə həmin ödəmələrə malik olacağı

gözlənilir. Onu da vurğulamaq yerinə düşərdi ki, bizim düzəliş etdiyimiz qanundakı dəyişikliklərə görə 2-ci və 3-cü qrup əlillər güzəştli pensiyaya çıxmaq hüququndan bildiyiniz kimi, məhrum olurlar. Təəssüflə qeyd etmək istərdim ki, əlilliyin qeydə alınması ilə bağlı başqa paradoks özünü göstərməyə başlamışdır. Bu da son aylar vaxtından əvvəl güzəştli pensiya sənədləşdirmək istəyən 1-ci qrup əlillərin sayının xeyli çoxalmasına gətirib çıxarmışdır. Məndə olan məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Səhiyyə Nazirliyi ilə birlikdə bu sahədə olan uyğunsuzluqları aradan qaldırmaq üçün çox ciddi və əsaslı tədbirlər görürlər. Düşünürəm ki, bunun nəticəsində həmin sahədə olan bəzi neqativ hallar tamamilə aradan qalxacaqdır. Sevindirici hal ondan ibarətdir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılan islahatlar nəticəsində xeyli müsbət nəticələr baş verməklə yanaşı, burada innovativ və elektron hökumət elementlərinə də çox diqqət yetirilir. Bu da birbaşa nəticədə hər cür neqativ halların kökündən kəsilməsinə xidmət edir.

Büdcənin məxaric hissəsində olan uyğunsuzluqlara diqqətinizi cəlb etməkdən öncə, gələn il üçün yarana biləcək bir sıra ehtiyat mənbələrini də yada salmaq istərdim. Hesablama Palatasının verdiyi çox sanballı rəyə əsasən sığorta borclarının yığım probleminin kəskin surətdə azalmasına baxmayaraq, bu hələ də qalmaqdadır. Gələn il üçün gözlədiyimiz ən maraqlı və fundamental, inqilabi dəyişikliklərdən biri ölkədə mütərəqqi vergi islahatlarının aparılması olacaqdır. Nəticədə özəl bölmədə sahibkarlıq subyektlərində çalışan şəxslər 7 il müddətinə 14 faiz gəlir vergisindən tamamilə, işə götürənlər və işçilər isə həm də sığorta ödəmələrindən qismən azad olacaqlar. Bununla da bütövlükdə 26 faiz miqdarında olan sosial və işsizlikdən

sığorta haqları ödənişləri azaldılaraq, yığım mexanizmləri dəyişdirilərək bir qurum, yəni vergi orqanları tərəfindən tutulacaq. Beləliklə, nəzərdə tutulan qanun layihəsinə əsasən artıq işçi bir mənbəyə, yəni vergi qurumlarına 10 faiz, işəgötürən isə 16 faiz sığorta haqqı ödəyəcəkdir. Bu yolla vergi yükü hiss olunacaq dərəcədə azalacaq və belə olan təqdirdə, həm işçi, həm də işəgötürən müəyyən əlavə qazanc əldə etmiş olacaqlar. Bu sistemin tətbiqi, gəlin, açıq etiraf edək ki, ölkəmizdə 1 milyondan çox qeyri-leqal məşğulluğun rəsmiləşməsinə kömək edəcək və nəticədə sığorta haqlarının ödənişləri hiss olunacaq dərəcədə surətlə artacaqdır.

Bununla bağlı digər məqamlara da diqqət çəkmək istərdim. Sizə paylanan sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyətinin 2019-cu il büdcəsinin müzakirəsi ilə bağlı keçirilən komitə iclaslarında deputat həmkarlarım bir neçə göstəricilərə xüsusi diqqət yetirdilər. Bu da büdcədən Həmkarlar Konfederasiyasına sanator-kurort xidmətlərinə və istirahət məqsədi ilə yollayışların alınması üçün nəzərdə tutulan vəsaitlərdir. Tamamilə dəyişməyən bu məsrəf göstəricisi büdcənin həcmində, hətta mən istəyirəm bu rəqəmə diqqət yetirək, 2006-cı ildəki rəqəmdən belə 2,5 dəfə azdır.

Digər dəyişməyən, məqsədli məsrəfi artımı gözlənilməyən göstəricilərə də diqqətinizi cəlb etmək istərdim. Uşaqların asudə vaxtlarının təşkili ilə bağlı ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının təşəbbüsü ilə “ölkəmizi tanıyaq” devizi ilə ildə iki dəfə icra hakimiyyətləri tərəfindən əlaqələndirilən və keçirilən maarifləndirici tur aksiyaları özəl, qeyri-özəl sektor üçün nümunə və örnəkdir. Minlərlə məktəblinin ilin payız və yaz fəsillərində ayrı-ayrı regionlara məktəbli turist səfərlərinə göndərilməsi

uşaqların dünyagörüşünü, ünsiyyətliliyinin, sərbəstliyinin, şəxsiyyətinin və digər mənəvi keyfiyyətlərinin formalaşmasında böyük rol oynayır. Buna baxmayaraq, müzakirə etdiyimiz büdcədə uşaqların istirahəti üçün ayrılan vəsait cüzi olmaqla yanaşı, ötən ilin göstəricisi ilə tam bərabərdir. Bu göstəricidə də, demək olar ki, heç bir fərq yoxdur. Bütövlükdə, bu məqsədlər üçün nəzərdə tutulan cəmi 20 milyon manat vəsaitin ən aşağısı 3–5 faiz artırılması yaxşı olardı. Bunu da dövlət büdcəsindən ayırmaq mümkün olmadığı halda, qeyri-büdcə sektorunda gözləniləcək əlavə sığorta yığımı hesabına etmək mümkündür.

Uşaqlardan söhbət getmişkən, bu büdcənin 3 maddəsinə də xüsusi diqqət yetirməyi vacib sayıram. Son günlər parlamentdə gedən müzakirələrdə bu fikirlər tez-tez səsləndi. Bu üç məqamı xüsusi qeyd etmək istəyirəm. Birincisi, hamiləlik və doğuşa görə ayrılan vəsait; ikincisi, uşağın anadan olması ilə əlaqədar olan vəsait; üçüncüsü, 3 yaşına qədər uşaqlara nəzərdə tutulan vəsaitdir. Bax, bu üç məqamın üçü də sizə paylanan büdcə layihəsində göstərilib. Maraqlı tendensiya ondan ibarətdir ki, ölkədə təbii artım ilbəil çoxalsa da, demoqrafik tənzimlənmə baxımından, doğuşda son illər ciddi azalma hiss olunur. Bəzi rəqəmləri diqqətinizə çatdırmaq, düşünürəm ki, yerinə düşərdi. Əgər 2011-ci ildə 176 min 72 uşaq dünyaya gəlmişdisə, 2017-ci ildə bu göstərici 144 min 41-ə enmişdir. Bu ilin 9 ayının göstəricisi də xoşagələn deyil. 103 min, bu rəqəm bizi yenə düşündürür. Bu bölüm üçün nəzərdə tutulan maliyyə vəsaitinin artmaması bizi xüsusilə narahat edir. Yaxşı olardı ki, pis halda, heç olmasa, bu rəqəmlər sabit qalmaqla, sadaladığım qrup insanlar üçün, xüsusilə birdəfəlik ödəmə, doğuşa görə sosial durumu ağır olan ailələrə isə 3 yaşına qədər olan uşaqlara müavinətin

həcminin artırılması nəzərdə tutulsun. Mən fürsətdən istifadə edib məsələnin həllini direktiv orqanlara yönəldir və düşünürəm ki, burada bizim nə qədər imkanlarımız var ki, həmin qrup uşaqların sosial müdafiəsini təmin edək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının dəstəyi ilə çoxlu və mütərəqqi islahatlarla yanaşı, şəffaflıq nümunəsi olacaq "DOST" – Dayanıqlı və Operativ Sosial Təminat Xidməti yaranmaqdadır. Düşünürəm ki, bu xidmətin gücləndirilməsi və təkmilləşdirilməsi üçün ilkin olaraq orada vəsait nəzərdə tutulub, amma bu vəsaitin qismən artırılmasına ehtiyac var. Bu da dediyimiz nöqsanların aradan qaldırılmasına, cəmiyyətimizə, xalqımıza və bizim icra strukturlarına xeyli kömək etmiş olar.

Hörmətli Oqtay müəllim, icazə versəydiniz, mən işsizlikdən sığorta haqqında qanun layihəsi barədə də qısa məlumat verərdim. Vaxt almamaq üçün.

Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım! İşsizlikdən sığorta haqqında qanun layihəsi sizə paylanıb. Artıq 2 ildir ki, parlamentdə İşsizlikdən sığorta fondunun büdcəsi müzakirə olunur. Layihə bir neçə gündür ki, sizə paylanmışdır. Əziz deputat həmkarlarım, siz də bu rəqəmlərlə artıq tanışsınız. Diqqətinizi düşünürəm ki, bir rəqəm cəlb edib. Bu da əvvəlki ildə bu məqsədlər üçün əgər 89 milyon manat nəzərdə tutmuşduqsa, indi 83 milyon manat nəzərdə tutulur. Hesab olunur ki, görüntü belədir ki, azalma gedib. Amma bu azalmanın bir səbəbi var. Ötən il bu sənəd hazırlananda ilk dəfə olduğundan ciddi bir məqam ondan ibarət idi ki, işsizliyə görə sığorta elementində hərbiçilərin də əmək haqqı nəzərdə tutulmuşdu. Onu çıxarandan sonra bu rəqəm artıq 83 milyon 421 min 400 manat təşkil etməkdədir. Bir

məqam da maraqlıdır ki, əgər bizim sosial müdafiədə qeyri-büdcə sektorundan yığım 61 faizdisə, burada 69 faiz təşkil edir. Bu da onu göstərir ki, biz bu sahədə daha çox ciddi fəaliyyət göstərməliyik.

Ölkəmizin Prezidenti İlham Əliyevin qarşıya qoyduğu ən önəmli tələblərdən biri passiv sosial müdafiədən aktiv sosial müdafiəyə keçid yanaşmasına uyğun olaraq, bu büdcənin, diqqət yetirin, xahiş edirəm, 83 milyonun təxminən 44 milyon manatı özünüməşğulluğa və ödənişli ictimai işlərin təşkilinə yönəlmişdir. Büdcədə işsizliyə görə sığorta ödənişlərindən başqa, peşə hazırlığına, məsləhət xidmətlərinə, əmək yarmarkalarına və bu istiqamətli standartların hazırlanmasına yönəldiləcək vəsaitlər də ayrılmışdır. Layihədən bir daha aydın olur ki, bu büdcənin, əslində, baş məqsədi daha çox işsizlərin işlə təmin olunmasına, məşğulluğa xidmət edir.

Hörmətli deputat həmkarlarım, odur ki, sizdən iki sənədə – Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanın 2019-cu il və İşsizlikdən sığorta fondunun 2019-cu il üçün büdcələrinin təsdiq olunmasına səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. İndi sözü verək əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə. Bir açıqlama versin.

**S.Babayev,** *Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çevik və uzaqgörən sosial-iqtisadi tərəqqi strategiyası, qlobal proseslərə və müasir çağırışlara uyğun uğurlu islahatlar proqramı milli iqtisa-

diyyatın dinamik və dayanıqlı, uzunmüddətli inkişafını, əmək resurslarından səmərəli istifadəyə şərait yaradılmasını və məşğulluq səviyyəsinin mütəmadi artımını, əhalinin sosial müdafiəsinin gücləndirilməsini təmin etmişdir. Sosial təminat sisteminin bütün istiqamətləri üzrə ödənişlərin davamlı artımına, bu sistemin əhatə dairəsinin genişlənməsinə nail olunmaqla, dövlət başçısının tapşırıqları əsasında özünəməşğulluq proqramı çərçivəsində aztəminatlı və həssas qruplar üçün tam dövlət dəstəyi ilə kiçik ailə təsərrüfatlarının və biznesə çıxış imkanlarının yaradılması, onların sosial yardım proqramlarından asılılığının aradan qaldırılması və digər işlər geniş vüsət almışdır. Pensiya və müavinət, təqaüd və sosial yardım formasında ödənişlərlə təmin olunan 2,1 milyona yaxın insanı və ya ölkə əhalisinin təqribən 21 faizini əhatə edən sosial təminat sisteminin gücləndirilməsi və onun uzunmüddətli inkişafı üçün etibarlı, dayanıqlı əsaslarının formalaşdırılması ilə bərabər korrupsiya, rüşvət, sui-istifadə, süründürməçilik hallarından uzaq, tam şəffaf və sosial ədalət prinsipini bütün dolğunluğu ilə təcəssüm etdirən və vətəndaş məmnunluğuna səbəb olan sosial təminat sisteminin qurulması islahatlar paketinin əsas hədəfini təşkil edir.

Diqqətinizə çatdırım ki, hazırda ölkədə sosial müdafiə sistemi vasitəsi ilə 1 milyon 309 min nəfər əmək pensiyası, 509 min nəfər müxtəlif növ müavinətlər, 64 min nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdlərini, 50,2 min ailənin 200200 nəfər üzvü isə ünvanlı sosial yardım alır və onlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hər ay 340 milyon manatdan çox vəsait ödənilir. Mahiyyətinə və miqyasına görə əhalinin sosial müdafiəsinin mərkəzi həlqəsi olan və pensiya sisteminin gəlir və xərclərinin məcmusunu, pensiya xərclərinin

resurs təminatını ehtiva edən Dövlət Sosial Müdafiə Fondunun büdcəsi növbəti ildə zəruri maliyyə vəsaitlərini formalaşdıraraq, ölkə əhalisinin 13,1 faizini təşkil edən əmək pensiyaçıları üzrə sosial öhdəliklərin icrasında mühüm rol oynayacaqdır. Fondun 2019-cu il üçün büdcə layihəsinin tərtibatı çoxfaktorlu proqnozlaşdırma modelinə söykənir. Bu məqsədlə cari ildə ölkə iqtisadiyyatının inkişaf meyilləri və növbəti illərdə sosial-iqtisadi inkişafın əsas proqnozları, 2017-ci ildə və 2018-ci ilin ötən dövrü üzrə fondun büdcəsinin icrası nəticələri, 2018-ci ildə əhalinin gəlirləri və məşğulluq göstəriciləri, demoqrafik inkişaf tendensiyaları, eləcə də pensiya təyinatı şərtlərində aparılmış kompleks islahat tədbirlərinin təsirləri nəzərə alınmaqla, sığorta pensiya sistemi parametrlərinin dəyişməsi əsas götürülmüşdür. Apardığımız aktual hesablamalara əsasən 2019-cu ildə demoqrafik inkişaf meylləri əhalinin məşğulluğu və sosial vəziyyəti göstəriciləri, eləcə də pensiya qanunvericiliyindəki son dəyişikliklər nəzərə alınmaqla, sığorta pensiya sisteminin əsas parametrləri aşağıdakı kimi gözlənilir.

Doğulanların sayının 150 min nəfər olacağı, doğulanda gözlənilən ömür uzunluğunun 75,7 yaş, qadınlar üçün 78 yaş, kişilər üçün isə 73,5 yaş olacağı, 15–64 yaş arası, yəni əmək qabiliyyətli yaşda olan ümumi əhlinin 71 faizini, 65 yaşdan yuxarı əhali isə bütün əhalinin 6,4 faizini təşkil edəcəkdir. İqtisadiyyatda məşğul olanların orta illik sayı 4 milyon 994 min nəfər olacaq. Muzdlu işçilərin orta illik sayının isə 1 milyon 548 min nəfər olacağı proqnozlaşdırılır. 2019-cu ildə pensiya sisteminə daxil olacaq və pensiya sistemindən çıxacaq pensiyaçıların sayı üzrə proqnozlar əmək pensiyaçılarının orta bir illik sayının 1 milyon 294 min nəfər olacağını göstərir.

Hörmətli millət vəkilləri, qeyd etdiyim sosial-iqtisadi və demoqrafik göstəricilərə, habelə sığorta pensiya sisteminin parametrlərinə uyğun olaraq tərtib edilmiş Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin əsas elementləri aşağıdakı kimi olacaqdır.

Fondun 2019-cu il üçün xərcləri 3 milyard 928 milyon manat proqnozlaşdırlır ki, bu da cari ilin müvafiq proqnoz göstəricisindən 349 milyon manat və ya 9,8 faiz çoxdur. Növbəti ildə əhaliyə ödənişlər Fondun xərclərinin 97,6 faizi səviyyəsində və ya 3 milyard 835 milyon manat proqnozlaşdırılır. Xərclərdəki dəyişikliklər aşağıdakı istiqamətlər üzrə nəzərdə tutulur. Əmək pensiyaları üzrə 336 milyon manat artım, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər üzrə 3,8 milyon artım, digər xərclər üzrə 9,5 milyon manat artım.

2019-cu ildə əmək pensiyaları üzrə xərclərin əhaliyə ödənişlərin 97,6 faizini təşkil edərək, 3 milyard 743 milyon manat olacağı proqnozlaşdırılır. Pensiya xərclərində artımın 171 milyon manatı qulluq stajına görə əlavə çıxılmaqla əmək pensiyalarının bütün növlərinin ölkə üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi üçün nəzərdə tutulubdur. Fondun büdcəsində nəzərdə tutulan pensiyaçıların sosial müdafiəsi tədbirlərinin reallaşdırılması nəticəsində növbəti ildə əmək pensiyalarının orta aylıq məbləği 6,3 faiz artaraq 241 manat təşkil edəcəkdir. Xüsusi olaraq vurğulayım ki, yaşa görə əmək pensiyası isə daha da artacaqdır və orta göstərici 272 manata çatacaqdır.

Cənab Prezidentin "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 2018-ci il 5 sentyabr tarixli Fərmanı ilə həmin sahələrdə dövlət xidmətlərinin, o

cümlədən pensiya təyinatlarının tam elektronlaşmasına, nazirliyin fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim olunmasına, ümumilikdə, informasiya texnologiyalarının tətbiqi ilə innovativ idarəetmənin təmin edilməsinə, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının tam alınmasına, şəffaflığa və operativliyə nail olunmasına yönələn işlər aparılmaqdadır. Yaxın günlərdə artıq e-sosial, sosial reyestr portalının tam şəkildə istifadəyə verilməsi və "DOST" mərkəzlərinin konsepsiyasının təqdim olunması nəzərdə tutulmuşdur.

2019-cu ilə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin proqnozu isə 91,9 milyon manat olmaqla, cari il ilə müqayisədə 4,4 faiz və ya 3,8 milyon manat çoxdur. 2019-cu ildə digər xərclər 93,2 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da 2018-ci ilin proqnozuna nisbətən 9,5 milyon manat çoxdur.

Cənab Prezidentin "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə, təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 9 avqust tarixli Fərmanı yeni islahatlar paketinin reallaşdırılmasına əsaslı təminat yaratmışdır. Bu Fərman əsasında dövlət sosial xidmətlər sisteminin innovativ həllərinin tətbiqi ilə modern, çevik və optimal mexanizmlər üzərində qurulması, nazirlik üzrə 124 xidmətin bir pəncərədən, vahid standartlar əsasında, fiziki və hüquqi şərtlərlə açıq iş şəraitində, nəzakətli şəkildə göstərilməsi, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq, bərabərlik prinsiplərinin təmin edilməsi məqsədi ilə "DOST" mərkəzlərinin, yəni Dayanıqlı və Operativ Sosial Təminat mərkəzlərinin yaradılması üçün ardıcıl işlər aparılır. Cari ilin sonlarında Bakıda, daha sonra isə, gələn il ərzində həm Bakıda, həm

də bölgələrdə növbəti “DOST” mərkəzlərinin açılması gözlənilir. Bu mərkəzlər dövlət sosial xidmətlər sisteminin ən başlıca hədəfi olan vətəndaş məmnunluğu ilə müşahidə oluna biləcək yeni bir keyfiyyət mərhələsini təmin edəcəkdir.

Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinə nəzər saldıqda isə, büdcənin gəlirləri 2019-cu ildə 3 milyard 928 milyon manat proqnozlaşdırılır. Bu da 2018-ci ilin proqnoz göstəricisindən 349 milyon manat və ya 9,8 faiz çoxdur. Fondun gəlirləri məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar, sair gəlirlər və dövlətin pensiya öhdəliklərinin bir hissəsinin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsindən ayrılan vəsaitin məcmusundan ibarətdir. Gəlirlərin 61,6 faizini məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar tutur və bunun da məbləği 2 milyard 419 milyon manata bərabərdir. 2019-cu ildə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozunun 61,9 faizi və ya 1 milyard 497 milyon manatı qeyri-büdcə təşkilatların payına düşür ki, həmin vəsait cari ilin proqnozundan 88,7 milyon manat, ilin sonuna gözlənilən nəticədən isə 28 milyon manat çoxdur. Qeyd edim ki, cari ildə qeyri-büdcə təşkilatlarından toplanan məcburi dövlət sosial sığorta haqları üzrə proqnozdan 60 milyon artıq vəsait toplanması və proqnozun 105 faiz icra olunması gözlənilir. Ümumilikdə isə, ötən il ilə müqayisədə cari ildə 10 aylığın nəticələrinə görə həm məcburi dövlət sosial sığorta haqqı, həm büdcə, həm də qeyri-büdcə təsnifatı üzrə ümumilikdə, 202 milyon artıq vəsait toplanmışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar isə cari ilin proqnoz göstəricisindən 5 milyon manat çox olmaqla, 65 milyon manat proqnozlaşdırlır.

Məlum olduğu kimi, pensiya qanunvericiliyinə edilmiş konseptual dəyişikliklərdən biri də tam sığorta prinsipinin tətbiqi şəraitində pensiya sisteminin maliyyələşməsində öhdəliklərin maliyyə mənbələri əsasında fərqləndirilməsi ilə bağlıdır. Bu əsasda pensiya xərclərinin iki istiqaməti üzrə dövlət büdcəsinin öhdəlikləri müəyyən edilmişdir. Birinci istiqamət, 1992-ci ilə qədər olan dövr ərzində əmək pensiyaçılarının iş staji, ikinci istiqamət isə, əmək pensiyalarına əlavələr. Hər iki istiqamət üzrə dövlət büdcəsindən maliyyələşmənin tam təmin edilməsi, əlbəttə ki, sığorta təminatı sisteminin inkişaf etdirilməsinə və sosial sığorta sisteminin potensialının tam gücləndirilməsinə imkan verəcəkdir. Bu öhdəliyin müəyyənləşdirilməsi üçün 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləğin müəyyən edilməsi və eyni zamanda, "Əmək pensiyaları haqqında" Qanunun 19-cu və 20-ci maddələrində nəzərdə tutulan əmək pensiyalarına əlavələrin məbləğinin dəqiq müəyyən edilməsi üçün Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Maliyyə Nazirliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçilərindən ibarət komissiya yaradılmışdır. Komissiya tərəfindən Xəzər və Xətai rayon şöbələrində uçotda olan pensiya işləri tam araşdırılmışdır və dövlət büdcəsinin öhdəliyinin müəyyən olunması üzrə rəqəmlər müəyyən edilmişdir. Eyni zamanda, hazırda Lerik və Qax rayonlarında da eyni işlər aparılmaqdadır və Maliyyə Nazirliyi ilə əldə etdiyimiz razılığa əsasən ilin sonunda artıq mövcud əmək pensiyaları daxilində dövlət öhdəliklərinin payının dəqiq müəyyənləşdirilməsi üzərində işi yekunlaşdırmağı planlaşdırırıq. Ondan sonra əlbəttə ki, hər il dövlət büdcəsindən ayrılacaq vəsaitin dəqiq məbləği müəyyən ediləcəkdir və digər təminatlar üzrə Dövlət So-

sial Müdafiə Fondunun sosial sığorta prinsiplərinin tam şəkildə tətbiq etməsi mümkün olacaqdır. Bu iş başa çatdırılana qədər isə fondun büdcəsi balanslaşdırma prinsipi ilə tərtib edilir və bu məqsədlə dövlət öhdəliklərinin bir hissəsi fondun büdcəsinə yönəldilir. 2019-cu ildə dövlət büdcəsinin öhdəliklərindən fonda yönəldilən vəsait 1 milyard 502 milyon manat planlaşdırılmışdır. Bu isə 2018-ci ilin büdcə göstəricisi ilə müqayisədə 202 milyon manat və ya 15,6 faiz artım deməkdir.

Hörmətli millət vəkilləri, icazənizlə, İşsizlikdən sığorta fondu haqqında qanun layihəsinə də çıxışım çərçivəsində toxunmaq istərdim. Bildiyiniz kimi, əhalinin məşğulluğunun təmin olunması, işsiz və iş axtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onlara əmək bazarının tələblərinə uyğun olan peşə və bacarıqların öyrədilərək əmək bazarına qaytarılması ölkədə məşğulluq sahəsində həyata keçirilən siyasətin əsas istiqamətidir. 2018-ci ilin 1 yanvar tarixindən "İşsizlikdən sığorta haqqında" yeni Qanunun qüvvəyə minməsi və bu sahədə ayrıca sosial sığorta sisteminin tətbiqi ilə aktuallıq qazanan əhalinin məşğulluq imkanlarını və aktiv əmək bazarı tədbirlərini əhəmiyyətli şəkildə genişləndirən, eləcə də işsizlik müavinəti sisteminin səmərəli restruktruzasiyası üçün adekvat maliyyə təminatını formalaşdıran İşsizlikdən sığorta fondunun büdcəsi mühüm əhəmiyyət kəsb edir. Ölkə üzrə sosial iqtisadi inkişafın əsas proqnozları, əhalinin gəlirləri, məşğulluq göstəriciləri əsasında aparılmış aktual hesablamalara uyğun olaraq, gələn il üçün İşsizlikdən sığorta fondunun büdcə gəlirləri 83,5 milyon manat məbləğində, o cümlədən büdcə sektoru üzrə 26,1 milyon manat, qeyri-büdcə sektoru üzrə isə 57,3 milyon manat məbləğində proqnozlaşdırılır.

2019-cu ildə İşsizlikdən sığorta fondunun aşağıda göstərilən istiqamətlər üzrə xərclənməsi planlaşdırılır. Ümumi vəsaitin 13,2 faizi və ya 11 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə yönəldiləcəkdir. Vəsaitin 50,4 faizi və ya 42 milyon manatı özünəməşğulluq tədbirlərinə, 23 faizi və ya 19 milyon manatı Dövlət Məşğulluq Xidməti orqanlarının aparatının və onun yerli orqanlarının, habelə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsinə, 1,8 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkilinə, 1,3 milyon manatı peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsinə, 1,9 milyon manatı haqqı ödənilən ictimai işlərin təşkilinə, 5 milyon manatı sığorta olunanların əmək haqqının bir hissəsinin müəyyən bir müddətə, qanunun tələblərinə uyğun olaraq 3 ay, 6 ay, 9 ay və ya 1 il müddətinə sığorta edənlərlə birlikdə maliyyələşdirilməsinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 0,15 milyon manatı isə əmək yarmarkaları və əmək birjalarının təşkilinə yönələcəkdir. Göründüyü kimi, Fondun büdcəsinin cəmi 13 faizi passiv məşğulluq tədbirlərinə, 63 faizi isə aktiv məşğulluq tədbirlərinin maliyyələşdirilməsinə yönələcəkdir.

Fondun büdcəsinin 50,4 faizinin və ya 42 milyon manatının nazirlik tərəfindən mühüm sosial proqram olaraq həyata keçirilən özünəməşğulluq proqramına yönəldilməsi bu mexanizmin əhəmiyyətli şəkildə genişlənməsinə və il ərzində əlavə 8000-dən çox ailənin bu proqrama daxil edilməsinə imkan yaradacaqdır. Mən vurğulamaq istərdim ki, ötən il özünüməşğulluq proqramı çərçivəsində cəmi 1100 ailə əhatə olunmuşdusa, bu il artıq proqrama 7737 ailə cəlb edilib. Onlardan 6530-u uğurla hazırlıq proqramlarına keçib və biznes planlarını təsdiq edibdir. Artıq onlara aktivlərin paylanmasına başlanmışdır. Mən xüsusi

olaraq vurğulayım ki, bu 6500 şəxsin içində həssas kateqoriya hesab etdiyimiz vətəndaşlarımız çoxluq təşkil edir. Belə ki, özünüməşğulluq proqramına cəlb edilən şəxslərdən 1301 nəfəri əlilliyi olan şəxslərdir, 1255 nəfəri məcburi köçkünlərdir, 812 nəfəri ünvanlı dövlət sosial yardım alan şəxslərdir, 158 nəfəri şəhid ailəsidir. 1000-dən artıq gəncimiz cəlb edilib. Təqribən 1100 nəfər də qadınlarımız bu proqrama cəlb edilibdir. Proqramın icrası imkan verəcəkdir ki, əhalini passiv sosial təminat mexanizmlərindən çıxararaq aktiv məşğulluq proqramlarına cəlb edək və onların əməyini, özünüməşğulluğunu təşviq edərək gəlirlərinin artırılmasını təmin edək.

Yekunda qeyd etmək istərdim ki, əhalinin sosial müdafiəsi məsələlərinin daim xüsusi diqqət mərkəzində saxlanılması, Azərbaycanda sosial proqramların vaxtında və tam icra edilərək daha da genişləndirilməsi, yeni sosialyönümlü təşəbbüslərin reallaşdırılması Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi hərtərəfli inkişaf strategiyasının ana xəttidir. Fikrimizcə, 2019-cu il üçün Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun büdcələri ilə bağlı qanunların qəbulu ölkəmizdə sosial müdafiənin daha da gücləndirilməsinə imkan yaradacaqdır. Qanun layihələrinin dəstəklənməsini sizlərdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, Hesablama Palatası məsələ ilə əlaqədar öz rəyini hazırlamışdır, sizlərə təqdim edilib. Qısa, xahiş edirəm, Vüqar Gülməmmədov, buyurun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli Sədr, hörmətli millət vəkilləri, hörmətli mərkəzi icra hakimiyyətinin rəhbərləri! Məndən əvvəl çıxış

edənlər həm qanun layihəsinin məzmunu, həm onu müşahidə edən makroparametlər barədə ətraflı məlumat verdilər. İstərdim ki, Dövlət Sosial Müdafiə Fondunun, daha doğrusu, sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında qanun layihəsinə Hesablama Palatası tərəfindən hazırlanmış rəydən ən əsas məqamları çox qısa bir vaxtda sizə təqdim edim. İlk olaraq qeyd edim ki, qanun layihəsi Nazirlər Kabinetinin 2004-cü il 93 nömrəli qərarı ilə təsdiq edilmiş Tədbirlər planına əsasən hazırlanmışdır. Hesablama Palatası əvvəlki illərdə də bu barədə qeyd etmişdir ki, dövlət büdcəsi qanunun layihəsində olduğu kimi, bu layihədə də büdcə zərfinə daxil olan və qanun layihəsini dəstəkləyən məlumatlar tam şəkildə daxil edilmir. Yəni bu məlumatların tam daxil edilməsi həm hesabatlıq, həm də şəffaflıq üçün çox önəm daşıyan məsələdir.

İkinci, qanun layihəsinin özü ilə bağlı. Belə ki, qanun layihəsinin hazırlanmasına yanaşmanın müasir çağırışlara uyğun təkmilləşməsini təklif edirik. Göründüyü kimi, qanun layihəsində Dövlət Sosial Müdafiə Fondunun gəlirləri iki yerə bölünür, büdcə və qeyri-büdcə. Biz təklif edərdik ki, gəlirlərin strukturunda dəyişiklik edək. Burada həm büdcə, həm dövlət müəssisələri, həm publik hüquqi şəxslər, həm də bələdiyyə və sair kimi gəlirlərin ayrıca göstərilməsi də daxilolmaların mənbələrini konkretləşdirər. İkinci deyəcəyimiz məsələ. 2019-cu ildə “2014–2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası”nda sosial sığorta normativ strukturunun, həmçinin məcburi dövlət sosial sığorta haqqının minimum əmək haqqına uyğun ödəyənlərin sığorta normativlərinin təkmilləşməsi kimi mühüm bir məsələnin həlli nəzərdə tutulur. Bununla bağlı büdcə-vergi siya-

sətinin əsas prioriteti kimi, muzdla çalışanların gəlirləri ilə bağlı islahatların həyata keçirilməsi, məcburi dövlət sosial sığorta haqqı üzrə ümumi yükün işəgötürən və işçi üzərinə düşən nisbətin tənzimlənməsi işinin başlanması da çox müsbət bir hal kimi vurğulanmalıdır.

Hörmətli millət vəkilləri, fondun növbəti ildə gəlirlərinin 61,6 faizinin məcburi dövlət sosial sığorta haqlarından daxilolmalar hesabına formalaşması və bu haqqın 6,4 faiz artırılması nəzərdə tutulur. Qeyd edək ki, büdcə zərfinə daxil edilən məlumatlara əsasən növbəti ildə məşğul əhalinin sayı 1,8 faiz, orta aylıq əmək haqqı isə 14,9 faiz artacaq. Yəni  məcburi dövlət sosial sığorta haqlarının artım tempi ilə orta aylıq əmək haqqının artım tempi arasında qanun layihəsində göstərilən müəyyən az proqnozlaşdırma ehtimalı vardır. Belə ki, növbəti ildə yığımların Vergilər Nazirliyi tərəfindən aparılması və inzibatçılığın gücləndirilməsi halında bunu nisbətən az proqnozlaşma hesab edirik.

İkinci qeyd etmək istədiyim məsələ. Məlumat bazasının təhlili ilə əmək pensiyalarının və bəzi müavinətlərin cari və növbəti ildə yarana biləcək riskləri müəyyən edilmişdir. Belə ki, 2017-ci il 1 iyul tarixində qüvvəyə minmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən dəyişikliklər pensiyaların maliyyələşməsi baxımından əlavə maliyyə xərclərinin aparılmasına səbəb olmuş və bu xərclər 2018-ci ilin büdcəsində tam nəzərə alınmamışdır. Belə bir ehtimalın növbəti ilin qanun layihəsində də olması riski vardır. Bu yanaşma məcburi dövlət sosial sığorta haqları ilə ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağlı müavinətlərə də şamil olunmalıdır. Belə ki, növbəti

ildə bu istiqamətdə nəzərdə tutulmuş artım həmin müavinətin ödənilməsi üçün əsas olan əmək haqqının artım tempinin gözlənilən artımından nəzərəçarpacaq dərəcədə geri qalır.

Hesablama Palatası sığorta olunanların əmək haqqı, iş stajları və sağlamlıq səviyyələrinin, ölkədə doğum və vəfatetmə səviyyələrinin müavinətlərin ödənilməsi xərclərinin səviyyəsinə əhəmiyyətli təsir etdiyini nəzərə almaqla, öz rəyində həmin amilləri də bir risk kimi qiymətləndirmişdir.

Hörmətli millət vəkilləri, ümumiyyətlə, götürsək, Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında qanun layihəsi mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilmiş və Hesablama Palatası bu layihəyə müsbət rəy vermişdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim, əyləşin. İndi müzakirələrə başlayırıq. Etiraz etmirsinizsə, müzakirələri elə 5 dəqiqə ilə davam edək. Yəni nə qədər operativ işləsək, sabahkı iclasda başqa məsələlərə daha çox baxarıq. Buyursun Aydın Hüseynov.

**A.Hüseynov.** Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri, millət vəkilləri! Biz artıq iki gündür ki, dövlət büdcəsinin layihəsini müzakirə edirik və bütün çıxışlarda da belə bir fikir səsləndi ki, bütün əldə olunan nailiyyətlər, əlbəttə, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir. Eyni zamanda, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəldilməsi, onların maraqlarının ifadə olunmasıdır. Bu sahədə dövlət büdcəsi çox önəmli, etibarlı bir mənbədir və eyni zamanda, bu gün müzakirə etdiyimiz büdcənin tərkibi olaraq

Dövlət Sosial Müdafiə Fondu ilə bağlı qanun layihəsi də vətəndaşlarımızın və xüsusilə sosial təbəqənin maraq dairəsindədir. Ona görə də bugünkü uğurlarımızı böyük bir addım hesab etmək olar.

Mən istərdim ki, bir-iki məsələ ilə bağlı hörmətli millət vəkilləri ilə öz fikirlərimi bölüşüm. Nəyi demək istəyirdim? 2019-cu ilin büdcə layihəsində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmanın 35 faizinin büdcə təşkilatlarından daxil olacağı proqnozlaşdırılır. Büdcə sektoru üzrə daxil olmanın 88 faizinin büdcə təşkilatlarından, 12 faizinin isə büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən daxil olacağı proqnozlaşdırılır. Eyni zamanda, 2018-ci ilin birinci yarım ilində proqnoz 104 faiz yerinə yetirilib. Bununla hansı məntiqə gəlmək istəyirəm. Biz görürük ki, doğrudan da, dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə məcburi dövlət sosial sığorta haqları üzrə ödəniş, demək olar ki, artıqlaması ilə yerinə yetirilir. Bu hansı mexanizmin nəticəsidir? Bütün bu proseslər Maliyyə Nazirliyinin tərkibində olan dövlət xəzinədarlığı orqanı vasitəsi ilə həyat keçirilir. Dövlət sosial sığorta haqları ödənilərkən əmək haqqı ilə paralel həmin ödənişlər də operativ surətdə həyata keçilir.

Mən indi digər kateqoriyadan olan gəlirlər barədə danışmaq istərdim. Yəni 2019-cu ildə proqnoza görə qeyri-büdcə təşkilatlarından daxil olacaq gəlir 61,9 faiz təşkil edəcək. 2018-ci ilin birinci yarım ilində proqnoz 103,3 faiz idi. Lakin xəzinə xərci 98,9 faiz təşkil edib. Mən əminəm ki, ilin axırına qədər proqnozlaşdırılan qaydada xəzinə xərci ödəniləcək. Biz görürük ki, doğrudan da, qeyri-büdcə təşkilatlarında bu ödənişlərdə ən azı birinci yarım ildə proqnoz göstəricilərin yerinə yetirilməsi ləngiyir. Mən nəyi demək istərdim? Biz bilirik ki, 2019-cu ilin dövlət büdcəsinin tərkibində 4,7

milyard manat əməyin ödənişi xərclərinə yönəldilib. Yəni artıq Dövlət Sosial Müdafiə Fondunda tam əminlik var ki, bu proqnozlar yerinə yetiriləcək. Eyni zamanda, dövlət büdcəsinin tərkibində 10 milyard manata yaxın vəsait isə əsaslı xərclərə yönəldilib. Mən belə hesab edirəm ki, bu əsaslı xərclər də dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirilərkən həmin o xərclərin tərkibində əmək haqqı fondu formalaşa bilər. Onu da deyim ki, işə götürülənlər ifadəsinin işə qəbul olunanlar ifadəsi ilə əvəz olunması daha məntiqli olardı. Büdcə təşkilatlarının sifarişi əsasında fəaliyyət göstərən həmin vergi ödəyicilərində, yaxud Dövlət Sosial Müdafiə Fondu qarşısında ödəyici subyekt olan təşkilatlarda da əmək haqqı fondu formalaşarsa, o vəsaitlər və ödənişlər dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirilərsə, proqnozların yerinə yetirilməsində heç bir problem yaranmaz. Eyni zamanda, oradakı işçilərin leqallaşması ilə bağlı çox mühüm addım atılmış olar. Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hesab edirəm ki, bu gün sosial müdafiə sistemində əsas problemlərdən biri şəffaflıq problemidir və səmimi şəkildə vətəndaşı inandırmaqdır ki, sənin üz-üzə qaldığın problemlərin ən çox olduğu bu qurumla şəffaf şəkildə münasibət qura bilərsən. Bu günlərdə mən mətbuatda bizim əmək və əhalinin sosial müdafiəsi nazirinin açıqlamasını oxudum ki, nazirlikdə işə qəbul etmək üçün 4 müşavir və 170-dən artıq işçinin açıq tenderi elan olunubdur. Azərbaycan dövlət qurumunda, ilk dəfədir cəmiyyətə bu tendensiya

açıq çatdırılır ki, müşavir vəzifəsinə artıq dostumu, yaxınımı, qohumumu götürmürəm, kim ixtisaslı mütəxəssisdirsə, gəlsin daxil olsun. Hər şey buradan başlayır. Hər şey ona görə buradan başlayır ki, biz dəfələrlə deyirik, Azərbaycan fermerinin əsas problemi nədir, malı tökülüb küçədə qalıb, evində qalıb, alan yoxdur. Alması, kartofu, pomidoru, xiyarı, hamısı qalıb. Ona görə ki, bizim, tutaq, Müdafiə Nazirliyi, başqa qurumlar ərzağı valyuta ilə xaricdən alırlar. Öz vətəndaşımızdan açıq tenderlə alsalar, elə sahibkarın da problemi həll oluna bilər, həm də dövlətin əlavə valyuta xərcləməsinə ehtiyac olmaz. Valyuta ehtiyatlarımız artar. Demək istədiyim odur ki, biz bu şəffaflığı təmin etməyincə, bu prosesləri doğru tənzimləmək imkanımız olmayacaqdır. Ona görə də bu problemləri, hansı ki, var bunları açıq şəkildə müzakirə edərək, cəmiyyətin narazı elektoratının azalması istiqamətində müəyyən məsələləri çözməyə çalışmalıyıq. Çünki devalvasiyadan sonra, bank sektorunda yaranan vəziyyətdən sonra sıxıntı içində yaşayan vətəndaşların sayı kifayət qədər çoxdur. Məsələn, dividentlərə görə müəyyən gəlir, faizi ödəməli olan sahibkarlar, deyək ki, 20 faiz ödəyirlər və bunu şəxsi ehtiyaca yönəltmirlər. İnvestisiyaya yönəldənlə şəxsi qazancına yönəldən arasında fərq qoyulmur və bu da bir problem yaradır. Ona görə də bu sektorda hansı isə sığorta ödənişi ilə bağlı problemlər də, müəyyən kəsintilər də məhz buradan qaynaqlanır. Biz bu problemləri ciddi diqqətə almalıyıq.

Mən komitə iclasında da dediyim bir misalı yenidən xatırlatmaq istəyirəm. Azərbaycanda bir dustağın saxlanılmasının günlük xərci 18 manat müəyyən olunub, bu da ayda 540 manat edir. Birinci qrup əlilə verilən müavinət 155 manatdır. Bu da günlük 5 manat 16 qəpik edir. Yəni sağ-

lam bir insan əgər 540 manata dolanışıq imkanına sahib ola bilər deyiriksə, 155 manata əlil necə dolanmalıdır? Demək, bu yapışmalıdır dövlət qurumunun yaxasından ki, aldığım pul mənim dərman vəsaitimi, mənim əlil arabamı görmür, başqa məsələləri ödəmir və sair. Demək istəyirəm, bu məsələlərə biz başqa cür, necəsə yanaşmalıyıq. Məsələn, dustaqdır, kifayət qədər böyük infrastruktur var, biz niyə indiyə qədər şərait yaratmamışıq ki, onlar elə özləri pul qazansınlar, həm orada özlərini dolandırsınlar, həm də ailələrinə vəsait göndərsinlər. Bu imkanlar var axı. Biz bütün məsələləri dövlət büdcəsindən nə qədər vəsait ala biləcəyimiz üzərində konsentrasiya edirik və bunun da nəticəsində büdcə o qədər yüklənir ki, digər sahələrə pul ayıranda artıq özümüz narahatlıq keçirməyə başlayırıq.

Məşğulluq siyasəti ilə bağlı burada qeyd olundu. 83,5 milyon manat İşsizlikdən sığorta fonduna vəsait ayrılır, bu çox azdır. Yəni işsizlərin sayı gözlədiyinizdən artıqdır. İndi bu gün Bakı şəhərinin əhalisi təqribən 2,2 milyon nəfər hesablanır. Bu, ümumi statistikaya görə olan rəqəmdir. Amma siz təhsil alan şagirdlərin sayına diqqət etsəniz, görərsiniz ki, qeydiyyatı olmayaraq təhsil alan şagirdlərin sayı bundan, bu rəqəmdən 50 faiz çoxdur. Demək, onlar rayondan gəlirlər, gecəqonduda, qeydiyyatsız evlərdə yaşayırlar, amma məktəblərə gedirlər. Onların sayı qeydiyyatda olanların sayından çoxdur. Demək, bu rəqəm 2,2 milyondan artıqdır. Digər sahələrdə də bu rəqəmlər, həqiqətən, artıqdır və biz bunu qeydə almadığımıza görə görməzdən gələ bilmərik ki. Ona görə də işsiz insanların sayının həddindən artıq çox olması yüklənmə yaradır. Büdcədən qidalanan, ələbaxımlıq ovqatı yaşayan insanların sayını artırmağa başlayırıq.

1000 nəfərdən artıq əlilin məşğulluğa yönəlməsi, xüsu-

silə də peşə standartlarının hazırlanması, aktiv məşğulluq prosesinin şəbəkə olaraq genişlənməsi də olduqca vacibdir. Mən hesab edirəm ki, bu sahədə vəsait artırılmalıdır ki, insanlar ən azı minimum iş şəraiti ilə təmin olunsunlar. Çox sayda insanlar deputatlara müraciət edirlər, bizimsə gücümüz çatmır. Məşğulluq sektoru normal təkmilləşsə, bizim də işimiz yüngülləşmiş olar.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Arayış üçün deyim ki, sadalağınız ərzaq məhsullarını Müdafiə Nazirliyi ölkə sahibkarlarından alır. Dəqiq məlumatdır.

Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən də bu büdcəni dəstəkləyirəm. Çünki dövlətimizin əsas siyasəti elə sosial siyasətdir. Cənab Prezident tərəfindən sosial siyasət həyata keçirilir. Qanunlarımız kifayət qədər var. Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən islahatlar da çox təqdirəlayiqdir. Hesab edirik, keçmişdə olan çatışmayan cəhətlər də bundan sonra aradan qaldırılacaq ki, vətəndaşlarımız öz sosial təminatlarını tam təmin etsin və inansın.

Mən əsas diqqətimi müharibə veteranlarına yönəldəcəyəm. Çünki komitə sədri olmaqla yanaşı, mən həm də burada müharibə veteranlarının bir təmsilçisiyəm. O baxımdan da, hesab edirəm ki, bu sahədə müəyyən addımların atılması təqdirəlayiqdir. Çünki Qarabağa gedən yol Qarabağ veteranlarının, Qarabağ əlillərinin sosial müdafiəsinin güclənməsindən keçir və bu gün bu sahədə dövlət başçısı tərəfindən, hörmətli Mehriban xanım tərəfindən kifayət qədər addımlar atılır. Hesab edirəm ki, bizim qanunvericilik sahəsində, özəl sektorda da bu addımlar atılmalıdır ki, onlar müdafiə olunsunlar. Birinci növbədə əlillərin işə götürülməsini qeyd etmək istərdim. Burada məşğulluqla bağlı fikir

söylənildi, ilk növbədə mən hesab edirəm, Qarabağ əlillərinin işə cəlb olunmasına diqqət yetirilməlidir. İkinci bir məsələ. Müharibə veteranları hansı idarədə, yaxud təşkilatda işləyirsə, çalışırsa, orada hər hansı ixtisarlar olarsa, bu, ən axırıncı onlara şamil olunmalıdır. Ən birinci yox.

Üçüncü bir məsələ. Mən bura Əfqanıstan müharibəsi veteranlarını da daxil edirəm, çünki onlar da vətən uğrunda döyüşlərdə iştirak ediblər. O vaxt vətən bir idi və onların hər biri bu döyüşlərdə iştirak edib, veterandırlar, aralarında əlilləri də, Qarabağ müharibəsində iştirak edənləri də var. Bunların da məşğulluğu əsas istiqamətlərdən biridir.

Dördüncü bir məsələ. Bizdə qanunvericiliyə görə müharibə veteranlarına 56 manat müavinət verilir. Mən bu 56 manat müavinətin çoxluğu, azlığı barəsində fikir söyləmirəm. Lakin burada elə qayda tətbiq olunub ki, onlar təqaüdə çıxanda həmin müavinət kəsilir. Ondan yalnız 18 manatı onların təqaüdünə daxil edilir. Bu 56 manat müavinət veteranlara güzəştlərin əvəzinə verilibdir. Hansı ki, güzəştlər ləğv olunduqdan sonra bunlara nəqliyyatdan pulsuz istifadə, qazdan, sudan, elektrik enerjisindən güzəştli istifadənin əvəzi kimi verilibdir. Bunlar ləğv olunduqdan sonra həmin 56 manat müəyyənləşibdir. Bu 56 manat onunkudur və bu vəsaitin onun təqaüdünə nə aidiyyəti var? Bunun da, Ziyafət müəllim, xeyli hissəsini kəsirlər və qalan hissəsini də gətirib daxil edirlər təqaüdə. Bəyəm bu təqaüdə çıxanda veteranlıqdan çıxır? O baxımdan, mən hesab edirəm ki, biz onlara bu diqqəti göstərməliyik.

Mənzil-məişət məsələsi ilə bağlı. Cənab Prezidentin göstərişi ilə bütün rayonlarda mənzillər tikilir, imtiyazlı şəxslər təmin olunurlar. Mən hesab edirəm ki, bu mənzillər veriləndə Əfqanıstan müharibəsi veteranlarını da yaddan çıxarmaq olmaz. Onların da bir neçəsi müvafiq siya-

hılara daxil edilməlidir.

Beşinci məsələ, biz keçmişdə də bu məsələni qaldırmışdıq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyası formalaşanda hər veteran təşkilatından bir nəfər üzv salınmasa da, heç olmasa, müşahidəçi kimi salınsın ki, onların da nazirliyin qəbul etdiyi qərarlarda iştirakı olsun. Kömək göstərsinlər, dəstək versinlər. Bunlar bilirlər ki, veteranlar hansı vəziyyətdə yaşayırlar, vəziyyət nədən ibarətdir. Yaxud iş ilə təmin olunmada onlardan da bəlkə gələcəkdə istifadə olunsun, çünki bu elə, əslində, əhalinin bütün təbəqələri ilə yanaşı, həmin veteranların, əlillərin də təşkilatıdır. O baxımdan, mən hesab edirəm ki, gələcəkdə bu məsələlər diqqətə çatdırılsa, yəni bunlar nəzərə alınsa, bizim Qarabağ müharibəsi əllilləri də, veteranları da, Əfqanıstan müharibəsi veteranları da öz problemlərini həll etmiş olarlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Saat 4-ə qədər fasilə.

***(FASİLƏDƏN SONRA)***

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Müzakirələri davam etdiririk. Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Sosial sahə ən çətin və məsuliyyətli sahələrdəndir. Ona görə də bu sahədə yaranan problemlər, məncə, insan durduqca olacaq. Əsas odur ki, bu problemləri görəsən, düzgün qiymətləndirəsən və onların ədalətli həllinə səy göstərəsən. Bu mənada mən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini, xüsusilə cəmiyyətdə geniş rezonans doğuran yeni iş

prinsiplərini, "DOST" kimi dəyərli layihələrin həyata keçirilməsini dəstəkləyir, Sahil Babayevə və onun komandasına yeni uğurlar arzulayıram.

Yeri gəlmişkən, mən o fikrə qayıdıram ki, əhali ilə işləyən, pensiya, müavinətlər və sair ödənişlərə nəzarət edən insanların vəzifə maaşları daha yüksək olmalıdır. Çünki hazırda nazirliyin, xüsusilə də rayonlarda işləyən əməkdaşlarının məvacibləri 250-300, yaxşı halda 350 manat civarındadır. Bu da istər-istəməz neqativ hallara, yəni rüşvətxorluq, korrupsiya və sair hallara gətirən bir amildir. Ona görə də bu çətin sahələrdə işləyən insanların vəzifə maaşlarının əhəmiyyətli dərəcədə yüksəldilməsini istərdim ki, həmin sahəyə bilikli, kreativ, sağlam cavanların axını güclənsin.

Şəhid ailələrinə birdəfəlik ödəmə məsələsinə qayıtmaq istərdim. Hesab edirəm ki, biz ədalət prinsipini saxlayaraq bütün şəhid ailələrinə Prezidentin ayırdığı bu yardımı edə bilərdik. Lakin bəzi vərəsələr əvvəlki illərdə müəyyən məbləğdə sığorta pulları aldıqları halda, bu pullar hesablanmalı və inflyasiya nəzərə alınaraq, 11 min manat məbləğindən çıxılmalıdır. Məsələn, kimsə 10 il qabaq 100 dollar, ya da 50 min manat, yəni 5 şirvan pul alıbsa, hazırda bu məbləğ təkrar hesablanmalıdır və ümumi məbləğdən çıxılmalıdır. Yaranan vəsait vərəsəyə verilməlidir. Qoy bu proses uzansın 1 il, 2 il, qoy kimsə bu pulları gec alsın, lakin sosial ədalət prinsipi gözlənilərək ictimai narazılıq aradan qaldırılacaq.

Uşağın anadan olmasına görə birdəfəlik müavinət məsələsinə yenə qayıtmaq istərdim. Gördüyünüz kimi, bu müavinətin miqdarı 2018-ci ilin səviyyəsindədir. Bu bizi qətiyyən razı sala bilməz. Çünki real tələbat o müavinətdən, hamımız bilirik, ən azı 10 dəfə çoxdur. Mən təklif

edərdim ki, Sahil müəllim, maraqlı bir fikirdir, bir neçə ölkələrdə bu tətbiq olunub, 2-ci, 3-cü və sonrakı doğuşa görə müavinətlər proqressiv şəkildə ödənilsin. Yəni birinci uşağa görə müavinət 100-105 manatdırsa, ikinci uşağa görə bu məbləğ daha çox olmalıdır, üçüncü uşağa görə ondan da çox və sair. Çünki statistikaya görə respublikada doğum əvvəlki illərə nisbətən aşağı səviyyəyə düşür və gənc ailələri stimullaşdırmaq lazımdır.

Son olaraq bir təklifi də səsləndirmək istərdim. Söhbət ondan gedir ki, I qrup əlilə ailə üzvlərindən bilavasitə qulluq edən insanlara həm əmək stajı hesablansın, deyəsən, bu, indi hesablanır. Həm də onlara müəyyən məbləğdə, heç olmasa, yaşayış minimumu həddində məvacib verilsin. Çünki məlumdur ki, belə insanlar yalnız xəstənin qeydinə qalmalı olduğundan başqa işlə məşğul ola bilmirlər. Sosial işçi, bizdə hələ bu institut tam formalaşmayıb, inkişaf etməyib. Özü də kənd yerlərində bu sıfıra bərabərdir. Bilirsiniz, haçansa əlil dünyasını dəyişir, ona uzun illər fədakarcasına qulluq edən yoldaşı, bacısı, ya da anası maddi dəstəkdən tamamilə məhrum olur. Yəni yeni iş axtarmaq, işə başlamaq çoxu üçün artıq gec olur. Xahiş edirəm, bu məsələni, heç olmasa, gələcək illər üçün araşdırasınız.

Xahiş edirəm, təkliflərimi nəzərdən keçirərək bu məsələlərə diqqətlə yanaşasınız. Ümumiyyətlə, 2019-cu ilə planlaşdırılan sosial büdcə ciddi düşünülmüş bir sənəddir və hər iki sənədi deputatların müəyyən, dəyərli fikirləri nəzərə alınmaqla, birinci oxunuşda qəbul etmək olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Cənab Sahil Babayev bu vəzifəyə təzə təyin olunub. Müəyyən islahatlara başlayıb, bu barədə

məlumatımız var. Bu işdə ona uğurlar arzulayıram. Çünki Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, doğrudan da, islahatlara çox böyük ehtiyac var.

Konkret 2019-cu ilin sosial müdafiə büdcəsi ilə əlaqədar qeyd etmək istəyirəm ki, 2017-ci ildə biz dövlət büdcəsindən 1,3 milyard manat, 2018-ci ildə 1,3 milyard manat transfer etmişdiksə, 2019-cu ildə bu rəqəm 1,5 milyard manat təşkil edir. Dövlət büdcəsindən əlavə 200 milyon manat vəsait  transfer etmişik. Mən bunun əleyhinə deyiləm. Amma nazir bilməlidir ki, onun ehtiyatı var. Yəni sığorta ödəyənlərin fonda borcları istiqamətində biz 2018-ci ildə qanun qəbul etmişik və sığortaedənlərə müəyyən 30 faiz, 60 faiz olmaq şərti ilə güzəştlər tətbiq etmişik ki, bu debitor borcları yığılsın. 371 milyon debitor borcu var idi. Onun bu gün yalnız 65 milyonu ödənilib. Yəni bu gün də sığortaedənlərin fonda 306 milyon debitor borcu var. Ona görə mən xahiş edərdim ki, cənab nazir bunu nəzərə alsın və gələcəkdə daha çox dövlət büdcəsindən transferlə yox, məhz o sığortaedənlərin borclarının fonda ödənilməsi ilə ciddi məşğul olsunlar. Bir də onu nəzərə almaq lazımdır ki, fonda daxilolmalar 2019-cu ildə 2018-ci ilə nisbətən 1,9 faiz az nəzərdə tutulur.

İkinci ən ciddi məsələlərdən biri, burada bayaq Hadi müəllim də qeyd etdi, yollayışlarla əlaqədardır. Bu məqsədlə 2017-ci ildə 14,8 milyon, 2018-ci ildə 15,5 milyon, 2019-cu ildə də 15,5 milyon manat vəsait ayrılıb. Azərbaycan Həmkarlar İttifaqı yeganə təşkilatdır ki, fonda olan borcunu tamamilə ödəyib, heç bir debitor borcu da yoxdur. Bu yollayışlara da əhalinin çox böyük ehtiyacı var. Mən belə hesab edirəm ki, 2019-cu ilin dövlət büdcəsində bu maddə ilə 15,5 milyon yox, haradasa 20-22 milyon manata yaxın vəsait ayırmaq lazımdır ki, insanlar bu yol-

layışlardan səmərəli şəkildə istifadə edə bilsinlər. Çünki bu çox ciddi məsələdir və insanların buna ehtiyacı var.

Biz pensiya sistemi ilə əlaqədar 2017-ci ildə çox ciddi islahatlar aparılması üçün qanunlar qəbul etdik. İndi elə bir vəziyyət yaranıb ki, fonda daha az vəsait ödəyən daha tez pensiyaya çıxır, amma daha çox vəsait ödəyən pensiyaya daha gec çıxır. Yəni mən yaşa görə pensiyanı nəzərdə tuturam. Düzdür, biz yaş həddini dəyişdirdik, eyniləşdirdik, qadınlarla kişiləri 65 yaşa gətirdik. Bu, dövlət büdcəsinə nə verdi? Dövlət büdcəsinə əlavə vəsait qazanılmasına gətirib çıxardımı? Bunu hesabladılarmı, ümumiyyətlə? Biz axırıncı 10 ildə 2 dəfə yaşa görə pensiyanı dəyişdirdik. Yəni pensiya islahatı aparıldısa da, mən hələ bunun müsbət nəticəsini görmürəm. Yəni ona görə də mən belə hesab edirəm ki, "Pensiya sistemi haqqında" Qanuna yenidən baxmağa çox böyük ehtiyac var. Təzə nazirə təklif edirəm ki, ümumiyyətlə, pensiya yaşı ilə əlaqədar məsələyə ciddi baxılsın. Bəzi ölkələr var ki, 1 nəfər işləyənə 1 nəfər pensiyaçı düşür. Azərbaycanda amma 1 nəfər pensiyaçıya 3 nəfər işləyən düşür. Nəyə görə biz yaş həddini belə ciddi şəkildə hətta qadınlar üçün 65 yaşa qaldırmışıq? Mən bunu başa düşə bilmirəm ki, biz qadını 65 yaşında pensiyaya çıxardırıq.

Burada bir neçə məsələ də var. Birinci, özəl fondlarla əlaqədar. Biz bir neçə dəfə bu məsələni gündəliyə çıxarmışıq. Niyə Azərbaycanda yalnız bir dövlət fondu fəaliyyət göstərməlidir? Niyə Azərbaycanda özəl sığorta fondları olmamalıdır? Beynəlxalq təcrübə var, beynəlxalq təcrübədə ölkələrdə dövlət sığorta fondu ilə yanaşı, özəl sığorta fondları da var. Yəni insanın seçimi, alternativi olmalıdır ki, əgər mən bu fonda istəmirəmsə, əlavə vəsait yatırmaq üçün digər özəl sığorta pensiya fondlarından isti-

fadə edirəm və həmin fonda da vəsaitimi yatırıram ki, sonra pensiyaya çıxanda məndə problem olmasın.

Bir də nazirdən xahiş edirəm, Tibbi-sosial ekspert komissiyası ilə əlaqədar məsələni ciddi nəzarətə götürsün. Bununla əlaqədar bizdə çoxlu şikayətlər var, lazım oldu-olmadı əlillik dərəcəsi verirlər və sair. Ümumi götürəndə mən...

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli qonaqlar, həmkarlar! Biz bu gün sosial təminat və müdafiəni həyata keçirən orqanın həm də fəaliyyətini müzakirə edirik. Doğrudan da, bizim keçmiş əməkdaşımız Sahil müəllim son vaxtlar bu istiqamətdə xeyli işlər görür, islahatlar aparır, xüsusilə də "DOST" mərkəzlərinin yaradılması insanlar tərəfindən çox yüksək qarşılanır, təqdir olunur. Mən büdcənin müzakirəsi zamanı da söylədim, əslində, biz istəyirik, bu və ya digər sahəyə daha artıq vəsait ayıraq, amma çox təəssüf ki, fondun büdcəsi çox məhduddur. Onun aradan qaldırılması üçün biz çalışmalıyıq ki, daha çox vəsait toplayaq. Vəsait toplamaq üçün isə insanların əmək haqları artmalıdır.

Burada Hadi müəllim qeyd etdi ki, doğuşun sayı il ərzində 170 mindən 103 minə düşüb. Doğrudan da, bu hər birimizi ciddi şəkildə düşündürməlidir. Adətən insanların sosial vəziyyəti aşağı olanda insanlar ailə qurmurlar, yaxud uşaq dünyaya gətirmək istəmirlər. Bilirlər ki, müəyyən problemləri həll etmək lazımdır. Burada qeyd olundu ki, doğuşla bağlı müavinətlər artırılsın, 3 yaşa qədər uşaqlara müavinətlərin verilməsi ilə bağlı məsələlər qeyd olundu. Mən düşünürəm ki, doğrudan da, Avropanın hətta ən inkişaf etmiş ölkələrində belə 18 yaşına çatana qədər uşaqlara müəyyən müavinətlər verilir. Bəzi hallarda bu,

hətta 200 avroya qədərdir. Ona görə də Azərbaycanda da buna çox böyük ehtiyac var. Düşünürəm ki, biz müəyyən islahatlar aparsaq, buna nail ola bilərik.

Deputat həmkarım Fazil Mustafa günün birinci yarısında qeyd etdi ki, hər şey kadrlardan başlayır. Vaxtilə Stalin də deyirdi ki, hər şeyi kadrlar həll edir. Amma düşünürəm ki, hər şeyi islahatlar həll edir. Biz, doğrudan da, islahatlara getməsək, bu problemləri həll edə bilməyəcəyik. Bu islahatlar nədən başlanmalıdır? İlk növbədə idarəetmə xərcləri azaldılmalıdır. Mən komitənin iclasında da söyləmişdim ki, məsələn, gələn il Azərbaycanda büdcə vəsaiti hesabına çalışanların sayının 19 min 300 nəfər artırılması proqnozlaşdırılır. Mən mətbuatdan oxudum ki, qonşu Ermənistanda gələn il büdcədən maliyyələşən 150 min nəfərin ixtisarı nəzərdə tutulur. Biz çalışmalıyıq ki, maksimum az sayda insanla daha çox iş görək və büdcə xərclərini maksimum dərəcədə azaldaq. Bundan başqa, bir çox müəssisələr var – "Azərkosmos", "Azərişıq", "Azərsu", "Azəriqaz", ümumiyyətlə, səhmdar cəmiyyətlər var ki, səhmləri dövlətə məxsusdur, bunları özəlləşdirməyin vaxtı çoxdan gəlib çatıb. Xidmət sahələrini özəlləşdirməliyik. Həm buradan büdcəyə böyük pullar daxil ola bilər, həm də həmin şirkətlər gələcəkdə büdcəyə vergi ödəyərlər. Məsələn, gələn il investisiya qoyuluşundan energetika və sənayeyə 782,9 milyon manat vəsait ayrılır. Gəlin görək bu sektor büdcəyə nə qədər vergi verir. Müxtəlif adlarla onların ödədiyi vergini də biz sonradan qaytarıb bir də təzədən veririk onların özlərinə. Ona görə mən hesab edirəm ki, bu xidmət sahələrini mütləq özəlləşdirmək lazımdır. Yaxud Siyavuş müəllim burada günün birinci yarısında qeyd etdi, uzun müddətə idarəetməyə verilməlidir ki, dövləti bu yükdən azad edək. O halda

mən sizi əmin edirəm ki, büdcənin həcmini biz gələcəkdə, 2-3 il ərzində hətta 40-50 milyard dollar səviyyəsinə qaldıra bilərik. O zaman pul da çatacaq və dediyim kimi, pensiyaları da artıra biləcəyik, uşaq pullarını da verə biləcəyik, əlillərə də kifayət qədər dəstək verə biləcəyik. Amma bu islahatları aparmadan, səmimi söyləyirəm, dövlətin yükünü azaltmadan bunları etmək xeyli dərəcədə çətin olacaq.

Sərnişindaşıma Bakı şəhərində nədir ki? Bilirsiniz ki, çoxlu özəl şirkətlər var idi, vergi ödəyirdilər. Onu da dövlət artıq özünün nəzarətinə götürür. Yəni bunlar müasir avtobuslar ala bilmirlərsə, həmin pula dövlət avtobus alınca, o pulu kredit kimi versin həmin sahibkarlara. Həmin sahibkarların qarşısında şərt qoysun ki, gedin, müasir avtobuslar alın və onlar gedib müasir avtobuslar alsınlar. Yenə söyləyirəm, əgər biz sahibkarların ucuz, aşağı faizlə kreditlərə çıxışını təmin edə bilməyəcəyiksə, ölkəyə xarici investisiyalar cəlb edə bilməyəcəyiksə, dövlət investisiya qoyuluşu yolu ilə, bir də daha çox dövlətin idarə, müəssisə və təşkilatlarına dəstək vermək yolu ilə iqtisadiyyatın sürətli inkişaf tempini təmin edə bilməyəcəyik. Ona görə də ölkədə böyük özəlləşdirməyə gedilməlidir. Mən hesab edirəm ki, bunu etsək, biz digər problemləri həll edə biləcəyik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov.

**A.Badamov.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Mən də Vahid müəllimin təbrikinə qoşuluram və hörmətli cənab nazirimiz Sahil Babayevə can sağlığı və uğurlar arzulayıram. Təqdim olunmuş qanun layihələri birbaşa aztəminatlı təbəqənin sosial təminatının yaxşılaşmasına xidmət edir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə sosial siyasət çox uğurla həyata keçirilir. Bu siyasət cəmiyyətin sosial müdafiəyə ehtiyacı olan

təbəqəsinin həyat şəraitinin yaxşılaşmasına yönəlib. Dövlət büdcəsi layihəsində sosial sahəyə 7,9 milyard manata qədər vəsaitin nəzərdə tutulması da buna bariz nümunədir. 2019-cu ildə yaşayış minimumunun və ehtiyac meyarının yüksəlməsi də, ümumilikdə, ölkənin orta yaşam səviyyəsinin yaxşılaşmasında özünü göstərəcəkdir.

Təqdim olunmuş qanun layihəsinə müsbət münasibətimi bildirməklə yanaşı, bizə çoxlu müraciətlər olunan bir məsələyə hörmətli əmək və əhalinin sosial müdafiəsi nazirimizin aydınlıq gətirməsini xahiş edirəm. Müharibə veteranlarına verilən müavinətlərlə bağlı məsələlərə həmkarım, hörmətli Siyavuş Novruzov çox gözəl toxundu və mən də konkret olaraq döyüşdə iştirak etmiş polis veteranlarını narahat edən və aydınlıq gətirilməsi xahiş edilən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Qarabağ döyüşlərində iştirak etmiş, Azərbaycan Respublikasının müharibə veteranı statusu verilmiş polis əməkdaşlarının əmək haqlarına işlədikləri dövrdə 51 manat veteran müavinəti əlavə olunur. Amma polis işçisi təqaüdə çıxandan sonra verilən veteran müavinəti dayandırılır. Hörmətli Sahil müəllim, bu nə qədər düzgündür? Yəni müharibə iştirakçısı olmuş, veteran statusu verilmiş polis əməkdaşının təqaüdə çıxandan sonra müharibə veteranlığına xitammı verilir? Əgər xitam verilmirsə, veteran müavinətinin ödənilməsi niyə dayandırılır? Bu sual müharibə iştirakçısı olmuş veteran polis əməkdaşlarını çox düşündürür. Düşünürəm ki, əgər müharibə veteranlığına xitam verilmirsə, bütün müharibə veteranlarına, o cümlədən polisdən təqaüdə çıxmış müharibə veteranlarına müavinətin ödənilməsi davam etdirilməlidir. Çünki vətəndaş təqaüdə çıxandan sonra sosial müdafiəsinə daha çox ehtiyac yaranır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Ölkə Prezidentinin ən çox diqqət verdiyi sahələrdən biri Azərbaycan xalqının yüksək həyat səviyyəsini təmin etmək, aztəminatlı ailələrin sosial problemlərinin həllinə yönəlmiş olan siyasətdir. Hər il biz cənab Prezidentin əmək haqlarının artırılması ilə bağlı, pensiyaların artırılması ilə bağlı imzalamış olduğu sənədlərin şahidiyik. Bu, əlbəttə, hər bir Azərbaycan vətəndaşının ildən-ilə həyat səviyyəsinin yüksəlməsinə xidmət edən, ardıcıl xarakter daşıyan dönməz xətdir. Təqdim edilmiş büdcə zərfində də yenə bu ənənəyə söykənərək 2019-cu ildə əhalinin sosial problemlərinin həlli, bütövlükdə büdcənin sosial xarakterli mahiyyəti bir daha təsbit olunmuşdur.

Bütün bunlarla bərabər, hörmətli cənab Sədr, düşündüyüm və məni narahat edən bir-iki məsələnin üzərində dayanmaq istərdim. Hörmətli həmkarımız Hadi müəllim özünün təqdimatında Azərbaycanda artım səviyyəsinin getdikcə aşağı düşdüyünü diqqətimizə çatdırdı. Burada kifayət qədər həyəcanlı göründü. Bu həyəcan da təsadüfi deyil. Azərbaycanda uşaq artımında kifayət qədər ciddi problemlər var və bu çox sürətlə aşağıya doğru getməkdədir. İndi biz gözləməliyik ki, Azərbaycanda əhalinin artım səviyyəsi gəlib düşsün sıfırdan aşağı, başqa ölkələrdə olduğu kimi, biz başlayaq necə edək, nə təhər edək, nə qədər vəsait sərf edək ki, uşaqların sayını artıraq. Olmazmı ki, indidən profilaktik olaraq elə addımlar ataq ki, buna ehtiyac olmasın. Bildiyimiz qədər Azərbaycanda çoxuşaqlı ailələr, bir qayda olaraq, aşağı və orta təminatlı ailələrdir. Böyük imkanlara malik olan ailələrin ikidən artıq uşağı yoxdur. İndi bizim dediyimiz nədir? Bizim dediyimiz odur ki, aztəminatlı ailələrə uşaq pulu artırılsın.

İlk doğulan uşağa 150-200 manat verilsin ki, heç olmasa, bunun geyimi təmin olunsun, bunun ilkin müddətdə yeməyi təmin olunsun. Bu uşaqların ən azı 12 yaşına qədər minimum ehtiyacları düzəlsin. Onsuz da ölkə aztəminatlı ailələrə müxtəlif layihələr adı altında yardımlar edir. Olmazmı ki, elə birbaşa bunu göndərək uşaq istiqamətinə, adını da qoyaq uşaq pulu və sair və ilaxır. Mən çox xahiş edirəm, bu məsələyə xüsusi diqqət yetirilməlidir və Sahil Babayevdən də xahiş edirəm ki, ikinci oxunuşda bu suala arqumentli cavab əvəzinə, bizi sevindirən cavab versin.

İkinci, Azərbaycanın ərazi bütövlüyü uğrunda 24 min insan şəhid olub. Mən də o döyüşlərdə iştirak eləyənlərdən biriyəm. Evini satan, inəyini satan, maşınını satan gedib ov tüfəngi alıb, gedib avtomat alıb, ən müxtəlif yollarla silah alıb ermənilərə qarşı döyüşlərdə iştirak edib və şəhid olub. Bunlar niyə yaddan çıxmalıdır, niyə polis işçiləri yaddan çıxmalıdır? Mən hesablamışam, Azərbaycanın ərazi bütövlüyü uğrunda 24 min vətəndaşımız, qəhrəman övladlarımız şəhid olub. Şəhidliyə görə əgər bunların hər birinə 11 min manat verilsə, hörmətli cənab Sədr, bu birdəfəlik eləyir 264 milyon manat. Dövlətin büdcəsində, ola bilsin ki, problemlər var, məhdudiyyətlər var. Bunu eləmək imkanı yoxdur. Mən mənbəyi deyirəm. Cahangir Hacıyevin Londonda mülkləri satılsın, vəsait gəlsin dövlət büdcəsinə, Fazil Məmmədovun, Rüfət Aslanlının mülkləri, obyektləri, maşın kolleksiyaları çıxarılsın hərraca, satılsın, həmin vətən uğrunda döyüşən, şəhid olan ailələrə verilsin. Çünki bu da dövlətin puludur, bu da xalqın puludur. Ona görə hesab edirəm, bu haqda düşünməyə, bu məqsəd uğrunda ciddi addımlar atmağa ehtiyac var. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Fəzail müəl-

limin çıxışındakı son notlar mənim demək istədiklərimin bir qismi oldu. Burada təqaüdlər haqqında, yaxud əlillərə verilən vəsaitlər haqqında danışıldı, daha çox mənbələr haqqında, haradadır o mənbələr. Mən də onun tərəfindəyəm və əvvəlki müzakirələrdə də burada qeyd etmişdim ki, korrupsiya yolu ilə oğurlanmış vəsaitlər geri qaytarılsın və büdcə daxilolmalarında xüsusi qrafa olaraq göstərilsin. Bunlar itmiş və gözlənilməyən vəsait kimi qayıdanda həmin vəsaitləri bu tipli məsələlərə yönəltmək mümkündür. Çünki Siyavuş müəllim də burada qeyd elədi, veteranlara verilən pulun miqdarı, yaxud da əlillər üçün ayrılan pulun miqdarı, etiraf eləməliyik ki, kiçikdir. Doğrudur, hər il artımlar olub, bəlkə ildə bir neçə dəfə, amma kolleqamız, hörmətli Fazil müəllim də burada qeyd elədi, bir məhbus üçün aylıq nə qədər vəsait xərclənir, amma təqaüdün miqdarı nə qədərdir. Əslində, o məhbus üçün ayrılan vəsait istehlak səbəti deməkdir. Onu idmana hazırlamırlar ki, hazırlayıb xüsusi qida maddələrini alıb göndərsinlər. Ölməmək üçün, əslində, verilən qidadır. Yəni o əgər istehlak səbətidirsə, biz ona müqabil olaraq da başqa pensiyaları, təqaüdləri, əlillərə verilən vəsaitlərin, heç olmasa, o miqdarda ölçüsünü təmin etməliyik.

Yeri gəlmişkən, oğurlanmış vəsaitlərdən danışırıq, keçən dəfə də o məsələni qaldırmışdıq, büdcə müzakirələrində hökumət bu məsələyə toxunmadı, üstündən keçdi, amma böyük, fantastik rəqəmlərdən söhbət gedir. İstər avantürist layihələrə ayrılan kreditlər olsun, istərsə də nağd şəkildə oğurlamalar olsun, bunlar hamısı qida məhsulu kimi yeyilməyib ki, bunlar ya daş-qaş şəklində saxlanılır, ya başqa ölkələrin banklarında saxlanılır, ya da əmlak kimi saxlanılır. Müsadirə olunmalıdır, milliləşdirilməlidir və gətirilməlidir ölkəyə. Yeri gəlmişkən, onu da deyim ki,

gəlir bəyannaməsi məsələsinə də baxılmalıdır. Hər şeyə görə Milli Məclisin üzərinə gəlirlər, Milli Məclisdən tələb edirlər. Amma Milli Məclis əlindən gələn hər şeyi eləyib, əslində. 2005-ci ildə Milli Məclis “Gəlirlərin bəyan edilməsi haqqında” Qanun qəbul eləyib, Nazirlər Kabinetinə göndərilib, Prezidentin sərəncamı da var idi. İndiyə qədər Nazirlər Kabineti bu deklarasiya haqqında qanuna uyğun olaraq forma hazırlamayıbdır ki, məmurlar işə təyin olunanda bu deklarasiyanı təqdim eləsin. Günün birində, London hadisəsi kimi, adam çıxıb deyir ki, bu vəsait mənimdir. Bir gündə 12 milyon vəsait xərcləyib, deyir ki, şəxsi vəsaitimdir. Haradan o sənin şəxsi vəsaitin ola bilər? Ona görə bu deklarasiya ilə bağlı olaraq Nazirlər Kabineti müvafiq addımları atmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin çıxışında xeyli ciddi məqamlar oldu. Həmin məqamlarla əlaqədar bir neçə fikri inkişaf elətdirmək istəyirəm. Birinci, nazirliyin əlillərlə bağlı islahat xarakterli addımlarını dəstəkləyirəm və arzu edirəm ki, həmin islahat xarakterli addımlar bilavasitə əlillərin bütün kateqoriyalarına aid olan müavinətlərin artırılması istiqamətində addımlarla müşayiət olunsun. İkinci, qeyd eləmək istərdim ki, əhaliyə xidmətin səmərəli üsullarından istifadə edilməsi istiqamətində islahat xarakterli addımların içərisində “DOST” mərkəzləri mühüm əhəmiyyət kəsb edir. Düzdür, beynəlxalq praktikadan çıxış eləsək, bunu Azərbaycanda tətbiq eləmək həddən artıq çətin olacaq. Amma əsas məsələ maliyyə məsələsidir. Maliyyə məsələsi də artıq həll olundu. Hesab edirəm, bu iş kifayət qədər uğurla icra olunsa, bu, həqiqətən də, Azərbaycan üçün, həm də xaricdə imicinə

müsbət xidmət göstərən “ASAN xidmət” modelinə bənzər yeni modelin formalaşmasına gətirib çıxaracaq ki, bu da sosial müdafiənin çox innovativ üsulu olacaq.

İkinci məqamı qeyd eləmək istərdim. Pensiya sistemi burada müzakirə olunan zaman mən həmişə həmin sistemi tənqid eləmişəm və bugünkü situasiya da sübut edir ki, haqlı idim. Ona görə yeni nazirin qarşısında duran ən birinci məsələlərdən biri Azərbaycanın pensiya sistemini həmin dalandan çıxartmaqdır. Azərbaycanın pensiya sistemi insanlara pensiya vermək yox, pensiya yaşına çatan adamları müxtəlif jonqlyorluq üsullarla pensiyadan uzaqlaşdırmaqdır. Bunun da ən bariz nümunəsi, gərək 16 min manata qədər yığım əldə edəsən ki, sənə 110 manat pensiya verilsin. Bunun nə qədər absurd olduğunu mən qısaca qeyd etmək istərdim. Belə ki, 16 min manat pulu yığmaq həkim üçün, müəllimlərin bir kateqoriyası üçün həddən artıq çətin olacaq. Belə bir şəraitdə uzun müddət işləyən həkimlər və müəllimlər 110-150 manata qədər pensiya alacaqlar. Bu, heç bir məntiqə sığan şey deyil. Kimsə əgər qısa müddətə 16 min manatı yığıb verəcəksə, onda ikinci bir absurd əmələ gəlir, həmin 16 min manatı o qurumlara verməkdənsə, onu banka qoyar, ildə 2000 manat, ayda isə 160 manat gəlir əldə edər. Belə absurd sistemləri aradan qaldırmaq üçün islahat xarakterli addımların atılmasını vacib hesab edirəm.

Özünüməşğulluq istiqamətində atılan addımları müsbət qiymətləndirirəm və bu istiqamətdə də iki məqamı qeyd etmək istəyirəm. Birinci, işsiz kimdir? Statistika komitəsinin çıxardığı 35 min adam, yoxsa Beynəlxalq Əmək Təşkilatının metodikası ilə hesablananda bundan yeddi dəfə çox, 250 min adam. Bax, buna aydınlıq gətirmək lazımdır. Sonra, həmin müavinətlər kimə veriləcək məsələ-

sinə aydınlıq gətirilməlidir. Ona görə ki, o müavinətlərdə ciddi kriteriyalar olmasa, Sosial Müdafiə Fondunun yerli qurumlarının rəhbərləri onları müxtəlif üsullarla, şəxsi mülahizələrinə görə verəcəklər, bu da hesab edirəm, ciddi problemlərə gətirib çıxaracaq. Bir faktı qeyd edim ki, belə statistikalar nəinki reallığı əks elətdirmir, həm də qeyri-ciddi xarakter daşıyır. Məsələn, Azərbaycanda 35 min işsizi bölüblər ölkənin regionlarına. Məsələn, Daşkəsən rayonunda, sən demə, cəmi 3 nəfər işsiz var. Bəs Daşkəsəndə Metallurgiya kombinatı dayanandan sonra orada işsiz qalan yüzlərlə insan nə oldu? Belə statistika kimə lazımdır və belə statistika əsasında da 3 nəfərə müavinətin verilməsi, hesab edirəm ki, ciddi xarakterli məsələ deyil. Ona görə də işsizlik ciddi məsələdir. İşsizlik ailəyə təsir edir, ailəni dağıdır. Kifayət qədər ciddi problemlər yaradır, ona görə də mən fəal sosial müdafiənin tərəfdarıyam. Bu istiqamətdə addımlar atmaqla, xüsusən əlilləri o prosesə cəlb etməklə həmin insanları əlebaxımlılıqdan azad eləyib bilavasitə iş adamına çevirmək olar. Bu isə, əgər yaxşı təşkil olunsa, mən deyərdim ki, kiçik və orta biznesin sürətli inkişafına gətirib çıxaracaq. Əgər nəzərə alsaq ki, devalvasiyadan sonra əhalinin aztəminatlı hissəsi çox pis vəziyyətə düşüb, orta təbəqə də xeyli əriyib, bu vəsaitlər, bu mexanizmlər vasitəsilə orta təbəqənin dairəsinin genişləndirilməsi istiqamətində yeni addımlar atmaq olar. Uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev.

**S.Alıyev**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, dəyərli həmkarlar! Mən konkret olaraq özünüməşğulluq problemi ilə bağlı bir neçə kəlmə öz fikirlərimi bölüşmək istəyirəm. Az öncə burada hörmətli Əli müəllim öz çıxışında qeyd etdi, işsizlər məsələsi, ümumiyyətlə, bu ələba-

xımlı şəxslərlə bağlı gələcəkdə bu proqram ki reallaşdırılır, bu proqram onların artıq hansının, həqiqətən, özündən asılı olmayaraq işsizliklə üzləşdiyi, hansınınsa parazitlik etdiyini meydana çıxaracaq. Bu parazitlik edənlərlə bağlı çox ölkələrin təcrübəsi var, sərt qanunlar tətbiq edirlər, hətta postsovet məkanında da bu cür təcrübə var. Üç il bundan əvvəl Belarusda prezident sərəncamı ilə tədbirlər həyata keçirildi. 500 min adam, o adamlar ki yarım il müddətində büdcəyə heç bir vergi ödəmirdilər, onlar məcburi şəkildə ya işə cəlb olundular, ya da onlardan müəyyən məbləğdə vergi tutulmağa başlandı. Artıq 3 ilin statistikasına nəzər yetirəndə baxdılar ki, həmin adamların sayı, demək olar ki, üçdə iki dəfə azalıb. Yəni bu ondan xəbər verir ki, həmin adamlar başqa yerlərdə çalışırlar, sadəcə, adları işsiz kimi gedir və ya ümumiyyətlə, işləmək istəmirlər.

Ona görə mən bu proqramı son dərəcə önəmli proqram hesab edirəm və cənab Prezidentin 2016-cı il sərəncamından sonra bu addımın atılması, doğrudan da, Azərbaycan mentalitetinə xüsusilə uyğun gəlməyən bu ələbaxımlılıq psixologiyasından nə qədər insanın xilas olmasına şərait yaradır. Onu da deməliyik ki, burada, sadəcə, söhbət dövlətin üzləşdiyi zərərdən getmir. Söhbət həm də həmin ailələrdə yetişən nəsildən gedir. Bu, istər-istəməz onların psixologiyasına müsbət təsir etmir. Ona görə, təbii ki, mən bu addımı alqışlayıram. O da alqışlanası haldır ki, bu ilə nisbətən gələn il 17 faiz daha çox ayırmalar nəzərdə tutulur. Amma burada az öncə hörmətli Sahil müəllim də çıxışında vurğuladı, müxtəlif təbəqələrdən olan həssas insanlara daha həssas yanaşma ortaya çıxır. Əlbəttə, bu, çox gözəl bir addımdır, xüsusilə bizim köçkün bacı və qardaşlarımızın bu məsələdə ön cərgədə olmaları, onlara daha

artıq diqqət ayrılması çox əhəmiyyətlidir. Eyni zamanda, mən istərdim ki, regionlar üzrə də bu cür diferensial yanaşma olsun. Elə rayonlar var ki, məsələn, mən təmsil etdiyim Tərtər də cəbhə bölgəsi olması səbəbindən orada yeni iş yerlərinin açılması ilə bağlı daha çox problemlər var. Ona görə də mənə elə gəlir ki, məhz bu cür rayonlardan daha çox insanların bu proqrama cəlb edilməsinə ehtiyac var. Bu cür cəbhəyanı yerlərə daha çox diqqət yetirilməlidir. Bir də, məndə olan məlumata görə artıq o insanların içərisindən kimlərsə hansısa özünüməşğulluq prosesinə cəlb ediliblər. Artıq sahibkarlar da meydana çıxıb. Elələri var ki, artıq özləri üçün bir neçə adamı işlətməyə başlayıblar. Bunların statistikası aparılırmı? Bu çox maraqlıdır, bu cür faktlar həm də reklam olunmalıdır və eyni zamanda, hansı bölgələrdə varsa, o bölgələrin millət vəkilləri də onlar haqqında məlumatlandırılmalıdır ki, bu, bütövlükdə, prosesə gələcəkdə daha müsbət təsir edə bilər.

Sonda bir məsələ də. Şəhidlərlə bağlı həmkarlarımın fikirləri səsləndirildi. Məndə olan məlumata görə, bütövlükdə bu cür müavinət almalı olan şəhid ailələrinin sayı 1500-ü keçməməlidir. Mənə elə gəlir ki, bu problemin, doğrudan da, həllinin vaxtı çatıbdır. Bu yöndə ümid edirik ki, 2019-cu ildə son addımlar atılacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Elman Məmmədov.

**E.Məmmədov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Burada səsləndirilən fikirlərlə, əsasən, mən də razıyam və hörmətli nazirimiz Sahil Babayevin fəaliyyəti ilə bağlı deyilən xoşməramlı fikirləri mən də alqışlayıram və təqdirəlayiq hesab edirəm. Onun apardığı kadr islahatları, eyni zamanda, iş sahəsində gördüyü müəyyən dəyişikliklər, yeni layihələr, yeni proqramlar alqışlanasıdır. Ancaq bir neçə xırda-para məsələlər var,

istəyirəm, onların üzərində dayanım. İlk növbədə bir az qəribə səslənsə də, bunu deyəcəyəm. Biz burada müzakirə edirik və yığışmışıq dediklərimizi çox hörmətli hökumət üzvləri eşitsinlər, ancaq hökumət üzvləri küllü-külfətli yığışıb gediblər. Bir-iki nəfər var burada. Elə özümüz dediyimizi özümüz eşidirik də.

Mən Qarabağ müharibəsi veteranları ilə bağlı hörmətli Siyavuş müəllimin qaldırdığı məsələyə toxunmaq istəyirəm. Əvvəla, 56 manat elə bir böyük məbləğ deyil. Çox kiçik məbləğdir. İkincisi, 56 manat müavinət həmin şəxsə onun müharibə veteranı olduğuna görə verilir. Sonradan bu, təqaüd alır, pensiyaçı olur, filan olur, bunun işə heç bir dəxli yoxdur. Bu, müharibə veteranı olduğu üçün ona imtiyaz kimi, güzəşt kimi verilir. Bunu kəsmək, mən hesab edirəm ki, düzgün deyil. Sonra çox ağrılı məsələ, hörmətli deputat həmkarlarım, şəhid ailələrinə verilən birdəfəlik ödənişlə bağlıdır.

Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hörmətli cənab Sədr! 1991-ci ildə Azərbaycanda Müdafiə Nazirliyi yaradıldı. 91-ci ilin payızında icra başçılarına tapşırıq verildi ki, yerlərdə özünümüdafiə batalyonları yaradın. O batalyonları Xocalıda yaradan mən olmuşam. Mənim hərbi komissarlığım olmayıbdır. Bizim noyabrın 1-dən, demək olar ki, Bakı ilə əlaqəmiz kəsilibdir, çətin gedib-gəlmişik, sonra da heç gedib-gələ bilməmişik, mühasirədə yaşamışıq. Yaradılan o batalyonun ilk üzvlərini Müdafiə Nazirliyində qeydiyyatdan keçirə bilmişik. Ancaq sonradan, biz tam blokada şəraitində qalandan sonra o döyüşçülərin əksəriyyətini Müdafiə Nazirliyində qeydiyyatdan keçirə bilməmişik və Xocalıda ermənilər tərəfindən soyqırımı törədilibdir. Cənab Prezidentimizin fərmanında göstərilir ki, müharibə zonasında, müharibə şəraitində həlak olanlar.

Ancaq orada “hərbçilər” sözü də gedir. Yaxşı, indi bu adam hərbçi olmayıbdır. Ancaq bu, əlində silah döyüşdə şəhid olubdur. Heç əlində silah da olmayıb, qadın olub, uşaq olub, ancaq bu, soyqırımına məruz qalıb, müharibə gedən ərazidə düşmən tərəfindən öldürülüb. Ona görə hesab edirəm ki, bu ödəmə o adamların hamısına şamil olunmalıdır və dövlətimizin buna maddi imkanları da var.

Digər bir məsələ ilə bağlı burada fikirlər səsləndirildi. Uşaq pulu ilə bağlı, pensiyalarla bağlı məsələlər səsləndirildi. Pensiyada ilbəil az miqdarda artım olur. Ancaq bu gün verilən pensiya bazarla ayaqlaşırmı? Bugünkü bahalaşma ilə ayaqlaşırmı? Bu gün heç bir yerdə artıq bu şəxs işləmir, heç yerdən gəliri yoxdur, 150-200 manat pensiya alır. Bugünkü qiymətlərlə, yaşlı adamdır, o, öz dava-dərmanının pulunu ödəyə bilirmi? Kommunal xərclərin pulunu ödəyə bilirmi? Özünə normal bazarlıq eləyə bilirmi? Bu, cəmiyyətdə yaşayır, toya gedir, nə bilim, yasa gedir, müəyyən problemlər olur, həll edə bilirmi? Xeyr. Bax, buna görə, mən hesab edirəm ki, pensiyaların məbləğinə də baxılmalıdır. Büdcəmiz sosialyönümlüdür, büdcəmizin 33 faizdən çoxu bu istiqamətə yönəlibdir. Dövlətimizin də, Allaha şükür, indi imkanları böyükdür. Bax, bu aztəminatlı təbəqənin problemləri ilə bağlı islahatların aparılmasını məqsədəuyğun hesab edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman müəllim, Siz hökumət üzvləri ilə bağlı dediniz. Hökumət üzvləri 2 gündür, iclasda iştirak edirlər. İndi hökumətin o biri nümayəndələrinin məsələsi olmadığı üçün mən də icazə verdim, getdilər. Aidiyyəti təşkilatlar hamısı buradadır. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri! Layihəni, təbii ki, mən də dəstəkləyirəm. Özəlliklə, son dönəmdə Əmək və Əhalinin Sosial

Müdafiəsi Nazirliyində Sahil müəllimin rəhbərliyi ilə, ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanımın diqqəti ilə həyata keçirilən önəmli islahatları, layihələri – hamısını dəstəkləyirik, alqışlayırıq. İnanırıq ki, "DOST" mərkəzi sistemi çox önəmli bir dönüş nöqtəsi olacaq. Ona görə bu istiqamətdə görülən bütün önəmli işləri dəstəkləməklə yanaşı, bir neçə məsələni də diqqətə çatdırmaq istəyirəm.

Özəlliklə, həssas təbəqə olan əlillərlə bağlı bəzi məsələləri. Burada vurğulandı, I qrup əlillərlə bağlı məsələ ortadadır. I qrup əlillərimizə verilən müavinətlər azdır. I qrup əlillərin ən ağır kateqoriya əlil olduğunu nəzərə alsaq, bu məsələyə baxılması, müavinətin artırılması çox önəmlidir. Nəzərə alsaq ki, bu qrup əlillərin çoxu yataq xəstələridir və demək olar ki, iş imkanları yoxdur, amma II və III qrup əlillərimizin bir çoxunun iş imkanları var. Bu həssas təbəqə ilə bağlı isə ortaya digər problem çıxır. Bu insanların çoxu iş tapa bilmir. Nədən? Çünki qanunvericilikdə müəyyən olunmuş kvotaları, demək olar ki, dövlət və özəl qurumların, özəlliklə də, özəl qurumların əksəriyyəti yerinə yetirmir. Yəni əlillər üçün kvotalar müəyyənləşib. Əgər o kvotalar həyata keçərsə, ən azı həssas təbəqə olan bu əlillərin böyük bir hissəsi işlə təmin edilər. Onların ailələrinin narahatlığı cəmiyyətdə daha böyük narahatlıq yaradır. Ona görə biz Sahil müəllimdən, əmək və əhalinin sosial müdafiəsi nazirimizdən xahiş edirik ki, özəlliklə, bu qanunvericilik həyata keçirilsin, müvafiq qurumlar bu kvotalara əməl eləsin. Əlillərin işə qəbulu ilə bağlı bu sistemdə islahatların gücləndirilməsinə, sürətləndirilməsinə ciddi ehtiyac var.

Digər məsələ, burada pensiyalar məsələsi xüsusi diqqətdə oldu, xüsusi vurğulandı. Amma bizim özəl sektorda xeyli sayda insanlarımız var ki, bunlar hələ də əmək mü-

qavilələri olmadan işləyirlər. Bu insanların pozulan hüquqlarının müdafiəsi məsələnin başqa bir tərəfidir, amma bunlar yaxın gələcəkdə həm özləri, həm də cəmiyyətimiz, dövlətimiz üçün çox ciddi problem olacaq. Ümumiyyətlə, əmək müqaviləsi olmadan çalışmağın mümkünsüzlüyünə ciddi nəzarət olunmalıdır. Bütün işçilərlə əmək müqaviləsi bağlanmalıdır, çünki hər kəs bundan sonra topladığı vəsaitə görə pensiya alacaqsa, əmək müqaviləsi olmayan, əslində, işləyib, amma sistemdə işsiz kimi görünən insanların gələcəyi necə olacaq? Ona görə əmək müqavilələrinə riayət edilməsi məsələsinin bu islahatların bir parçası olmasına çox ciddi ehtiyac var.

Ali təhsil alan əlil gənclərin ödənişdən azad edilməsi məsələsi. Biz xahiş edərdik, Təhsil Nazirliyimiz bir müzakirə aparardı. Bu gənclərin ümumi sayı bəlkə heç 200 nəfər deyil. Görmə qabiliyyətləri məhduddur, başqalarından daha çox əziyyət çəkib ali məktəbə daxil olublar. Amma təhsil ödənişli olduğuna görə oxuya bilməyən nə qədər belə gənclərimiz var. Bunlar cəmiyyətdə ağrı ilə, həssas qəbul olunurlar. Ona görə bu gənclərin dövlət ali məktəblərində ödənişdən azad edilməsi, əslində, fiziki imkanları məhdud olan bütün gənclərimizə, onların ailələrinə, cəmiyyətə verilən çox önəmli bir mesaj olardı. Bu məsələyə diqqət yetirilməlidir.

Digər məsələni həmkarlarım vurğuladı, mən də ön cəbhə, çoxlu sayda müharibə veteranı olan rayonların birini təmsil edirəm. İnsanlarımız xahiş edirlər və vurğulayırlar ki, söhbət, sadəcə, 56 manatda deyil, məsələnin bir mənəvi tərəfi də var. Biz Qarabağ müharibəsi veteranıyıqsa, biz buna görə təqaüd alırıqsa, təqaüdə çıxanda niyə veteran statusumuzun bizə verdiyi imkanları itirməliyik? Nəzərə alsaq ki, bunlar başqalarından fərqli olaraq müharibə zo-

nasında ağır travmalar alıblar, streslər yaşayıblar, yəni yaş artdıqca onların sağlamlıqlarında daha ciddi problemlər üzə çıxır. Bu 56 manata da, əslində, onların çox ehtiyacı var. Xahiş edərdik ki, bu məsələyə baxılsın ki, o vəsait azalmasın. Polis işçiləri olan müharibə veteranlarının aldıqları vəsaitin kəsilməsi də doğru deyil. O davam etsin, digər qruplarda isə azalmasın, elə 56 manatı pensiya ilə birlikdə alsınlar. Təşəkkür edirik. Sənədi dəstəkləyəcəyik.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Mən birinci növbədə gördüm ki, bizim millət vəkilləri çox haqlı olaraq şəxsiyyət amilinin üzərində durdular. Bu başa düşüləndir. Son 10 ildə ölkə rəhbəri hökumətdə apardığı dəyişikliklər zamanı sosial sahə ilə bağlı aldığı siqnallara daha həssas reaksiya verib. Bu da başa düşüləndir. Çünki görülən bütün tədbirlər ən sonda vətəndaşların maddi yaşayış tərzində, həyatında, sosial durumunda öz əksini tapmalıdır. Biz razılaşaq ki, ötən on illər ərzində Azərbaycanın varına, dövlətinə, imkanlarına rəğmən, bir sıra hallarda o siyasətin sərt həyata keçirilməsinə müvafiq qurum tərəfindən problemlər yaradılırdı. Nəhayət, bu yöndə aparılan islahatlar müəyyən bir səviyyəyə gəlməyə əsas veribdir. Prezident seçkilərindən sonra da bu yöndə dəyişikliklər aparılıb. Sahil Babayev ora parlament məkanından keçib, irəli çəkilibdir. O buradakı atmosferi bilir, əsas tendensiyaları bilir, insanların nə düşündüyünü bilir. İrəliyə sürülən təşəbbüslər, addımlar da gerçəkdən də təqdir olunandır. Burada hörmətli Fazil bəy qeyd etdi ki, müşavirlərin müsabiqə ilə seçilməsi ilə bağlı elan veribdir. Çox ümidvaram ki, o müşavir yerlərindən birini də Qarabağ əlili olan şəxslərdən biri tutacaqdır. Bu, öz-özlüyündə həmin insanlara münasibətə də təsir göstərəcəkdir.

İki sualla başlamaq istəyirəm. Çox qısa, sonra 2 qeydim də var. Birincisi, Azərbaycanda nə qədər insan pensiya yaşına çatmadan dünyanı tərk edir. Bu, çox önəmli bir məsələdir. Mən, əlbəttə, onu nəzərdə tutmuram ki, onların ödənişləri sonrakı dönəmdə itir. Valideyninin itirilməsi səbəbindən övladlara ödənişlər var və sair. Amma bu rəqəmi internet resurslarında da tapmaq gerçəkdən mümkün deyil.

İkinci, bizdə işləyənlərin pensiyaçılarımıza nisbətdə sayını əks etdirən rəqəm də xeyli yayğındır. Buna rəsmi münasibət yoxdur. Mən əmək qabiliyyətli əhalimizi nəzərdə tutmuram. İqtisadi potensialı fəal insanlarımızı nəzərdə tutmuram. Gerçək, real, sosial ödənişlər həyata keçirən insanlarımızın pensiyaçılara nisbətini nəzərdə tuturam. Bu çox önəmli məsələdir.

Biz aparılan müzakirələr ərzində kölgə iqtisadiyyatı, gizli iqtisadiyyat, uçotdan yayınan iqtisadiyyatın, nəhayət, rəsmiləşdirilməsi yönündə aparılacaq vergi islahatlarından danışırdıq. Bu, əlbəttə ki, çox önəmlidir. Bunun üzərində dayanmaq olar. Amma vətəndaş nə üçün o rəsmiləşmədən kənarda qalır, niyə qeyri-leqal iqtisadiyyat yaranıbdır? Bunun, mənim aləmimdə 3 səbəbi var. Bir, əmək bazarında tələb və təklif arasında vətəndaşın fiziki durumuna və yaxud beyninə, əqlinə, potensialına uyğun olmayacaq dərəcədə tarazsızlıq, qeyri-mütənasiblik var. Bəli, iş təklifləri azdır, işə ehtiyacı olan insanlar isə çoxdur. Ona görə də istənilən bir işdən yapışmağa hazırdır ki, evini, ailəsini saxlasın. İkinci, pensiya sistemi qeyri-sabitdir. Bu dövr ərzində biz 3 dəfə onu dəyişmişik. Bir-birinə də onu sona qədər uğurla calaq edə bilməmişik. Bu itkilər də insanlara təsir edir ki, mən 30 il bundan sonranı düşünməkdənsə, indiki mübarizəni düşünüm. Üçüncüsü, öz hüquqlarının müdafiəsi məsələsidir. Məhkəmə sisteminin qərarları

effektiv olmalıydı ki, o, sonrakı dövrdə əmək hüquqlarını təmin edə bilsin.

İndi burada başqa bir önəmli məsələ var. Biz qeyd edirik ki, fəlsəfəni sosial sığorta ödənişlərinin üzərində qurmuşuq, pensiya sistemi buna dayanaraq aparılacaqdır. Burada haqlı olaraq söylənildi ki, əksər ölkələrdə özəl pensiya sistemləri var, alternativ mövcuddur. Vətəndaş 30 il pul ödəyir, bu, kiçik bir rəqəm kimi görünə bilər, amma milyon insandan bu, 100 milyonlarla manat vəsait 30 il ərzində həmin qurumların sərəncamında olub. Bunların imkanı var ki, çox ağılla həmin vəsaitlərin üzərinə yeni-yeni faizlər qazandıralar, bunu müxtəlif sahələrə qoyalar. Bu, ayrı bir söhbətin mövzusudur. Amma mən nə demək istəyirəm? Sığorta ödənişlərinin dəyişən nisbəti, doğrudanmı, effekt verəcək? Mən istəyirəm, hörmətli Sahil müəllim buna diqqət etsin. İşçinin aldığı əmək haqqı 200 manatdan çox olarsa, təklif edirik 6 manat, üstəgəl 200-dən çox olan hissəyə görə 10 faiz. Məsələn, belə götürək ki, 500 manat onun maaşıdır. 6 manat üstəgəl 300 manatın da 10 faizi, 30 manat. Bu etdi 36 manat. İşəgötürən tərəf üçün 44 üstəgəl 15 faiz də sığorta ödənişi. Bu da etdi 45 manat. Cəmi 89 manat. İşçi indi ödəyir 21 manat, ödəyəcək 36 manat, yəni fərq 21 manatdır, daha doğrusu, indi 15 ödəyir. İşəgötürən tərəf isə 110 əvəzinə 89 ödəyəcək...

**Sədrlik edən.** Sağ olun. Valeh Ələsgərov.

**V.Ələsgərov.** Təşəkkür edirəm, cənab Sədr. Çox dəyərli deputat həmkarlarımız dəyərli fikirlər söylədilər, dəyərli təkliflər verdilər. O cümlədən, baxmayaraq ki, sosial məsələlər müzakirə edilirdi, büdcənin mədaxil mənbələrinin genişləndirilməsinə və bu rəqəmlərin artırılmasına aid təkliflərə mən daha çox dəyər verirəm və dəstəkləyirəm. Ancaq bununla yanaşı, təkliflər oldu ki, pensiyaları artıraq,

uşaq pulunu artıraq və sair. Çox gözəl təkliflərdir. Mən də bunu istəyirəm.

Ancaq bizim borcumuzdur, bir adam desin ki, neçə milyard pul lazımdır, neçə milyon pul lazımdır, 100 milyon pul lazımdır və bunun mənbəyi haradandır. Bu bizim işimizdir. Misal üçün, deyəndə ki, islahatlar aparmaq lazımdır. Bu bir mənbədir. İslahatlar apararaq, işimizi daha səmərəli quraraq, mənfəəti artıraraq, büdcəyə mədaxil olan vəsaitləri artıraraq sosial problemləri daha əlverişli, daha da ədalətli şəkildə həll edə bilərik. Ancaq deyəndə ki, bunu artır, onu artır, mənbəyi haradandır? Bu bizim işimizdir, kiminsə işi deyil ki, bizim işimizdir. Mənbəyini deməliyik, miqdarını deməliyik. Bu dəqiqə mən sizə desəm ki, bəzi təklifləriniz milyardlarla ölçülür, mənbəyini gəlin deyək. Mən bilmirəm. Addım-addım bu hərəkəti etmək lazımdır, burada bəzi təkliflər səsləndi. Ancaq bu dəqiqə belə çıxır ki, biz deputatlar milləti sevirik, orada oturanlar bunun əleyhinədir. Onlar da bu millətdəndirlər. Biriniz hesablayıb deyin ki, uşaq pulunu artırmaq üçün neçə yüz milyon pul lazımdır, yaxud neçə milyard pul lazımdır və bunun mənbəyini gəlin deyək. Gəlin, bu nöqteyi-nəzərdən çıxış edək. Mənbəyini bilirsinizsə, bizimlə də bölüşün, biz də hökumətlə bölüşək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev.

**Yerdən.** *(Eşidilmir.)*

**V.Ələsgərov.** Hüquqi yolunu deyin, oradan, xarici ölkədən necə müsadirə edib bura gətirəsiniz. Yazın, verin hökumətə, qoy eləsinlər və tələb edin.

**Sədrlik edən.** Fəzail müəllim, sən dedin, biz səni eşitdik. Eşitməyi bacarın da. Elşən Musayev.

**E.Musayev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli həmkarlar, hörmətli burada olan hökumət üzvləri, eyni za-

manda, media mənsubları! Burada məlum məsələlərlə bağlı müxtəlif müzakirələr aparıldı. Söhbət, təbii ki, əsasən, sosial təminatdan və müdafiədən gedir. Əlalxüsus da, məsələlər şəxsiyyət üzərinə kökləndi. Buna da qatılıram. Hörmətli Sahil Babayev haqqında deyilən fikirləri tamamilə dəstəkləyirəm. Çünki Sahil Babayev, həqiqətən, Azərbaycanın ən uğurlu və ən ləyaqətli kadrlarından biridir. Üstəlik, onun həm də Milli Məclisin yetirməsi olması, çox dəyərli bir insan, Azərbaycan parlamentinin vitse-spikeri Valeh müəllim kimi böyük bir şəxsiyyətin yanında çalışması, bizlərin dostu olması, əzizi olması bizi ikiqat xoşhal edir ki, Sahil Babayevlə biz daha çox fəxr edək.

Əgər xatırlayırsınızsa, burada məhz müvafiq sahə ilə bağlı qanunvericilik layihələri təqdim olunanda müxtəlif fikirlər səslənirdi, nöqsanlar bildirilirdi, iradlar bildirilirdi. Əgər səhv etmirəmsə, əlillərin məşğulluğu ilə bağlı qanun layihəsi idi. Orada da çox sərt fikirlər bildirilmişdi. Hətta o vaxt bizi qınayanlar da olmuşdu ki, niyə bu qədər sərt formada fikirlər bildirirsiniz. Amma bu gün yeni fəaliyyət, yeni islahatlar təsdiq edir ki, biz öz fikirlərimizdə yanılmamışıq. Bu gün müvafiq nazirlikdə artıq pensiya yaşı çatanlarla bağlı kimsə illüziyalar kontekstindən çıxış etmir, kimsə nağıllar söyləmir, kimsə əsatirlər danışmır. Bu gün  I qrup, iki ayağı da şikəst olan adamdan kimsə az qala hər il, hər ay rentgen kağızı istəmir. Bu gün zaman-zaman həmin nazirlikdə öz əsil-nəcabətindən olan az qala bütün insanlara saxta əlillik vəsiqəsi düzəldən şöbə müdirlərinin, həmin şöbə müdirlərinin müavinlərinin, sektor müdirlərinin kökü artıq Sahil Babayevin birbaşa xidməti nəticəsində tamamən kəsilib və nazirlik axır ki, aydın, işıqlı bir yola qədəm qoyub. O baxımdan, bütün həmkarlarımın fikirləri həqiqətə uyğundur. Sadəcə, mən

burada bir məsələyə toxunmaq istəyirəm.

Müxtəlif vaxtlarda öz seçicilərimlə görüşümdə, – söhbət Zaqatala rayonundan gedir, – mənim yanıma gözdən əlil insanlar gəlib. O insanlar ki ali təhsillidir. Burada Qənirə xanım qeyd etdi, kvotalarla bağlı. Mən, açığı, son vaxtlar şübhə edirdim ki, belə bir kvota var, yoxsa yoxdur. Qənirə xanımın çıxışından sonra məlum olur ki, həmin kvotalar, həqiqətən, var imiş. Bu insanları qorumaq lazımdır. Mənim düşüncəm bundan ibarətdir. Tamamilə görməyən, gözdən əlil insan əsil qəhrəmandır ki, o vəziyyəti ilə məktəb oxuyur, ali təhsil alır, barmaqları ilə, hissiyyatları ilə oxuma, dinləmə vərdişlərini qavrayır. O vəziyyətdə gedir işləyir, çalışır, pul qazanır.

Məncə, bizim hamımızdan öncə, ümumiyyətlə, bütün sağlam insanlardan öncə, bütün insanlardan öncə, qorunmağı ən çox vacib olanlar həmin insanlardır. Mən elə bu yaxınlarda həmin insanlardan birindən soruşdum ki, ümumiyyətlə, belə bir presedent varmı? Dedi ki, bəli, Azərbaycanın bir çox rayonlarında, əsasən, mərkəzi rayonlarında, Nizami, Nəsimi rayonlarında, onun öz dilindən səslənənləri deyirəm, belə işçilər var, müvafiq idarələr, nazirliklər tərəfindən onların işə düzəlməsi təmin olunub. Mən çox xahiş edirəm, bu kvotalar varsa, ona aydın bir şəkildə riayət olunsun, hətta artırılsın. Çünki bu çox ciddi bir məsələdir. Ali təhsilli əlillərin işləməsi hər şeydən vacibdir. Diqqətinizə görə minnətdaram. Sahil Babayevə gələcək işlərində sonsuz uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı.

**M.Qasımlı.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Sosial sahə haqqında tənqidi fikirləri söyləmək ilk baxışda çox asandır. Amma sosial sahədə hamının istəklərini təmin etmək, orada inqilabi dəyişiklik etmək çox çətindir.

Bütün qabaqcıl dünya ölkələrinin təcrübəsi göstərir ki, sosial sahədə inqilabi dəyişiklik etmək olmaz. Orada ancaq islahatlar lazımdır. Burada oturan hər bir millət vəkili, hər bir şəxs çox gözəl bilir ki, cənab Prezidentimizin imzaladığı sərəncamların böyük əksəriyyəti sosial- iqtisadi sahəyə aiddir. Biz bunu diqqətdən qaçırmamalıyıq. 91-ci ildən bugünkü günə qədər sosial sahədə bizim keçdiyimiz yolu da unutmamalıyıq. İndi yeni cənab nazirimiz Sahil müəllimə biz uğurlar arzulamalıyıq. Hesab edirəm ki, nazirliklə qanunverici orqanın müvafiq komitəsi səmərəli işləməlidir və biz də, deputatlar da öz köməkliyimizi etməliyik.

Hörmətli Oqtay müəllim, mən burada bir məsələni vurğulamaq istəyirəm. Hər bir ölkənin əhalisinin sayı dövlətin qüdrətini müəyyənləşdirən meyarlardan biridir. Bu gün burada səsləndirilən doğum hallarının azalması, əhalinin sayının azalması ilə bağlı olan rəqəmlər bizi ciddi düşündürməlidir. Demoqrafik proseslərin aşağı getməsi dövlətin qüdrətinə müəyyən, mənfi təsir göstərir. Burada hörmətli komitə sədrimiz və çox görkəmli hüquqşünasımız Ziyafət müəllim əyləşib. Demoqrafik proseslərin aşağı getməsi sabah ordunun cərgələrinin doldurulmasında problem yaradacaq, işçi qüvvəsində problem yaradacaq. Ola bilsin ki, bu, bu gün görünməsin. Bəzi beynəlxalq təşkilatların proqnozları var ki, neçə ildən sonra hansı ölkələrdə əhalinin sayı nə qədər olacaq. Bu, bizi ciddi düşündürməlidir. Başqa bir məsələ, cənab Prezidentimiz çıxışlarının birində söylədi, biz gələcəkdə xarici ölkələrə mütəxəssislər ixrac edəcəyik. Mən hesab edirəm ki, hörmətli Hadi müəllimin azalmalar barədə burada səsləndirdiyi məsələyə hər birimiz, ümumiyyətlə, hökumətimiz diqqət yetirməlidir ki, gələcəkdə bir çox problemlərlə üzləşməyək. Biz bunu necə təşviq etməyin yolunu tapmalıyıq. Qabaqcıl ölkələrdə necədir?

Uşaq pulu məsələsini deyirlər, bu problemin həllindən ötrü çox ciddi addımlar atılmalıdır. Yenə deyirəm, burada ana xətt olmalıdır. Tək sosial məsələ deyil, uşaqların hüquqlarının qorunması deyil, dövlətin qüdrəti məsələsidir. Diqqətinizə görə təşəkkür edirəm. Bu qanun layihəsinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva.

**S.Vəliyeva**. Oqtay müəllim, söz verdiyiniz üçün çox təşəkkür edirəm. Hörmətli hökumət nümayəndələri, hörmətli media nümayəndələri! Bizim büdcəmizə baxarkən, ayırmalara nəzər saldıqda bir daha görürük ki, Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili durub və sosial rifah dövlətinin qurulması istiqamətində çox ciddi addımlar atılmaqdadır. Mən burada hökumət nümayəndələrinin olmağından istifadə edərək iki məsələyə toxunmaq istəyirəm. Bunlardan biri hörmətli həmkarlarımızın toxunduğu əlillik ilə əlaqədar olan məsələdir. Əlilliyin verilməsində çox böyük çətinliklərlə rastlaşırıq. Belə ki, bunu Zahid müəllim də qeyd etdi və digər deputat həmkarlarım da deyə bilər. Biz bir sistemi qəbul edə bilərik, hansı isə bir ölkənin sisteminə keçə bilərik, ancaq onu, heç olmasa, özümüzə uyğunlaşdırmalıyıq. Bu gün insanı görmədən ona  əlillik dərəcəsi verilməsi çox böyük çətinliklər törədir. Ola bilsin ki, eyni diaqnozlu 3 xəstə gələ bilər, biri xərəkdə, biri ayaq üstə, digəri əlil arabasında. Onları görən həkim öncə fikirləşir ki, hansı xəstəyə birinci əlillik təyin olunsun. Bəlkə ikinci xəstə 6 aydan sonra da gələ bilər. Amma birinci xəstəyə bu dəqiqə verilməlidir, vəziyyəti çox ağırdır. Bax, bu nöqteyi-nəzərdən hesab edirəm ki, həkimlərin, o komissiya üzvlərinin xəstəni görməsi vacibdir. Mən çox xahiş edərdim, Sahil müəllim buradadır, Səhiyyə Nazirliyi ilə birlikdə bu işlərə bir daha baxılsın. Öncədən təşəkkür edirəm.

İkinci məsələ, Oqtay müəllim, Sizin böyük dəstəyinizlə, hörmətli akademikimiz Əhliman müəllimin rəhbərliyi ilə biz Milli Məclisdə vərəmli xəstələrlə əlaqədar geniş dinləmə keçirdik. Deyərdim ki, bu bizim üçün çox böyük bir iş idi. Bütün qurumlar, nazirliklər iştirak edirdi. Çünki vərəmlə mübarizə tək səhiyyə nazirinin gücündə olan məsələ deyil. Onunla elliklə mübarizə aparmaq lazımdır. Burada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Müdafiə Nazirliyi və digər nazirliklər hamısı birlikdə iştirak etməlidir ki, biz bu xəstəliklə mübarizə aparıb buna bir çarə qıla bilək. Əgər mümkün olardısa, mənim bir xahişim var. Bizim həbs yerlərində xəstələrin müalicəsi çox gözəl təşkil olunub. Ancaq bu gün biz çox çətin bir hal ilə üz-üzəyik. Dərmana davamlı forma deyilən bir forma yaranıbdır ki, belə xəstələrin müalicəsi çox böyük çətinliklə başa gəlir. Dövlət başçımız bunun üçün çox böyük vəsait ayırıb, dərmanlar da alırıq. Ümumdünya Səhiyyə Təşkilatı, Yaşıl İşıq Komitəsi də bizə kömək edir. Lakin bu həbs yerlərindən bəzən bir ay, iki ay, üç ay, beş ay tez azad olunub çıxan insanlar var. Onların müalicəsinin yarımçıq qalmaması üçün mümkünsə, həmin insanlara çox cüzi miqdarda da olsa vəsait ayrılsın. Bu, böyük bir məbləğ etmir. Mən hətta onu hesablamışam. Valeh müəllim çox gözəl dedi ki, bir şeyi deyəndə əvvəldən düşünmək lazımdır. Çox böyük vəsait etmir, onlar oradan çıxarkən ailələrinə böyük yük olurlar. Onların iş yerləri, işləmək imkanları da olmur, işləyəcək vəziyyətdə də deyil bu insanlar. Heç olmasa, bir neçə ay bunlara sosial yardım göstərilsin. 50 manatmı, 60 manatmı, böyük bir məbləğ də deyil. Biz bunu etsək, onlara, heç olmasa, maddi dəstək göstərib xəstəxanalara, poliklinikalara cəlb edib, müalicəsini başa çatdıra bilərik. Eyni zamanda, bu xəstələr çox ağır vəziyyətdə olduq-

larına görə cəmiyyət üçün çox təhlükəlidirlər. Biz onu etmiş olsaq, cəmiyyətimizə çox böyük xeyrimiz dəyər. Təşəkkür edirəm diqqətinizə görə. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Gündəliyin 2-ci, 3-cü məsələləri ilə əlaqədar 21 nəfər çıxış etdi. İndi xahiş edirəm, Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.07 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 3-cü məsələsi. İşsizlikdən Sığorta Fondunun 2019-cu il büdcəsi haqqında məsələyə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.08 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Sahil müəllim, biz Sizə də, maliyyə nazirinə də indi söz vermədik, çünki suallar oldu. İkinci oxunuşda imkan yaradılacaq ki, o verilən sualları cavablandıra biləsiniz.

Gündəliyin 4-cü məsələsi Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Artıq dövlət büdcəsinin müzakirəsi zamanı yaşayış minimumu haqqında kifayət qədər məlumat verildi. Yaşayış minimumu haqqında qanun layihəsində göstərilir ki, 2019-cu il üçün yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat məbləğində müəyyən edilməlidir. Bu barədə artıq kifayət qədər müzakirələr apardıq. Ona görə də millət vəkillərindən xahiş edərdim ki, qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. Yaşayış minimumu haqqında çıxış edən zaman bir neçə məqamı qeyd etmək istərdim. Yaşayış minimumunun artırılmasını müsbət hesab edirəm. Eyni zamanda, qeyd etmək istəyirəm ki, təbii ki, qəbul edəcəyimiz yaşayış minimumu vasitəsi ilə bir ay yaşamaq mümkün deyil. Bunu sübut etmək üçün, sadəcə, bazara getmək və bazar qiymətləri şəraitində həmin vəsaitin yalnız bir neçə günə çatacağını öyrənmək kifayətdir. Bununla əlaqədar olaraq, burada səslənən bəzi məqamlarla bağlı da fikrimi qeyd etmək istəyirəm. Yaşayış minimumunun artırılması ilə bağlı təklif verilən zaman mütləq lazımdır ki, həmin vəsaitlər haradan əmələ gələr sualına da cavab verilsin. Bu nöqteyi-nəzərdən fikrimi qeyd etmək istəyərdim. Biz yaşayış minimumunu, sadəcə, haradan isə əlavə vəsaitin cəlb edilməsi ilə yox, Azərbaycan iqtisadiyyatının təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi vasitəsi ilə artıra bilərik. Bu da indiki

modeldən innovasiyalı inkişaf modelinə keçid əsasında ola bilər. Bunun alternativi yoxdur. Yalnız onunla biz rəqabət qabiliyyətli olub, inkişaf edə bilərik. Bu sualın bir tərəfi.

İkinci, bəs mövcud resurslardan necə istifadə edərik, bunu da mən açmaq istərdim. Azərbaycanda müstəqilliyin 27 ili ərzində iqtisadi artım MDB ölkələri, post-kommunist ölkələrinin hamısından çox yüksək olub. Azərbaycan ən yüksək templərlə inkişaf edib. Bəs həmin templər niyə əhalinin bütün təbəqələrinin güzəranının yaxşılaşdırılmasına xidmət etmir? Niyə o, əhalinin bir hissəsinin yenə həddindən artıq yoxsul yaşamasına gətirib çıxarır? Bax, bunu bəzi nisbətlərdə göstərmək istəyərdim. Birinci, Azərbaycanda milli gəlir ədalətlə bölünmür. Əgər biz müqayisəli götürsək, Rusiyada ümumdaxili məhsulun 45 faizindən çoxu, Qazaxıstanda ümumdaxili məhsulun 30 faizindən çoxu əmək haqqına yönəlirsə, Azərbaycanda ümumdaxili məhsulun 20 faizindən azı əmək haqqına yönəldilir. Əgər biz Qazaxıstan kimi ümumdaxili məhsulun 30 faizini əmək haqqına yönəltsək, onda maraqlı bir məsələ ortaya çıxacaq. Bizim iqtisadiyyatımız nə Rusiyadan, nə də Qazaxıstandan pis deyil. Bizim iqtisadiyyatda, sadəcə, bölgü sistemində ədalətsizliklər var. Həmin ədalətsizlikləri aradan qaldırıb, əgər biz də ümumdaxili məhsulun 30 faizini Qazaxıstan kimi əmək haqqına yönəltsək, onda biz əmək haqqının səviyyəsinə görə, Gürcüstan da daxil olmaqla MDB-də beşinci, altıncı yerə yox, Rusiyadan sonra ikinci yerə çıxacağıq. Qazaxıstanı da ötəcəyik. Bu iki dəfə iki dörd edir kimi bir həqiqətdir. Rəqəmlərlə əsaslandırmaq olar.

İkinci məsələ ondan ibarətdir ki, biz büdcənin strukturunu da dəyişməklə bu istiqamətdə xeyli iş görə bilərik. Büdcənin strukturu ona görə mütləq dəyişməlidir ki, beynəlxalq səviyyədə aparılan tədqiqatlar göstərir ki, büdcə vəsaitinin əsas hissəsinin təmir, tikinti işlərinə yönəldil-

məsi dünya praktikasında mədəni surətdə həmin vəsaitin yeyilməsinin ən populyar üsuludur. Buna kitablar həsr olunub. Ona görə burada nəyi isə formal məntiqlə əsaslandırmaqdansa, həmin vəsaitdən istifadənin səmərəliliyinin artırılması, nəzarət mexanizminin yüksəldilməsi, monitorinqlər vasitəsi ilə onun öz təyinatına yönəldilməsi lazımdır. Bununla yanaşı, məsələn, bizdə sosial sahələrə büdcənin 27, bəzi ölkələrdə 33 faizi yönəldilir. Qazaxıstanda isə 44 faiz. Bax, ikinci mənbə də bundan ibarətdir ki, həmin nisbəti dəyişməklə onlar əmək haqqının səviyyəsinə görə gəlib bizdən yuxarı çıxıblar. Bax, bu iki misal açıq formada göstərir ki, Azərbaycanın iqtisadiyyatı neft hasil edən MDB ölkələrinin, Rusiyanın və Qazaxıstanın iqtisadiyyatından heç də geri qalmır, pis deyil. Sadəcə, ədalətsizlikləri aradan qaldırmaq lazımdır. Qanunla müəyyən olunmuş, qadağan olunmayan bütün sahələrdə Azərbaycan xalqına imkan vermək lazımdır ki, 100 illər boyu yaşayıb-yaradıb, ailəsini dolandırıb, bundan sonra da ailəsini dolandıra bilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış edən yoxdur ki? Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.15 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, birinci oxunuşda qəbul edildi.

5-ci məsələ – ehtiyac meyarı haqqında. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli.** Oqtay müəllim, bizim komitədə hər iki məsələ geniş müzakirə olunub. Yaşayış minimumu rəqəmi də və eyni zamanda, ehtiyac meyarı göstəricisi də. Bildiyiniz kimi, ehtiyac meyarı, əslində, biz bunu, ünvanlı yardımı bizim aztəminatlı ailələrə çatdırmaq üçün müəyyənləşdiririk. Diqqət yetirəndə görürük ki, bu ötən ildən 13 manat fərqli bir göstəricidir və ilk baxışda az görünsə də, bütövlükdə, bu, 10 minlərlə yeni qrup insanların ünvanlı yardıma cəlb olunmasına gətirib çıxaracaq. Bildiyiniz kimi, ünvanlı yardımla bağlı da fəlsəfə bir az dəyişibdir. Daha çox özünüməşğulluğa diqqət yetirilir və beləliklə, bu kontingent artır.

Oqtay müəllim, bizim müzakirələrdə deputat həmkarlarım hansı məsələyə diqqət yetirdi? Əli müəllimin çıxışı mənə bir az əsas verdi ki, mən bunu yada salım. Deməк, ehtiyac meyarı 143 manatdır, bizdə minimum əmək haqqı bu gün 130 manatdır. Mən düşünürəm ki, ehtiyac meyarı bir başqa göstəricidir, əsas göstərici yaşayış minimumudur. Maliyyə Nazirliyinə müraciət edirik və mən düşünürəm, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də bu haqda fikirləşir, nə ediriksə, edək biz minimum əmək haqqını 180 manata yaxınlaşdırmalıyıq. Bununla da mən fikrimi yekunlaşdırmaq istəyirəm. 143 manat ehtiyac meyarını bütövlükdə biz qəbul edirik.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən hesab edirəm ki, bu ehtiyac meyarı ifadəsi cəmiyyətdə həmişə bir az çaşqınlıq yaradır. Çünki bu, həqiqətən də, insanların minimum yaşayışına uyğun olmayan standartların nümayişidir. 143 manat 130-dan, təbii ki, çoxdur və 13 manat artım büdcədə kifayət qədər böyük rəqəm kimi görünə bilər. Amma insanların bu meyarın hesablanmasında nəzərdə tutulandan daha çox məsrəfləri olur. Mə-

sələn, bu gün Azərbaycanda harada isə bir sosial şəbəkə istifadəçilərinin sayı bir milyonu ötüb. Hər bir evdə internet resurslarından istifadə olunur, mobil telefon şəbəkəsindən istifadə olunur. Bunlar da, əslində, ehtiyac meyarlarıdır. Müasir dünyada təkcə ərzaq, qida və başqa məsələlər bu kateqoriyaya daxil olmur. Sonra deyək ki, müxtəlif avadanlıqların qiymətinin artması nəticəsində tibbi xidmətin baha olması öz təsirini göstərir. Baxın, adi ev təsərrüfatına aid olan, vətəndaşa aid olan məsələlərdə ən böyük sıxıntını yaradan amillərdən biri nədir? Biznes sahəsində dövlət rüsumları ötən il ilə müqayisədə 44 faiz, gələn il üçün isə 33 faiz artımla proqnozlaşdırılır. Son iki ildə dövlət rüsumundan daxilolmalar 77 faiz artıb və bu ödəniş də onsuz da devalvasiyadan sonra sıxıntı yaşayan biznesin və ev təsərrüfatının üstünə düşür. Bütün bunlar hamısı minimum 300 manatdan yuxarı məbləğ edir.

Təbii ki, ölkənin imkanlarına baxmaq lazımdır. Burada çox hörmətli Əli müəllim də qeyd etdi ki, yəni MDB ölkələri ilə müqayisədə, heç olmasa, onların atdığı addımı biz bəzi məsələlərdə atsaq, bəlkə də burada daha böyük irəliləyiş əldə etmək olar. Bu mənbələr məsələsini də çox hörmətli Valeh müəllim dedi, əslində, kifayət qədər böyük mənbələr var. Azərbaycanda bu israfçılığı, lazımsız pul xərcləmələrini, lazımsız təmir-tikinti və başqa sahələrə ayrılan və dağıdılan vəsaitləri bir araya topalasan, ehtiyac meyarının bu səviyyədə olması bizim kimi ölkə üçün sevindirici deyil, məyusedici bir rəqəmdir. Ona görə də bunun üzərində gələcəkdə mütləq düşünmək lazımdır. Burada mən o təklifi də dəstəkləyirəm ki, minimum əmək haqqının da miqdarı artmalıdır. Siz təsəvvür edin ki, bu gün bir tibb mərkəzində adi bir tomoqrafiya aparatı ilə müayinənin qiyməti nə qədərdir? 130, 140, 150 manat səviyyəsində. Bir insan, bir həkim, bir

müəllim necə müalicə oluna bilər? Necə axı bu şəxs normal, iki dəfə aparatdan istifadə edə bilər? Artıq bu imkan yoxdur, maaşına görə bu imkan yoxdur. Ona görə də biz bu məsələlərdə, ünvanlı sosial yardımı təyin etmək üçün ehtiyac meyarını əsas götürürük. Amma bunun dəyəri yüksək olanda bazar qiymətlərinə və reallığa da daha çox uyğun olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ümumiyyətlə, Hadi müəllim, hər dəfə bu ehtiyac meyarı məsələsi qalxır. Amma ehtiyac meyarı indi minimum əmək haqqından da aşağıdır. Biz bu formanı salmışıq ortaya, bunun haqqında fikirləşmək lazımdır ki, hər dəfə bu söhbətlər olmasın. Maliyyə Nazirliyi ilə baxmaq lazımdır hamısına.

Əgər başqa fikir yoxdursa, xahiş edirəm, birinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, gündəliyin 5 məsələsinə baxdıq. 6 məsələ qalıb. Biz 6 məsələni çatdıra bilmərik. Əgər etiraz yoxdursa, sabah 6 məsələyə baxarıq. Yəqin günün birinci yarısında baxarıq.

Bugünkü iclasımız sona çatır. Sabah o 6 məsələyə qayıdacağıq. Sağ olun.